Xalqın qəzeti!

# Xalq qəzeti

№ 252 (30946) 28 noyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan sənayesinin yeniləşmə və yüksəliş marafonu davam edir

## *Prezident İlham Əliyev "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunda "Matanat-A" şirkətinin "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Matanat-A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Başirov dövlətimizin başçısına zavodun fəaliyyəti barədə məlumat verdilər.

Prezident İlham Əliyevə əvvəlcə əsası 2000-ci ildə qoyulan "Matanat-A" şirkəti barədə məlumat verildi. İnşaat materiallarının istehsalı sektorunda 25 ildir fəaliyyət göstərən şirkətin tərkibinə "Matanat-A" Quru İnşaat Qarışıqları, AĞDAĞ gips-karton və gipsəsaslı məhsulların istehsalı, AZERLİME əhəng, avadanlıq və dəzgahların istehsalı və ELBERG maşınqayırma zavodları daxildir. Şirkətin müəssisələrində, ümumilikdə, 1000-ə yaxın iş yeri yaradılıb.

Ərazisi 10 hektar olan "AZWOOL" mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.

Mineral daş yunu zavodunun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb.

*(ardı 2-ci səhifədə)*

# Azərbaycan – Avrasiyanın geostrateji qovşağı

## *Azərbaycanın Mərkəzi Asiya üçün yaratdığı alternativsiz inkişaf modeli*



**XXI əsrin üçüncü onilliyində Avrasiya materikinin siyasi və iqtisadi xəritəsinə nəzər saldıqda, Cənubi Qafqazın və Mərkəzi Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın oynadığı rolun sadəcə coğrafi üstünlüklərlə izah edilə bilməyəcək qədər dərin, strateji və unikal xarakter daşıdığı aydın görünür.**

İki qitəni, fərqli sivilizasiyaları və nəhəng enerji bazarlarını birləşdirən ölkəmiz hazırda təkcə nəqliyyat qovşağı və ya enerji təchizatçısı funksiyasını yerinə yetirmir, həm də Qərblə Şərq, Şimalla Cənub arasında dayanıqlı siyasi dialoqun, iqtisadi inteqrasiyanın və təhlükəsizlik arxitekturasının formalaşmasında həlledici söz sahibi olan "Kilit ölkə" statusunu nümayiş etdirir. Azərbaycanın mövqeyinin unikallığı Mərkəzi Asiyanın dünya okeanına və Avropa bazarlarına çıxışını təmin edən yeganə etibarlı, təhlükəsiz və suveren qapı olmasında, eyni zamanda, Türk dünyasının coğrafi və siyasi bütövlüyünü təmin edən birləşdirici halqa rolunu oynamasında təcəssüm edir.

*(ardı 4-cü səhifədə)*

## "Sülh körpüsü"ndə ümidli dialoq



Səhifə ⇨ 3

## Sülh ritorikası arxasında silah ehtirası



Səhifə ⇨ 6

## Azərbaycan–İordaniya əməkdaşlığında yeni səhifə



Səhifə ⇨ 7

## Əmlak bazarında stimullaşdırıcı addım



Səhifə ⇨ 9

## "Nyu–York Tayms"ın Azərbaycana qərəzi Trampa qarşı da yönəlib




Səhifə ⇨ 3

## Ankara–İrəvan normallaşmasında Azərbaycan amili



Səhifə ⇨ 4

# Ermənistan "kollektiv olmaq" istəmir, amma...

## *İrəvanın KTMT-nin Bişkek sammitində "iştirak"ına sözardı*



**Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Qırğızıstanın paytaxtı Bişkekdə keçiriləcək sammitində iştirak etməyəcək. Bu barədə məlumatı Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov verib.**

Qeyd edək ki, Ermənistan neçə müddətdir KTMT-nin toplantılarını boykot yolu tutur. Əvvəl bununla bağlı mənzərə, kifayət qədər dramatik idi. Qurumda hakim rol oynayan Rusiyanın rəsmiləri İrəvanı geri qaytarmaq məqsədilə ictimai rəyə, müəyyən mənada, şantaj xarakterli, ancaq heç bir faydası olmayan subliminal mesajlar ötürürdülər. Lakin indi durum fərqlidir. Belə təəssürat var ki, KTMT-də, ən əsası, Moskvada Ermənistanın, yumşaq desək, intizamsızlığına öyrəncəlidirlər. Buna görə də Uşakov sanki təsəlli tapırmış kimi rəsmi İrəvanın qurumun Bişkek toplantısında razılaşdırılmış sənədlərin qəbuluna qarşı olmadığı xəbərini verib. Görünür, Ermənistanın nazı ilə oynamaq dövrü arxada qalmayıb.

*(ardı 5-ci səhifədə)*

# Prezident İlham Əliyev “AZWOOL” mineral daş yunu zavodunun açılışında






**(əvvəli 1-ci səhifədə)**

Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.

Prezident İlham Əliyev “Matanat-A” şirkətinin müəssisələrində istehsal edilən məhsullarla da tanış oldu. Bildirildi ki, şirkətin zavodlarında 200-dən artıq ticarət markası ilə 3 mindən çox çeşiddə məhsul istehsal edilir. Məhsullar daxili tələbatı ödəməklə yanaşı, “Made in Azerbaijan” brendi ilə Qazaxıstan, Gürcüstan, İraq, Ukrayna, Özbəkistan və digər xarici ölkələrə ixrac olunur.

Dövlətimizin başçısı zavodu işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə, eyni zamanda, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfə verir.

***AZƏRTAC***

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası



**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Məhkəmə iclasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələri baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-cı maddəsinin “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 26.3-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim F.Məmmədovun məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin müraciətini və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Sumqayıt Apellyasiya Məhkəməsi, Vəkillər Kollegiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, həmin nazirliyin tabeliyində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru N.Şükürovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII və X hissələrinin tələblərinə, “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.4, 1.0.5, 1.0.9 və 26.3-cü maddələrinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən, sərəncamlarında olan avtonəqliyyat vasitələri ilə işçilərinin və ya yüklərinin daşınması məqsədilə öz hesabına daşımaları yerinə yetirən hüquqi şəxslər və fərdi sahibkarlar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 326-cı maddəsində göstərilən inzibati xətanın subyekti deyillər.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

***XQ***

# Daxili işlər nazirinin sıra baxışı





**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 166 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 9 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

# YAP nümayəndə heyətinin Kubaya səfəri başa çatıb



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Kuba Respublikasına səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, xarici ticarət və xarici investisiyalar naziri Oskar Perez-Oliva Fraqa ilə görüşü keçirilib.**

Görüş zamanı ümummilli lider Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun xalqlarımız və dövlətlərimiz arasında münasibətlərin qurulmasında tarixi əhəmiyyətə malik müstəsna rolu qeyd olunub. Dövlət başçılarının məqsədyönlü siyasəti sayəsində ikitərəfli münasibətlərin inkişafının diqqət mərkəzində olduğu vurğulanıb.

Nümayəndə heyətinin Kuba Kommunist Partiyası Siyasi Bürosunun üzvü, Kuba Qadınlar Federasiyasının Baş katibi Teresa Amareye Bouye və KKP Mərkəzi Komitəsinin üzvü, Gənc Kommunistlər İttifaqının Baş katibi Meyvis Estevez Eçeveria ilə də görüşləri olub. Görüşlərdə nümayəndə heyətinin Kubaya səfərinin qarşılıqlı faydalı olacağına və hərtərəfli əməkdaşlığa stimul verərək Azərbaycan-Kuba münasibətlərinə dinamizm gətirəcəyinə əminlik ifadə olunub. Söhbət zamanı, həmçinin hər iki ölkədə həyata keçirilən gənclər siyasətindən, o cümlədən gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlərdən bəhs olunaraq bu sahədə təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb.

Səfər zamanı nümayəndə heyətinin FIHAV ("Expocuba") sərgisinə ziyarəti də təşkil olunub.

***XQ***

# Ceyhun Bayramovun san-marinolu həmkarı ilə görüşü



**Noyabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İtaliyaya rəsmi səfəri çərçivəsində San-Marinonun xarici işlər, siyasi məsələlər, beynəlxalq iqtisadi əməkdaşlıq və rəqəmsal keçid naziri Luka Bekkari ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə San-Marino arasında münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Tərəflər iki ölkə arasında siyasi dialoqun genişləndirilməsi, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsi üçün imkanların mövcud olduğunu vurğulayıblar.

Nazirlər iqtisadi-ticarət əlaqələrinin dərinləşdirilməsi, investisiya imkanlarının araşdırılması, turizm, təhsil və humanitar sahələrdə əməkdaşlığın təşviqi üçün qarşılıqlı maraq ifadə ediblər.

Görüş zamanı, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, eləcə də Yaxın Şərqdə vəziyyət, Rusiya-Ukrayna münaqişəsi və qarşılıqlı maraq doğuran digər regional və qlobal məsələlər üzrə fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan–BƏƏ hərbi təcrübə mübadiləsi

**“Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hərbi əməkdaşlıq haqqında” Sazişə əsasən, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) dövlət nümayəndələri ölkəmizə səfər edib.**



Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən işçi görüşdə ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, hərbi əlaqələrin də inkişaf etdiyi qeyd olunub, təcrübə mübadiləsi baxımından qarşılıqlı səfərlərin və birgə təlimlərin əhəmiyyəti diqqətə çatdırılıb.

Qonaqlara 44 günlük Vətən müharibəsi, regiondakı vəziyyət və digər mövzularla bağlı brifinq təqdim olunub, maraq doğuran suallar cavablandırılıb.

Sonda hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, qarşılıqlı hədiyyələr təqdim olunub.

# “Sülh körpüsü”ndə ümidli dialoq

**Qonşu xalqlar arasındakı münasibətlər bəzən siyasi gündəmin sərt zərbələri altında formalaşsa da, əlaqələrin cəmiyyətlərin öz içindən yüksələn sakit, amma davamlı iradə ilə istiqamət tapması hallarına da rast gəlinir. Münasibətlərdə isə yenilik önəmlidir. “Sülh körpüsündən keçən dialoq” anlayışı da məhz yeni mərhələnin simvolu kimi ortaya çıxır. İdeologiyaların yaratdığı divarların arxasında iki xalqın bir-birini dinləmək cəhdi həmin mərhələnin xarakterini müəyyənləşdirir. Yəni bu gün artıq aydın görünür ki, dialoq yaşadığımız regionun da daxili ehtiyacından doğan geosiyasi zərurətdir.**



Son aylarda Bakıda və İrəvanda gerçəkləşmiş iki görüş həm bu ehtiyacı, həm də tərəflərin real iradəsini konkret şəkillərdə göstərdi. İrəvandakı ilk görüş daha çox “laboratoriya mühitini” xatırladırdı. Tərəflər bir-birini tanıyır, mövqeləri ölçür və dialoqun hansı çərçivədə davam edə biləcəyini müəyyənləşdirirdi. Siyasi-analitik sual buradan doğur: Bəs görüşün funksiyası nə idi – tərəflər bir-birinə niyə ehtiyatla yanaşırdı? Cavab sadədir: uzun illər informasiya blokadalarında formalaşmış iki cəmiyyət üçün dialoq təcrübəsinin özü belə qeyri-adi hadisə idi.



Bakı görüşü isə artıq başqa səviyyədir. Burada tanışlıq yox, konkretlik var. İlk mərhələdə səsləndirilən ideyalar Bakıda praktik müzakirəyə çevrildi: media ilə iş modeli, dezinformasiya ilə mübarizənin mexanizmləri, toponimlərlə bağlı vahid yanaşma, sərhəd regionlarına səfərlərin təşkili və ekspert komandasına yeni ixtisasların əlavə edilməsi. Yəni dialoq artıq əməli xarakter alır.

Burada ortaya mühüm siyasi sual çıxır: Necə oldu ki, birinci görüşdə yaranmış inam hissi ikinci təmasa keçdi? Görünür ki, səmimilik, rəsmi şəxslərlə açıq ünsiyyət, media ilə təmas prosesi öz-özünə böyütdü. Artıq heç kim bu görüşləri kənar strukturların “layihəsi” saymır; onlar regionun daxili ehtiyacının məhsulu kimi qəbul olunur. Digər vacib məqam budur ki, tərəflər ilkin mərhələdən çıxıb daha geniş mövzulara keçdikcə, dialoqun həm çətin, həm də qaçılmaz olduğu qənaətlərini dolğunlaşdırırlar.

Ermənistanda təhlükəsizlik şurasının katibi Armen Qriqoryanla, Bakıda Azərbaycan Prezidentinin köməkçisi – Prezidentin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə görüşlər dialoqun yalnız QHT-lərin təşəbbüsü olmadığını göstərir. Siyasi baxımdan bu o deməkdir ki, tərəflər dialoqu öz siyasi gündəmlərinin periferiyasından çıxarıb qərarvermə mərkəzinə yaxınlaşdırırlar. Dövlət səviyyəsində açıq qəbul isə xoş niyyətin ən güclü göstəricisidir.

Burada ciddi analitik sual yaranır: Niyə tərəflər ən həssas mövzuları gündəmə çıxarmağa bu qədər tələsirlər? Çünki onlar anlayırlar ki, dialoq problemi ört-basdır etməklə deyil, onu birbaşa öz adı ilə vurğulayıb həllinə çalışmaqla legitimləşir. Susdurulmuş mövzu nə qədər uzun yaşayırsa, siyasi risk bir o qədər böyüyür. Həqiqi niyyətin ən çətin imtahanı isə mediadır. Əvvəllər tərəflər ictimai rəyə çıxmaqdan ehtiyat edirdilərsə, indi onlar dialoqun mövzularını geniş ictimaiyyətə çatdırmağa ehtiyac duyurlar. Bu, son dərəcə vacib məqamdır.

Bəs cəmiyyətlərin “sakit dəstəyi” nə deməkdir? Bu nə dərəcədə real dəstəkdir? Bəlkə yorğunluğun nəticəsidir? Cavab ikilidir: bəli, insanlar yorulub; amma məhz bu yorğunluq münaqişənin uzadılmasını deyil, yekunlaşdırılmasını tələb edən sosial enerji yaradır. Belə bir enerji siyasi addımları legitimləşdirən mühüm faktordur.

Regionda formalaşan yeni siyasi konfiqurasiya Cənubi Qafqazın uzun illər davam edən ziddiyyətlər məkanından qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq müstəvisinə keçidi üçün unikal imkan pəncərəsi açır. Tərəflərin dialoqdan real nəticəyönlü gündəliyə keçməsi həm regional sabitliyin strateji əsasının möhkəmlənməsi, həm də regionun enerji, logistika və təhlükəsizlik arxitekturasına dair yeni parametrlərin formalaşması deməkdir.

*

2024-cü ildən sonra müşahidə olunan yumşalma xətti ilk dəfə olaraq Bakı–İrəvan münasibətlərində normallaşmanın “konsepsiya mərhələsi”ndən çıxıb praktik transformasiyaya doğru irəlilədiyini göstərdi. Hərbi-siyasi eskalasiya risklərinin azalması regionun beynəlxalq aktorlar üçün daha proqnozlaşdırılan məkana çevrilməsinə zəmin yaradır. Məhz bu kontekstdə iki görüşün ardıcıllığı Cənubi Qafqazda təhlükə əndişəsinin zəifləməsi anlamına gəlir. Siyasi risklərin azaldığı mühitdə regional oyunçuların maraqlarının toqquşma tempi səngiyir, qarşılıqlı asılılıq elementləri isə güclənir.

Yeni dinamikanın mühüm özəlliyi tərəflərin artıq sıfır-cəmlilik yanaşmasından uzaqlaşaraq, daha rasionallaşdırılmış geosiyasi hesablamalara üstünlük verməleridir. Azərbaycan üçün nəqliyyat-kommunikasiya xətlərinin açılması regiondaxili iqtisadi cəlbediciliyi artırır, Ermənistan üçün isə blokadadan çıxış və iqtisadi müxtəlifləşmə strateji prioritetə çevrilir.

İkitərəfli maraqlar toqquşan deyil, əksinə bir-birini tamamlayan xarakter daşıyır. İrəvanın regional şaxələndirməyə ehtiyacı ilə Bakının tranzit mərkəzi kimi yüksələn rolu arasında sinxronluq yaranması dialoqun davamlılığını təmin edən struktur baza formalaşdırır.

Yeni dinamika böyük güclərin Cənubi Qafqaza baxışında da səssiz korrektələrə səbəb olub. Qərb platformaları regionda münaqişə postfazasında dayanıqlılığın təminini prioritetləşdirərkən, Rusiya faktoru isə balanslaşdırılmış, eskalasiyadan uzaq bir xəttə üstünlük verir. Belə bir paralel transformasiya Azərbaycanın və Ermənistanın daha çox manevr imkanına malik olduğu çoxvektorlu mühit yaradır.

Ən mühüm məqam isə odur ki, geosiyasi rəqabət tənzimlənən, “yüksək intensivlikli olmayan” dinamika formatında özünü göstərir. Bir digər pozitiv xətt enerji və nəqliyyat infrastrukturunun regionda geoiqtisadi inteqrasiyanın əsas təkanverici qüvvəsinə çevrilməsidir. Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin qovşağında duran Azərbaycan üçün Ermənistanla normallaşma bu layihələrin təhlükəsizlik parametrlərini daha da möhkəmləndirə bilər. Ermənistan isə öz növbəsində aparıcı xətlərə bağlanmaqla, həm tranzit gəlirləri, həm də iqtisadi dayanıqlılıq baxımından yeni mərhələyə keçər.

*

Əlbəttə ki, Cənubi Qafqazda mövcud pozitiv dinamika mühüm imkanlar açsa da, prosesdən geri çevrilmə riskini tam istisna etmək olmaz. Regionun son üç onillik siyasi tarixi göstərir ki, normallaşma təşəbbüsləri yalnız geosiyasi konfiqurasiyanın uyğunlaşdığı hallarda davamlı olur. Buna görə də hazırkı mərhələdə həm daxili siyasi faktorlar, həm də kənar güclərin rəqabət trayektoriyası prosesin dayanıqlılığına təsir edən kompleks risk çərçivəsi formalaşdırır.

İrəvanda daxili siyasi mühitin yüksək volatilliyi normallaşmanın ən ciddi zəif həlqələrindən biri olaraq qalır. Revanşist müxalifətin antisülh ritorikasının güclənməsi və hökumətə yönəlik təzyiqlər Ermənistanın atdığı addımların institusional təminatını zəiflədir. Siyasi elitanın konsensus çatışmazlığı ölkənin xarici siyasət kursunun sabitliyinə maneə olur və Bakı ilə aparılan dialoq xəttinin uzunmüddətli perspektivini riskə atır. Mövcud fon Ermənistan cəmiyyətində revanşist yanaşmaların hələ də tam neytrallaşmaması ilə tamamlanır və normallaşma prosesində sosial legitimlik boşluğu yaradır.

Cənubi Qafqaz daim geosiyasi rəqabət zonası olduğundan, böyük güclərin maraq dairəsindəki hər bir korrektə regional dinamikanı yenidən formatlaya bilər. Qərbin normallaşmanı dəstəkləyən siyasəti ilə Rusiyanın təsir alətləri arasında balansın dəyişməsi də risklər yaradır. Onu da unutmaq olmaz ki, Moskvanın Ermənistan üzərində azalan təsirini kompensasiya etmək üçün situativ manevrləri, yaxud Qərbin bölgədə aktiv iştirakının artması Bakı–İrəvan prosesinə dolayı təsir göstərmək imkanındadır.

Normallaşma dövründə informasiya məkanının həssaslığı da yüksək olaraq qalır. Sosial şəbəkələrdə məqsədyönlü manipulyasiya, dezinformasiya kampaniyaları və ictimai rəyi yönləndirməyə xidmət edən ritorika tərəflər arasında etimad mühitini kövrəldə bilər. Münaqişə sonrası humanitar məsələlərin həllində ləngimə baş verməsi texniki problem olmaqdan çıxaraq, siyasi gərginlik yarada biləcək növbəti faktor kimi meydana çıxır.

Bütün bunlar onu göstərir ki, normallaşmanın uğuru uzunmüddətli strateji planlamadan, ünsiyyət kanallarının sabit saxlanılmasından və regional aktorların qarşılıqlı asılılığı düzgün idarə etməsindən asılıdır. Məhz bu yanaşma Cənubi Qafqazın qarşıdurma məkanından sülh və əməkdaşlıq platformasına çevrilməsi üçün əsas şərtdir. Vurğuladığımız məqamlar fonunda belə nəticəyə gəlmək olar ki, qarşıdakı dövrdə siyasi iradə qorunsa, risklər effektiv idarə olunsa və kommunikasiya kanalları institusional müstəviyə keçirilsə, Cənubi Qafqaz uzun illərdən sonra ilk dəfə real sülhə yaxınlaşmaq imkanı əldə edəcək.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# “Nyu–York Tayms”ın Azərbaycan qərəzi Trampa qarşı da yönəlib

**ABŞ Prezidenti Donald Tramp “Nyu–York Tayms” qəzetini tənqid edərək nəşri xalqın düşməni adlandırıb. Bu barədə D.Tramp özünün “Truth Social” şəbəkəsindəki paylaşımında bildirib.**




Xatırladaq ki, bir neçə gün öncə qəzetdə dərc olunan məqalədə D.Trampın prezident kimi vəzifə öhdəliklərini səmərəli şəkildə yerinə yetirmək qabiliyyəti şübhə altına alınıb. Trampın tənqidlərinin kökündə də bu məqalə dayanır: “Bağlanmaq təhlükəsi ilə üzləşən “Nyu–York Tayms”da sol radikal baxışlı ağılsızlar mənim haqqımda məqalə yazıblar... Onlar mənim əmək qabiliyyətimin aşağı düşə biləcəyini iddia edirlər. Hərçənd ki, faktlar bunun əksini sübut edir. Bu “qəzetcik” əsl xalq düşmənidir”.

Amerika lideri “Nyu–York Tayms”ın gəldiyi qənaəti rədd edib, özünün siyasi və iqtisadi uğurlarını vurğulayıb. Həmçinin, bu yaxınlarda keçdiyi tibbi müayinəni və koqnitiv (idrak) testi xatırladıb. Bu testlərin nəticələrini möhtəşəm adlandırıb. “Mən 2024-cü ildəki prezident seçkilərində böyük səs fərqi ilə qalib gəldim”, – deyən Tramp səkkiz müharibə və ya silahlı münaqişəni nizamlamasını, habelə 48 yeni fond bazarı rekordunu əsas nailiyyəti kimi sadalayıb. O, həmçinin qəzeti qərəzli olmaqda və informasiyanı qəsdən təhrif etməkdə günahlandıraraq iddia edib ki, onun səhhəti ilə bağlı məqalənin müəllifi Keti Rocers üçüncü dərəcəli jurnalistdir. Trampın sözlərinə görə, Rocersə onun haqqında yalnız pis şeylər yazmaq həvalə olunub.

*

Qeyd etmək lazımdır ki, media və prezident arasında gərginlik Birləşmiş Ştatların siyasi həyatında yeni məsələ deyil. Lakin D.Trampla “Nyu–York Tayms”ın son qarşıdurması bu münasibətlərin daha sərt mərhələyə keçdiyini göstərir. Trampın paylaşımı təkcə emosional reaksiyanın ifadəsi deyil, həm də öz mübarizə üsuludur. Hamıya məlumdur ki, Tramp opponentlərini tənqid etməklə yanaşı, onların motivlərini də sual altına qoyur və bununla ictimai rəyin istiqamətini dəyişməyə çalışır.

Məsələnin kökündə isə qəzetin Trampın vəzifə öhdəliklərini yerinə yetirmək qabiliyyəti ilə bağlı şübhə toxumu səpən yazısı dayanır. Bu yazı son aylarda yenidən gündəm olan Trampın yaşı, səhhəti və ikinci prezidentlik dövründə ölkəni idarəetmə bacarığı barədə müzakirələri ştatlarda daha da qızışdırıb. Məhz buna görə də Trampın reaksiyası sərt oldu. O, qəzetin yazdıqlarını əsassız sayır, özünü isə siyasətdə təcrübəli və güclü lider kimi təqdim edir. Xüsusilə də tibbi müayinədən keçməsi, idrak testlərini uğurla verməsi haqda dedikləri ilə bu tənqidlərin qarşısını almağa çalışır.

Trampın ittihamlarının hədəfində təkcə məqalənin müəllifi yox, bütövlükdə qəzet dayanır. “Nyu–York Tayms”ı qərəzli və faktları təhrif edən nəşr kimi təqdim etməsi, əslində, onların uzun illərdir davam edən savaşının tərkib hissəsidir. Bu qəzet özünü ABŞ-da liberal düşüncənin aparıcı tribunası hesab edir və Trampın siyasi xətti ilə heç vaxt uzlaşmağa cəhd göstərməyib. Tramp da bunu yaxşı anlayır və hər dəfə, fürsət düşdükcə oxucuların gözündə bu nəşrin etibarlılığını aşağı salmağa cəhd edir. Yazıda Trampın səhhəti ilə bağlı məqamların qabardılması təsadüfi deyil. Çünki seçkiyə gedən namizədin sağlamlıq durumu ABŞ siyasətində mühüm faktordur. Xüsusilə dünya siyasətinin son illərdə müxtəlif ağır hadisələrlə yüklənməsi liderlərdən həm zehni, həm də fiziki cəhətdən böyük enerji tələb edir. Bu baxımdan “Nyu–York Tayms”ın yazısı Trampın siyasi perspektivinə zərbə vurmağa hesablanmış addım kimi görünür.

Tramp isə öz arqumentlərini sadalamaqda davam edir. O, prezidentliyi dövründə silahlı münaqişələrin həllini tapdığını, fond bazarlarında rekordlar qırıldığını xatırladır. Bu, həm seçicilərə mesajdır, həm də qəzetin onu təsvir etdiyi obrazı dağıtmaq cəhdidir. “Nyu–York Tayms”ın mövzunu bu qədər qabartması da təsadüfi deyil. Qəzet Trampın ikinci dəfə siyasi hakimiyyətə qayıdışını təhlükə kimi görən çevrələrin ruporu rolunu oynayır. Məqalədə səhhət mövzusunun ön plana çəkilməsi, Trampın iddia etdiyi kimi, sadəcə, jurnalistin şəxsi təşəbbüsü yox, geniş dairələrin narahatlığının əksidir. Bu səbəbdən Trampın reaksiyası emosional olsa da, siyasi baxımdan başadüşüləndir.

Əslində, tərəflər arasında davam edən bu qarşıdurma ABŞ-da media-siyasət münasibətlərinin ayrılmaz tərkib hissəsidir. Lakin “Nyu–York Tayms”ın öz obyektivliyini getdikcə daha çox sual altına atan yanaşması onun nüfuzuna fayda gətirmir. Qəzet siyasi mübarizənin bir tərəfi kimi çıxış etdikcə, oxucu üçün informasiya mənbəyindən çox, siyasi alət təsiri bağışlayır. Trampın əsas hədəfi də məhz bunu nümayiş etdirməkdir: yəni rəqibini tənqid etməklə yanaşı, onun əlinə necə deyərlər, “kozır” verən mətbuatın da etibarsız olduğunu göstərmək.

Bütövlükdə, hazırkı mübahisə həm ABŞ seçkilərinə gedən prosesin gərginliyini, həm də Trampın siyasi üslubunda heç nəyin dəyişmədiyini bir daha ortaya qoyur. O, yenə əvvəlki kimi qarşısındakı bütün tənqidçiləri sıxışdırır, öz obrazını isə maksimum möhkəmləndirməyə çalışır. Bu qarşıdurma seçkiyə qədər daha çox davam edəcək və görünən odur ki, ən böyük mübarizə təkcə siyasi rəqiblərlə deyil, media ilə də olacaq.

*

Onu da bildirək ki, “Nyu–York Tayms”ın təkcə ABŞ siyasətində deyil, beynəlxalq mövzularda da qərəzli mövqeyi uzun illərdir müzakirə olunur. Qəzet Azərbaycana qarşı tutduğu qərəzli mövqeyi ilə də, necə deyərlər, məşhuri-cahandır. Onun bu davranışı ölkəmizdə zaman-zaman tənqid olunub. Qəzet ölkəmizə dair mövzuları işıqlandırarkən faktları tam şəkildə təqdim etmir, hadisələri birtərəfli şəkildə yozur və nəticədə oxucuya tamamilə təhrif olunmuş təsvir ötürür. Bu, artıq təsadüf yox, redaksiya xəttinin formalaşmış bir parçasıdır. Ölkəmizin haqq savaşında, Qarabağ reallıqlarında, bölgədəki yeni siyasi düzənlə bağlı yazılarda “Nyu–York Tayms”ın seçdiyi ton, istifadə etdiyi ifadələr, sitatların seçimi yalnız bir məqsədə – ölkəmizi zəif, aqressiv və ya beynəlxalq hüquqa məhəl qoymayan tərəf kimi göstərməyə xidmət edib. Halbuki həmin dövrdə baş verən hadisələrin məğzini, 30 illik işğal faktını, beynəlxalq hüququn prinsiplərini gözardı etmək üçün ya məsələlərə çox səthi yanaşmaq, ya da bilərəkdən qərəz nümayiş etdirmək lazımdır. Təəssüf ki, “Nyu–York Tayms” ikinci yolu seçib.

Bu mövqe Azərbaycanda dəfələrlə tənqid olunub. Ən yüksək səviyyədə dövlət rəsmiləri, jurnalistlər, ekspertlər və ictimaiyyət nümayəndələri haqlı olaraq bildiriblər ki, “Nyu–York Tayms” kimi nüfuz iddiasında olan media qurumunun belə davranması obyektivlik prinsiplərinə ziddir. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində səsləndirdiyi fikirləri xatırlatmaq yerinə düşər: “Bəli, bilirsiniz ki, Prezident Trampın əsaslı olaraq saxta xəbərlər adlandırdığı bəzi Birləşmiş Ştatlar mediasında Azərbaycan iblis donunda təqdim olunurdu. “Vaşinqton Post”, “Nyu–York Tayms”, “Nyusveek” və bir çox başqa media qurumları mütəmadi olaraq Azərbaycan haqqında şayiələr yayır, bizə hücum edir, təhqiramiz yazılar dərc edir və əslində, Amerika ictimai rəyini çaşdırırdılar. Bunu əsasən bu gün erməni maraqlarına uyğun fəaliyyət göstərən erməni lobbi qruplarının nümayəndələri ediblər”.

Prezident İlham Əliyev qeyd etmişdi ki, bu gün baş verənlərə sevinmək əvəzinə, onlar çox məyus olurlar, çünki onların maraqları tamamilə fərqlidir: “Onlar işğala görə məsuliyyət daşıyanlardır, çünki onların ideyaları, məsləhətləri, pulları və Ermənistanın müxtəlif hökumətlərinə təsirləri Ermənistanın özü üçün dağıdıcı rol oynayıb. Əgər onlar, belə qruplar olmasaydı, Ermənistan daha çox inkişaf etmiş, möhkəm, müstəqil sistemə malik ölkə olardı. Amma onlar, sadəcə, vaxt itirdilər, torpaqlarımızı işğal edərək vaxt itirdilər və sonda bu işğalı əbədi saxlaya bilmədilər, əslində isə özlərini inkişafdan 30 il geri atdılar”.

**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, dünyaya, necə deyərlər, söz azadlığının qalası kimi təqdim olunan bir nəşrin faktlarla bu qədər qərəzli davranması onun adına və olan-qalan nüfuzuna xələl gətirir. Onun sözlərinə görə, bu gün Prezident Trampın qəzeti tərəfli olmaqda ittiham etməsi təsadüfi



deyil: “Sadəcə, bu dəfə hədəfdə Azərbaycan deyil, ABŞ daxilindəki siyasi rəqiblər dayanır. Amma qəzetin ənənəvi yanaşmasına baxanda Trampın dedikləri bir qədər başadüşülən görünür. Çünki “Nyu–York Tayms”ın istədiyi mənzərəni yaratmaq üçün faktları necə düzüb-qoşduğunu ölkəmiz yaxşı görüb. Bir sözlə, qəzetin Azərbaycana qarşı illərdir sərgilədiyi münasibət indi ABŞ siyasətinin daxili mübarizəsində də özünü göstərir. Bu isə həmin nəşrin jurnalist nüfuzu ilə siyasi mövqeyi arasında sərhədi çoxdan itirdiyini sübut edir”.

Ekspert hesab edir ki, “Nyu–York Tayms”ın Azərbaycanla bağlı mövzulara yanaşması təkcə qərəz məsələsi deyil, həm də regionu dərindən tanımamağın nəticəsidir: “Qəzet hadisələri çox vaxt uzaqdan, hazır stereotiplər əsasında qiymətləndirir. Bu isə reallığı təhrif edir və oxucuda yanlış təsəvvür formalaşdırır. Azərbaycanla bağlı yazılarda yerli mənbələrə, bölgənin tarixi və hüquqi kontekstinə istinad azdır, nəticədə, təqdim olunan mənzərə birtərəfli alınır”.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan – Avrasiyanın geostrateji qovşağı

(əvvəli 1-ci səhifədə)



Tarixi təcrübə və müasir geosiyasi reallıqlar göstərir ki, dövlətlərin strateji əhəmiyyəti onların sahib olduqları resurslardan daha çox, həmin resursları necə idarə etmələri və yerləşdikləri coğrafiyanı qlobal layihələrin mərkəzinə çevirmək bacarıqları ilə ölçülür. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik və uzaqgörən xarici siyasət kursu ölkəni postsovet məkanının ənənəvi problemlərindən uzaqlaşdıraraq, qlobal miqyasda hesablaşılan, müstəqil iradəyə malik orta güc (middle power) səviyyəsinə yüksəltmişdir.

Cənubi Qafqaz və Mərkəzi Asiya regionları arasındakı inteqrasiya proseslərində Bakının oynadığı rol bu strategiyanın təntənəsidir. Rusiya-Ukrayna müharibəsi fonunda qlobal təchizat zəncirlərinin qırılması və Şimal Dəhlizinin faktiki olaraq fəaliyyətini dayandırması diqqəti Orta Dəhlizə (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) yönəltmişdir. Həmin marşrutun mərkəzi oxunu təşkil edən ölkəmiz Mərkəzi Asiya dövlətləri üçün mühüm əhəmiyyət kəsb edən strateji tərəfdaşa çevrilmişdir. Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan kimi ölkələr ixrac potensiallarını şaxələndirmək və ənənəvi asılılıqlardan xilas olmaq üçün Azərbaycanın təklif etdiyi tranzit imkanlarına, logistik infrastruktura və siyasi dəstəyə ehtiyac duyurlar.

Azərbaycanın mövqeyini unikal edən əsas amillərdən biri rəsmi Bakının Mərkəzi Asiya ölkələri ilə qurduğu münasibətlərin xarakteridir. Bu münasibətlər sadəcə iqtisadi mənfəət üzərində deyil, eyni zamanda dərin etnik, mədəni və tarixi köklərə əsaslanır. Azərbaycan Xəzər dənizinin qərb sahilində yerləşən yeganə türk dövləti olaraq, Mərkəzi Asiyadakı qardaş respublikaların Avropa və Türkiyə ilə əlaqəsini təmin edən təbii körpüdür. Lakin Azərbaycan sadəcə körpü rolunu oynamaqla kifayətlənmir, həm də regionlararası əməkdaşlığın gündəliyini müəyyən edən, yeni təşəbbüslər irəli sürən və investisiya layihələrini reallaşdıran fəal ölkədir.

Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması, Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqli, rəqəmsal İpək Yolu layihəsinin icrası kimi addımlar Bakının Mərkəzi Asiya regionunda artan iqtisadi və siyasi çəkisinin əyani sübutudur. Digər Cənubi Qafqaz ölkələrindən fərqli olaraq, Azərbaycanın Mərkəzi Asiya ilə münasibətləri bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı etimad prinsipinə söykənir ki, bu da onu regionun digər dövlətləri qarşısında rəqabətsiz üstünlüklə təmin edir.

Enerji təhlükəsizliyi məsələsi Azərbaycanın unikallığını şərtləndirən digər əsas faktordur. Avropanın enerji xəritəsinin yenidən formalaşdığı bir dövrdə Azərbaycan qitənin enerji təhlükəsizliyinin təminatçısı kimi çıxış edir. Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya qaz ixrac edən dövlətimiz, eyni zamanda Mərkəzi Asiyanın enerji resurslarının Qərbə nəqli üçün zəruri infrastrukturu və siyasi iradəni təqdim edir. Türkmənistan və Qazaxıstanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasında Azərbaycanın rolu təkcə iqtisadi dividendlərlə ölçülmür.

Həmin proses ölkəmizi Avropa İttifaqı ilə Mərkəzi Asiya arasında strateji dialoqun əsas vasitəçisinə və qarantına çevirir. Avropa Komissiyası rəhbərliyinin Bakıya səfərləri və Azərbaycanla strateji tərəfdaşlıq sənədlərinin imzalanması Qərbin ölkəmizi geniş Avrasiya məkanında sabitliyin və inkişafın açarı kimi qəbul etdiyini göstərir. Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl Enerji Dəhlizi" layihəsi Xəzər dənizinin külək enerjisi potensialının Avropaya nəqlini nəzərdə tutur.

Nəqliyyat və logistika sahəsində Azərbaycanın mövqeyi əvəzolunmaz və rəqabətsizdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və inkişaf etdirilən avtomobil yolları şəbəkəsi Şərq-Qərb nəqliyyat dəhlizinin ən vacib halqalarıdır. Çindən Avropaya və əks istiqamətə yükdaşımaların həcminin artması Orta Dəhlizin aktuallığını heç vaxt olmadığı qədər artırmışdır. Mərkəzi Asiya ölkələri dənizə çıxışlarının olmaması səbəbindən ("landlocked countries"), qlobal ticarətə inteqrasiya üçün Azərbaycana ehtiyac duyurlar.

Azərbaycan isə öz növbəsində, tranzit prosedurlarını sadələşdirməklə, gömrük sistemini rəqəmsallaşdırmaq və tarif siyasətini optimallaşdırmaqla, Mərkəzi Asiya yüklərinin sürətli və maneəsiz keçidini təmin edir. Mərkəzi Asiya ölkələrinin rəhbərlərinin mütəmadi olaraq Azərbaycana səfərləri və nəqliyyat sahəsində imzalanan yol xəritələri region dövlətlərinin Bakının tranzit potensialına verdiyi önəmin göstəricisidir.

Azərbaycanın unikal mövqeyi həm də onun təhlükəsizlik arxitekturasındakı rolu ilə bağlıdır. 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər və 2023-cü ildə suverenliyin tam bərpası Cənubi Qafqazda yeni hərbi-siyasi reallıq yaratmışdır. Ölkəmiz regionda separatizmə son qoyan və beynəlxalq hüququ öz gücünə bərpa edən yeganə dövlət kimi, həm Cənubi Qafqaz, həm də Mərkəzi Asiya ölkələri üçün güclü dövlətçilik və ordu quruculuğu modeli təqdim edir.

Qlobal təhdidlər və regiondakı digər risklər fonunda, Azərbaycanın təhlükəsizlik sahəsindəki təcrübəsi, xüsusi xidmət orqanları və müdafiə sənayesi sahəsindəki uğurlarını diqqətlə izlənilir. Azərbaycan, Türkiyə və Pakistanla birlikdə formalaşdırdığı üçtərəfli əməkdaşlıq formatı vasitəsilə, faktiki olaraq regionun təhlükəsizlik çətirinin formalaşmasında iştirak edir. Mərkəzi Asiya dövlətləri ilə keçirilən birgə hərbi təlimlər, kibertəhlükəsizlik sahəsində təcrübə mübadiləsi və hərbi-texniki əməkdaşlıq Bakının regionun sabitliyinə verdiyi töhfənin bariz nümunəsidir.

Geosiyasi baxımdan Azərbaycan Qərb və Şərq, Şimal və Cənub qütbləri arasında uğurlu balanslaşdırma siyasəti yürüdən nadir ölkələrdəndir. Qoşulmama Hərəkatına sədrliyi dövründə Bakının nümayiş etdirdiyi qlobal liderlik onun beynəlxalq nüfuzunu Mərkəzi Asiya ölkələri üçün də əlçatmaz səviyyəyə qaldırmışdır. Azərbaycan qlobal platformalarda, o cümlədən BMT-də və İslam Əməkdaşlıq Təşkilatında Mərkəzi Asiya ölkələrinin maraqlarını dəstəkləyən, onların səsinin eşidilməsinə şərait yaradan etibarlı dostdur.

Eyni zamanda, ölkəmizin Avropa İttifaqı ilə strateji enerji tərəfdaşlığı və NATO ilə səmərəli əməkdaşlığı onun Mərkəzi Asiya ölkələri üçün Qərbə inteqrasiya yolunda bələdçi rolunda çıxış etməsinə imkan verir. Digər tərəfdən, Rusiya və İranla qonşuluq münasibətlərini praqmatik məcrada saxlaması, Azərbaycanın diplomatik manevr qabiliyyətinin yüksəkliyinin göstəricisidir.

Azərbaycanın öz iqtisadi modelinin dayanıqlılığının təminatı və şaxələndirilməsi istiqamətində atdığı addımlar da onun regiondakı unikal mövqeyini gücləndirir. Rəqəmsal iqtisadiyyatın inkişafı, innovasiyaların tətbiqi və sənayeləşmə siyasəti, ölkəmizi regionun iqtisadi cazibə mərkəzinə çevirir. Ələt Azad İqtisadi Zonası kimi layihələr Mərkəzi Asiya investorları və şirkətləri üçün yeni imkanlar yaradır. Azərbaycan Mərkəzi Asiya ölkələrinin məhsullarının emalı və qablaşdırılması, buradan isə Avropa bazarlarına çıxarılması üçün platforma təklif edir. Kənd təsərrüfatı, turizm və yüksək texnologiyalar sahəsində əməkdaşlıq regionlararası iqtisadi inteqrasiyanın dərinləşməsinə xidmət edir.

Humanitar və mədəni diplomatiya sahəsində Azərbaycanın oynadığı rol da xüsusi vurğulanmalıdır. Bakı Türk dünyasının mədəni paytaxtı funksiyasını uğurla yerinə yetirir, ortaq türk irsinin qorunması və təbliği istiqamətində qlobal layihələrə ev sahibliyi edir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən mədəni mübadilə proqramları, təhsil təqaüdləri və gənclər forumları Cənubi Qafqaz və Mərkəzi Asiya xalqları arasında canlı ünsiyyət körpüləri yaradır. Azərbaycanın multikulturalizm modeli və dini tolerantlıq mühiti Mərkəzi Asiya ölkələri üçün də nümunəvi xarakter daşıyır.

Bakıda keçirilən beynəlxalq tədbirlər, o cümlədən COP29 kimi qlobal sammitlər Mərkəzi Asiya ölkələrinin də qlobal problemlərin müzakirəsinə cəlb olunması üçün platforma rolunu oynayır. Azərbaycan iqlim dəyişmələri, su qıtlığı və ekoloji problemlər kimi Mərkəzi Asiya üçün mühüm əhəmiyyət daşıyan məsələlərin beynəlxalq gündəliyə daşınmasında fəal iştirak edir. Xəzər dənizinin ekologiyasının qorunması və su resurslarının səmərəli istifadəsi istiqamətində təşəbbüslərimiz isə region ölkələri tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasındakı mövqeyi tarixi, coğrafi, iqtisadi və siyasi amillərin sintezindən yaranan unikal strateji fenomendir. Dövlətimiz iki regionu bir-birinə bağlayan fiziki və mənəvi bağdır. Rəsmi Bakının yürütdüyü müstəqil, milli maraqlara söykənən və regional əməkdaşlığa hədəflənmiş siyasət onu Avrasiyanın geosiyasi arxitekturasında əvəzolunmaz liderə çevirmişdir. Mərkəzi Asiya dövlətləri üçün ölkəmiz Qərbə açılan yeganə etibarlı pəncərə, strateji müttəfiq və iqtisadi tərəfdaşdır. Qərb üçün isə Azərbaycan Mərkəzi Asiyaya çıxışın açarı, enerji təhlükəsizliyinin qarantı və regionda sabitliyin dayaq nöqtəsidir.

Həmin nadir status Azərbaycanın gələcək onilliklərdə də regionun lider dövləti olaraq qalacağını və qlobal proseslərə təsir imkanlarının artacağını proqnozlaşdırmağa əsas verir. Azərbaycanın uğuru, eyni zamanda Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının ümumi inkişafının, rifahının və təhlükəsizliyinin təminatıdır. Prezident İlham Əliyevin strateji vizyonu sayəsində Azərbaycan tarixən olduğu kimi, bu gün də İpək Yolunun kəsişməsində sivilizasiyaları birləşdirən, tərəqqi və əməkdaşlıq məşəli kimi parlayan güc mərkəzidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ankara–İrəvan normallaşmasında Bakı amili

## *Türkiyə MTŞ-nin mesajı: Ermənistan vaxt itirməməlidir*

**Türkiyənin Milli Təhlükəsizlik Şurasının ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə keçirilmiş iclasında bir çox məsələlərlə yanaşı, Türkiyə-Ermənistan münasibətləri də müzakirə olunub. Bəribaşdan deyək ki, toplantı Ankaranın məsələyə prinsipial baxışını yenidən ortaya qoyub.**



İclasda Azərbaycan-Ermənistan sülh prosesindəki müsbət dinamika fonunda ikitərəfli və regional əməkdaşlıq imkanları müzakirə olunub. Buradan bir neçə nəticəyə gəlmək mümkündür. Birincisi, Ankara sülh prosesini Cənubi Qafqazda yeni regional nizamın formalaşması üçün fürsət sayır. İkincisi, Türkiyə Ermənistana qarşı siyasətini bilavasitə Azərbaycanla koordinasiya edir. Deməli, sülh prosesində müsbət addımlar Ankara-İrəvan münasibətlərinin də irəliləməsi üçün əsas şərtdir. İclasın verdiyi üçüncü mesaj isə budur ki, Ermənistanla sərhədlərin açılması və diplomatik münasibətlərin normallaşması Ankara üçün mümkünsüz deyil.

Əslində, Türkiyə MTŞ-də Ankara-İrəvan münasibətlərinin müzakirəsini həm regiona fundamental yanaşma, həm də Ermənistana cavab kimi də qiymətləndirmək mümkündür. Fikrimizi əsaslandırmaq üçün Türkiyənin xarici işlər naziri Hakan Fidanın bir müddət əvvəlki açıqlaması üzərində dayanaq. H.Fidan çox aydın şəkildə bildirmişdi ki, Ermənistan Azərbaycanla yekun sülh müqaviləsi imzalamasa, bu ölkə ilə normallaşmadan söhbət gedə bilməz: "Azərbaycan və Ermənistan sülh müqaviləsini imzaladıqda, İrəvanla münasibətləri normallaşdırmaya hazırıq".

Bəli, Türkiyə MTŞ-nin iclasında qardaş ölkənin Cənubi Qafqazda sülhün, sabitliyin və inkişafın təmin edilməsinə dair iradəsi təsdiqlənib. Amma nəzərə alaq ki, Ankara üçün sülhün hansısa risk amplitadası yolverilməzdir. H.Fidan da sözügedən açıqlamasında Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanması zərurətini əsaslandırarkən elə bunu demişdi: "Əgər biz bu mərhələdə münasibətləri normallaşdırsaq, Ermənistanın Azərbaycanla sülh sazişini imzalaması üçün ən böyük səbəbini onun əlindən almış olarıq. Bu halda regionda dondurulmuş münaqişə ehtimalı ilə üzləşə bilərik. Biz bunu istəmirik".

Türkiyə MTŞ-nin iclasında müzakirə edilən mövzunun eyni zamanda İrəvana cavab məntiqi üzərində dayanırıqsa, o zaman H.Fidanın diqqətə çatdırdığımız fikirlərinin Ermənistanda birmənalı qarşılanmadığını da vurğulamalıyıq. Belə ki, əvvəlcə xarici işlər naziri Ararat Mirzoyan, sonra isə baş nazir Nikol Paşinyan türkiyəli diplomata cavab xarakterli ritorikaya üstünlük vermişdilər. Türkiyə ilə diplomatik münasibətlərin qurulmasının və sərhədlərin açılmasının Ermənistan üçün vacibliyindən söz açan nazir Mirzoyan demişdi ki, Azərbaycanla əldə olunmuş sülhün daha da institusionallaşdırılması az əhəmiyyət daşımır və ölkəsi həm Ankara, həm də Bakı ilə əlaqələr naminə səmimi səylər göstərir: "Bununla belə, bu iki komponentdən heç biri digərindən asılı deyil və əgər onların arasında mütləq şəkildə səbəb-nəticə əlaqəsi axtarılsa, belə nəticəyə gəlmək olar ki, Türkiyə ilə münasibətlərin tam normallaşması Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesinə mənfi deyil, əksinə, müsbət təsir göstərə bilər".

Onu da bildirək ki, H.Fidan Ankara-İrəvan normallaşmasından söz açarkən, bu il avqustun 8-də Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannaməyə toxunmuş və bildirmişdi ki, həmin sənəddə Ermənistan konstitusiyasının dəyişdirilməsi və Zəngəzur dəhlizinin açılması kimi məsələlər əksini tapmayıb. Yəni Türkiyənin XİN rəhbəri, faktiki olaraq, ölkəmizin Ermənistanla yekun sülh müqaviləsi üçün irəli sürdüyü şərtin əhəmiyyətini qabartmış və ərazi iddiası məntiqinin sıradan çıxmasının vacibliyini vurğulamışdı.

H.Fidanın Zəngəzur dəhlizi fikrinə gəldikdə, əslində, bu da Azərbaycanın mövqeyinə dəstəkdir, eyni zamanda, Türkiyənin regional kommunikasiyaların açılmasındakı prioritetidir. Prioritet budur ki, Ankara ölkəmizlə birbaşa gediş-gəlişdə maraqlıdır. Belə bir düzən isə yalnız Naxçıvana maneəsiz yolun olacağı təqdirdə mümkündür. Yolu Zəngəzur dəhlizi, yaxud böyük anlamda TRIPP marşrutu (8 avqust Birgə Bəyannaməsinə əsasən Tramp marşrutu – red.) adlandırmaq isə Türkiyənin müstəsna hüququdur. Ermənistan üçün əsas olan özünün ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığıdır ki, mövcud məqama həm Azərbaycan, həm də Türkiyə tərəfindən hörmətlə yanaşılır.

Amma niyəsə N.Paşinyan H.Fidanın dediklərinə reaksiya verərkən, əsl mahiyyətdən uzaqlaşmış və demişdi ki, ölkəsi üçün dəhliz anlayışı qəbul edilə bilməz. Görəsən, qəbul edilən nədir? Baş nazirin dediklərindən gəlinən qənaət onu söyləməyə əsas verir ki, İrəvan TRIPP marşrutunu prioritet sayır. Çox gözəl, buna heç kəsin etirazı yoxdur. TRIPP marşrutu əsasdırsa, Ermənistan onun açılması ilə bağlı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir.

Beləliklə, Türkiyə MTŞ-nin iclasında verilən mesaj həm də odur ki, İrəvan normallaşmaya dair hansısa trayektoriya müəyyənləşdirə bilməz. Həm də ona görə ki, mövzuya prinsipial baxış aydındır və həmin baxışa görə, Ermənistan öhdəliyini yerinə yetirməlidir, özü də tez bir zamanda. Hər halda, Azərbaycan və Türkiyə tərəfi erməni rəsmilərinə TRIPP-dən söz açanda özlərinin "Dünyanın kəsişməsi" layihəsindən danışmağı yasaqlamır. Deməli, İrəvanın regional kommunikasiyaların açılmasının Zəngəzur dəhlizi məntiqinə etirazı, məsələni ərazi bütövlüyüyünün və suverenliyin toxunulması kontekstinə daşıyaraq manipulyasiya yolu tutması məqbul sayıla bilməz.

Sonda yekun nəticəyə gələrək onu da bildirək ki, Türkiyə MTŞ-nin Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirdiyi son toplantısında Türkiyə-Ermənistan münasibətlərinə toxunulması rəsmi Ankaranın məsələyə prinsipial mövqeyini bir daha nümayiş etdirməsidir. Ümumən, MTŞ iclasları qardaş ölkənin milli təhlükəsizlik prioritetlərini təqdim edən strateji platforma olduğundan, bu platformada Ankara-İrəvan normallaşmasının gündəlikdə yer alması Türkiyənin regiondakı proseslərə verdiyi əhəmiyyəti göstərir. Başqa sözlə desək, Ankara bölgədə davamlı sülhün yaranmasında fəal aktora çevrilmək niyyətindədir.

Digər tərəfdən, sülh gündəliyinin irəliləməsi yalnız ikitərəfli münasibətlərin deyil, həm də regional layihələrin açılması deməkdir ki, bu da Türkiyə üçün son dərəcə vacibdir. Əlbəttə, qardaş ölkə həm Rusiyanın təsirinin zəiflədiyi, həm də Qərb–Rusiya rəqabətinin intensivləşdiyi bir vaxtda Cənubi Qafqazda siyasi balans qurmağa çalışır. Ona görə də onun mesajı Ermənistanla normallaşma prosesinin davamlılığının vurğulanmasına söykənir. Rəsmi İrəvan bunu özünə lütf və dəstək kimi qiymətləndirməli, adekvat davranmalı, vaxt itirməməlidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənistan “kollektiv olmaq” istəmir, amma...

(əvvəli 1-ci səhifədə)

Bəli, KTMT müstəvisində Ermənistanın Rusiyaya qarşı şıltaqlığı davam edir. O da məlumdur ki, bu şıltaqlıq 2022-ci ildən başlayıb. Həmin ilin sentyabrında Azərbaycan-Ermənistan şərti sərhədində silahlı insident qeydə alınmış, ordumuz hərbçilərimiz üçün potensial təhlükə yaradan bir neçə strateji yüksəkliyi ələ keçirmiş və baş nazir Nikol Paşinyan administrasiyası durumu müstəqil Ermənistanın ərazilərinə qəsb kimi qiymətləndirərək KTMT-ni köməyə çağırmışdı. Daha doğrusu, Azərbaycanın hərəkətinə siyasi-hüquqi qiymət verməyə, ölkəmizi işğalçı adlandırmağa.

Əlbəttə, demək olmaz ki, KTMT 3 il əvvəl Ermənistanın səsinə səs vermək istəmədi. Birincisi, təşkilat həm də Azərbaycanla, kifayət qədər sıx münasibətlərdə olan dövlətlərin birliyidir və həmin dövlətlərə tərkibində yer aldıqları qurumun fəaliyyətinin dəqiqliyi önəmlidir. Yəni, hansı halda KTMT Azərbaycana qarşı çıxa bilər? Bu suala prinsipial cavab və yanaşma mütləqdir.

Prinsipiallıq budur ki, həmin vaxt Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyasına ümumiyyətlə başlanılmamışdı və bu səbəbdən təşkilatın təsir və səlahiyyət dairəsini müəyyənləşdirmək mümkünsüz idi. Axı qurum üzv ölkənin ərazisinə qəsb olduqda hərəkətə keçmək ixtiyarındadır. Deməli, Rusiya istəsəydi belə, Ermənistana görə KTMT-ni Azərbaycana qarşı qaldıra bilməzdi. Qaydaların pozulması təşkilatda parçalanma doğurardı.



Əlbəttə, Moskvanın özünün də KTMT-ni ölkəmizlə konfliktə çəkmək kimi niyyəti olmayıb, çünki istəyi başqa idi.

İkincisi, bilavasitə Rusiyanın istəyindən söz açaq. Kreml üç il əvvəl İrəvana Azərbaycanla şərti sərhəd boyu KTMT qüvvələrini yerləşdirməyi təklif etmişdi. Hesab edirik ki, rəsmi Moskva bunu digər üzv dövlətlərə qəbul etdirə bilərdi. Nəhayət, sərhəddə dayanmaq müharibə aparmaq deyil. Rusiya üçünsə bu, Cənubi Qafqaz siyasi coğrafiyasında silahlı mövcudluğu gücləndirmək anlamı verirdi. Ermənistan təkliflə razılaşmadı və şərti sərhəd xətti boyunca Avropa İttifaqının indi də davam edən mülki müşahidə missiyasının fəaliyyəti üzərində dayandı. Zahirən qəribə vəziyyət yarandı. İrəvan bir tərəfdən KTMT-ni ölkənin təhlükəsizlik çağırışlarına cavab verməməkdə qınayırdısa, digər yandan təşkilatın, belə demək mümkünsə, qoruyucu missiyasının işə düşməsinə əngəl törədirdi.

Əslində, durum fərqli idi. Məsələ ondadır ki, KTMT-nin Ermənistandakı birbaşa hərbi mövcudluğu, dolayısı ilə Rusiyanın hərbi varlığı kimi qəbul ediləcəkdi. Daha doğrusu, Rusiya Ermənistanda onsuz da var olan silahlı mövcudluğunu daha da genişləndirəcəkdi.

Daha bir məqam budur ki, Kreml Azərbaycan-Ermənistan münaqişəsinin həllini yox, dondurulmuş vəziyyətdə qalmasını istəyib. Məsələn, Moskva vaxtilə Qarabağdakı separatçı rejimin də varlığını davam etdirməsində maraqlı idi. Deməli, KTMT qüvvələrinin şərti sərhəddə yerləşdirilmələri eyni məntiqi möhkəmləndirəcəkdi. Təbii ki, durum Azərbaycana sərf etmirdi. Ermənistana da həmçinin. Çünki ölkənin aktiv fazaya malik qərbpərəst xətti var və həmin xətt bu gün də aktuallığını qorumaqdadır.

Əlqərəz, üç il əvvəl əsası qoyulmuş Ermənistan-KTMT ziddiyyətləri tam axarındadır. Amma Uşakovun İrəvanın təşkilatın çıxaracağı qərarlara razılığına dair açıqlamasının üzərində dayanmağa ehtiyac var. Çünki Bişkek sammitində KTMT-yə üzv ölkələrinin liderləri müdafiənin gücləndirilməsinə yönəlmiş 10-dan çox qərar imzalayacaqlar. Bu barədə məlumatı Qırğızıstan Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Saqınbek Abdumutalip verib.

“İclasın nəticələrinə görə, kollektiv müdafiə mexanizmlərinin daha da gücləndirilməsinə, üzv dövlətlərin təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə və hərbi-siyasi sahədə əməkdaşlığın genişləndirilməsinə yönəlmiş ondan çox qərarın imzalanması planlaşdırılır”, - deyən Qırğızıstan rəsmisinin sözlərinə görə, iclasda Belarus Prezidenti Aleksandr Lukaşenko, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Rusiya lideri Vladimir Putin və Tacikistan Prezidenti Emomali Rəhmon iştirak edəcəklər.

Qeyd edək ki, 2026-cı ildə KTMT-yə sədrlik Qırğızıstandan Rusiyaya keçəcək. Yəni, ikinci onsuz da hakim rol oynadığı qurumda daha çox söz sahibinə çevrilmək yolunda mühüm dividend, əlavə rıçaq əldə edəcək. Təsəvvür edin ki, Avropanın Rusiya təhlükəsinə qarşı ciddi tədbirlər gördüyü, müxtəlif təhlükəsizlik proqramlarına üz tutduğu və bu sahəyə maliyyə vəsaiti ayırmağa hazırlaşdığı bir məqamda, Rusiya KTMT müstəvisində təhlükəsizlik mexanizmlərini gücləndirmək qərarına gəlir. Əslində, meydana paradoksal durum çıxır. Çünki hazırda Rusiyanın təhlükəsizliyi KTMT-də təmsil olunan, məsələn, Qazaxıstanın və ya Qırğızıstanın təhlükəsizliyi anlamı daşımır. Bu mənada yalnız Belarusu istisna saymaq olar, çünki Minsk Moskva ilə daha sıx, özü də fərqli təmaslara malikdir. O zaman sual yaranır: Ermənistan öz təmsilçisi iştirak etmədən KTMT-nin Bişkek sammitində qəbul ediləcək qərarlarla necə razılaşacaq? Əlbəttə, razılaşması mümkünsüzdür.

Sonda onu da bildirək ki, bu gün Azərbaycan və Ermənistan yekun sülh müqaviləsinin astanasındadırlar. Proseslərin barış sazişinin imzalanmasına doğru getdiyinə dair təəssürat möhkəmlənməkdədir. Bir halda ki, münasibətlər qaydasına düşür, prinsip etibarilə Ermənistanın hansısa xarici təhlükədən qorunmasına ehtiyac yoxdur. Ölkənin KTMT xətti ilə qorunmasına ehtiyac isə heç yoxdur. Çünki mahiyyət etibarilə Ermənistan 2018-ci ildən, yəni baş nazir Paşinyanın iqtidar kürsüsünə əyləşdiyi vaxtdan Rusiyanın təhlükəsizlik çətirindən imtina edib. Yaxşı olar ki, bu reallıq Moskva tərəfindən də dərk edilsin. Əks halda, İrəvan qeyri-ordinar hərəkətləri ilə KTMT-nin közərməkdə olan nüfuzunu tamamilə heçə endirəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yeni dünya düzənində Azərbaycan–Afrika əməkdaşlığı

## *Strateji tərəfdaşlığın gələcək mənzərəsi*

**Yürütdüyü uğurlu beynəlxalq siyasət kursuna diqqətlə baxanda, ilk nəzərə çarpan məqamlardan biri Azərbayxanın yaxın regionlarla yanaşı, coğrafi cəhətdən ən uzaq məkanlarda da etibarlı tərəfdaş kimi tanınmasıdır. Hətta rəngarəngliyi ilə gözoxşayan Afrikada belə. Hazırki mövcud əlaqələr nə tarixi köklərə söykənən keçmiş münasibətlərin davamıdır, nə də bir vaxtlar müxtəlif çərçivələrdə formalaşmış mürəkkəb münasibətlərin izi. Əksinə, Azərbaycan–Afrika münasibətləri XXI əsrin çağdaş tələblərinə, yeni imkanlarına və dəyişən geosiyasi konfiqurasiyanın ehtiyaclarına cavab verən, gələcəyə yönəlmiş əməkdaşlıq modelidir.**

Azərbaycanın Afrika ölkələri ilə ikitərəfli münasibətlərində siyasi praqmatizm və humanitar məsuliyyət, iqtisadi maraq və təhsil investisiyası, regional mövqe və qlobal məsuliyyət faktorları bir-birini tamamlayır. Hər şey dövlətimizin müxtəlif beynəlxalq təşkilatlarda həmin ölkələrlə yanaşı çıxış etməsindən başlasa da, sonrakı illərdə bu xətt daha konkret istiqamət aldı. Azərbaycan 2011-ci ildə Afrika İttifaqı yanında müşahidəçi statusu qazandıqdan sonra qitə ilə münasibətlərdə şaxələnmə müşahidə olundu.

Ölkəmizin qazandığı status uzunmüddətli əməkdaşlıq üçün fundamental çərçivənin mövcudluğunu bir daha təsdiqlədi. Bir çox Afrika dövlətləri ilə enerji, kənd təsərrüfatı, innovasiya, nəqliyyat, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, humanitar əməkdaşlıq və təhsil üzrə əlaqələr formalaşmağa başladı. Azərbaycan tədricən qitə ilə daha sıx inteqrasiya olunan müasir tərəfdaşlığa qədəm qoydu.

### Sərbəst gediş-gəliş imkanı

Qarşılıqlı əməkdaşlığın ən maraqlı tərəflərindən biri, heç şübhəsiz, insanların sərbəst gediş-gəlişi məsələsidir. Azərbaycan pasportuna sahib olan vətəndaşların Afrika qitəsinə səyahəti əvvəllər çətin prosedurlarla müşayiət olunurdusa, diplomatik dialoq nəticəsində bu məkanla əlaqələr getdikcə asanlaşır. Məsələn, hazırda Mərakeş vətəndaşlarımıza vizasız giriş tətbiq edən Afrika ölkələrindən biridir.

Ümumən, Azərbaycan son illər Afrikanın müxtəlif ölkələri ilə elektron viza, sərhəddə viza və diplomatik pasportlar üçün sadələşdirilmiş mexanizmlər üzərində işləməyə maraq göstərir ki, bu da yeni siyasi xəttin formalaşmasından xəbər verir. Sözügedən istiqamətdə mexanizmlərin genişlənməsi, təbii ki, ticarətin, turizmin, humanitar əlaqələrin və tələbə mübadiləsinin artmasına səbəb olur.

Bu günlərdə isə Azərbaycanla Anqola arasında diplomatik və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi, Azərbaycan Bəhreyn arasında diplomatik pasport sahiblərinin viza tələblərindən azad edilməsi, Cibuti, Dominikan, Qvineya-Bisau, Surinam arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələblərindən qarşılıqlı azad edilməsi, Azərbaycanla Dominikan arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş Milli Məclisdə qəbul olunub.

### Pandemiya dövrü

Azərbaycanın Afrika ilə münasibətlərinin ən parlaq səhifəsi pandemiya dövründə yazılıb. 2020-ci ilin ağır qlobal böhranı zamanı dünya ölkələrinin çoxu özünü xilas etməyə çalışdığı halda, Azərbaycan beynəlxalq platformalarda iştirak etməklə, müxtəlif dövlətlərə dəstək verən azsaylı ölkələr arasında idi. Təbii ki, proses sadəcə texniki yardım və ya tibbi ləvazimat göndərişi ilə məhdudlaşmırdı. Qlobal həmrəyliyin real nümunəsi kimi ölkəmizin atdığı addımlar yüksək qiymətləndirilirdi. Təsadüfi deyil ki, Azərbaycan BMT Baş Assambleyasının COVID-19 ilə mübarizə mövzusunda xüsusi sessiyasının təşəbbüskarı oldu. Afrika ölkələrinin də böyük dəstəyi ilə həyata keçən sessiya nəticəsində qlobal pandemiya idarəçiliyi məsələləri beynəlxalq hüquqi çərçivəyə düşdü.

Xatırladaq ki, bir çox Afrika dövləti pandemiya dövründə nəinki çətin iqtisadi şərtlər, həm də zəif səhiyyə infrastrukturu ilə üz-üzə qalmışdı. Rəsmi Bakı bu ölkələrə tibbi vasitələr, humanitar yardım, tibbi heyətin hazırlanması üçün proqramlar və pandemiyadan sonrakı bərpa fondlarına maliyyə dəstəyi göstərdi. Yardım qitənin müxtəlif bölgələrinə çatdı və Azərbaycanın Afrika ilə münasibətlərinin humanitar məsuliyyət səviyyəsində yüksəldiyini nümayiş etdirdi.

Ümumiyyətlə, dünya təcrübəsinə nəzər yetirsək, görərik ki, humanitar yardım bir çox ölkələrin qarşılıqlı əlaqələrində yeni dövrün başlanğıcında böyük rol oynayır. Daha dəqiq desək, bu cür addımlar gələcək münasibətlər üçün möhkəm etibar bazalarından birinə çevrilir. Ona görə də, bu gün Afrika ölkələrinin Azərbaycana münasibətində məhz pandemiya dövrünün təsiri açıq şəkildə hiss olunur.

### Təhsilə dəstək

Daha bir təqdirəlayiq addım Azərbaycanın təhsili təhlükəsizlik və sağlamlıq böhranından çıxış yollarından birinə çevirməsi idi. Doğrudan da, təhsil ölkələr arasında mənəvi, siyasi və mədəni bağların möhkəmləndirilməsinin ən uzunömürlü üsuludur. 2023-2024-cü tədris ili göstərir ki, Azərbaycan ali məktəbləri Afrika qitəsi üçün cəlbedici təhsil mərkəzinə çevrilməkdədir. Hazırda ölkəmizdə Afrikanın 35 dövlətindən ümumilikdə 365 tələbə təhsil alır. Prezident İlham Əliyevin 8 iyul 2023-cü il tarixli sərəncamı ilə təsis olunan “Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı” proqramı məhz prosesin institusional əsasını formalaşdırıb.

Proqram çərçivəsində İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına daxil olan Afrika ölkələrinin vətəndaşlarına Azərbaycan universitetlərində dövlət hesabına təhsil almaq imkanı təmin olunur ki, bu da qitə ilə humanitar əməkdaşlığın genişlənməsinə ciddi təkan verir.

Bu ilin fevralında Somali Prezidentinin Bakıya səfəri zamanı təhsil sahəsində əməkdaşlığı nəzərdə tutan xüsusi sənədin imzalanması da Afrika ilə akademik tərəfdaşlığın artıq sistemli və uzunmüddətli xarakter aldığını göstərir. Bununla yanaşı, Heydər Əliyev Fondunun “Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı” adlı təşəbbüsü də Azərbaycanın qitə ilə humanitar əməkdaşlıq siyasətində yeni mərhələ açır. Layihə çərçivəsində Fondun vitse-prezidenti Leyla Əliyevanın Ruandaya səfəri bu strateji xəttin praktiki ifadəsi kimi diqqət çəkdi.

Kiqali yaxınlığındakı məktəbdə keçirilən görüş Afrika gəncliyinin inkişafına yönəlmiş uzunmüddətli humanitar siyasətin ardıcıl davamı idi. Leyla Əliyeva məktəbin müəllim və şagird kollektivi ilə bir araya gələrək, tədris prosesinin mövcud vəziyyəti, texniki təminat və inkişaf ehtiyacları barədə yerindəcə məlumat aldı. Fondun dəstəyi ilə məktəbin kompüterlərlə təchizatı, həmçinin stabil internet infrastrukturunun qurulması şagirdlərin rəqəmsal savadlılığının artırılması və qlobal informasiya məkanına inteqrasiyası baxımından önəmli addım idi.



### Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq

Qoşulmama Hərəkatına sədrliyimiz dövrü Afrika dövlətlərinə Bakını tamamilə fərqli prizmadan görməyə şərait yaratdı. Afrika liderlərinin Bakıya ardıcıl səfərləri, Hərəkatın yüksək səviyyəli toplantılarında Azərbaycanın mövqeyinə dəstək nitqləri və ikitərəfli görüşlər bunun təsdiqi idi. Əslində, dövlətimiz uzun illərdir ki, beynəlxalq münasibətlərdə balanslaşdırılmış siyasətin tərəfdarı kimi tanınır. Lakin QH-yə sədrliyi Bakıya tamam başqa bir imkan açdı. Məhz həmin illərdə Afrika dövlətləri Azərbaycanı müstəqil siyasət yürüdən və öz sözünü deyən aktor kimi bir daha tanımağa başladılar. Prosesdə həm siyasi məntiqlə izah olunan amillər vardı, həm də psixoloji nüanslar.

Hər şeydən əvvəl, Afrika ölkələri Azərbaycanın ədalətli mövqeyini, neokolonial təfəkkürdən uzaq siyasətini və beynəlxalq hüquqa istinad edən davranış modelini özlərinə yaxın hiss edirdilər. Ona görə də, Bakının Afrika üçün cazibədarlığı təsadüfi deyildi. Azərbaycan qlobal platformalarda, istər QH, istərsə də İslam Əməkdaşlıq Təşkilatında həmişə Afrika ölkələrinin legitim narahatlıqlarını səsləndirən dövlətlərdən biri olub.

### COP29 qlobal platforma kimi

Ötən ilin noyabrında Bakının COP29-a uğurla ev sahibliyi də ikitərəfli əlaqələri möhkəmləndirdi. Ölkəmiz Afrika qitəsindən gələn ali nümayəndə heyətləri üçün mühüm dialoq platformasına çevrildi. Afrika dövlət başçıları ilə keçirilən yüksək səviyyəli görüşlər, eləcə də son illər Misir, Əlcəzair, Konqo, Somali kimi ölkələrlə qarşılıqlı rəsmi səfərlərin reallaşdırılması, Keniya ilə əməkdaşlığın intensivləşdirilməsi Azərbaycan–Afrika tərəfdaşlığının gələcək konturlarını formalaşdırmaqla, çoxvektorlu əməkdaşlığın inkişafı üçün əsas istiqamətləri müəyyənləşdirdi.

2023-cü il aprelin 4–5-də Konqo Prezidenti Deni Sassu-Nqessounun, 2024-cü il fevralın 11–14-də isə Somali Prezidenti Həsən Şeyx Mahmudun Bakıya rəsmi səfərləri zamanı tərəflər münasibətlərin daha da gücləndirilməsinə sadiqliklərini bildirdilər. Görüşlər çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan mühüm hüquqi-normativ sənədlər imzalandı.

Tam əminliklə deyə bilərik ki, hazırda Prezident İlham Əliyevin uzaqgörən strateji baxışına əsaslanan siyasət nəticəsində Afrika ölkələri ilə əlaqələrin dərinləşdirilməsi davam etdirilir. Müxtəlif sahələr üzrə əməkdaşlıq xətti genişləndirilir, qitə ilə münasibətlərdə Azərbaycanın milli maraqlarına uyğun yeni hədəflər ardıcıl şəkildə gerçəkləşdirilir.

### Müxtəlif sahələrdə ortaq perspektivlər

Bu gün Azərbaycanla Afrika qitəsinin müxtəlif ölkələri arasında iqtisadiyyat, neft-qaz sənayesi, mədənçilik, müdafiə sənayesi, minatəmizləmə, təhsil və humanitar fəaliyyət kimi sahələrdə əməkdaşlığı genişləndirmək üçün kifayət qədər böyük imkanlar mövcuddur. Xüsusilə “ASAN xidmət” modelinin Afrika dövlətlərində tətbiqi istiqamətində göstərilən maraq əməkdaşlığın yeni istiqamətlərini formalaşdırır. Hazırda Azərbaycanın qitədə daha sıx iqtisadi əlaqələr qurduğu ölkələr sırasında Tunis, Cənubi Afrika Respublikası, Misir, Mərakeş, Liviya və Keniya xüsusi yer tutur.

Onu da deyək ki, son dövrlərdə Konqo ilə enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsi üçün yeni addımlar atılıb. Bu çərçivədə “SOCAR” ilə Konqo Milli Neft Şirkəti arasında “Congolaise de Raffinage” neft emalı zavodunun modernləşdirilməsi və genişləndirilməsinə dair sənədin imzalanması diqqətçəkən irəliləyişdir. Misir şirkətləri ilə enerji və digər sahələrdə əməkdaşlıq istiqamətində də danışıqlar genişləndirilir. Yeri gəlmişkən, Azərbaycanla Afrika ölkələri arasında neft-qaz sahəsində əməkdaşlıq əsasən xam neftin, neft və qaz-kimya məhsullarının, həmçinin mayeləşdirilmiş təbii qazın (LNG) ticarəti üzərində qurulub. Afrikanın təbii minerallarla zəngin olması mədənçilik sahəsində də əməkdaşlıq üçün geniş perspektivlər yaradır. Bununla bağlı Konqo, Syerra-Leone, Keniya, Niger, Burkina Faso və Mali dövlətlərinin aidiyyəti qurumları ilə aparılan görüşlər və müzakirələr sözügedən istiqamətdə real addımların atıldığını göstərir.

Azərbaycanın Afrika ilə əlaqələrində önəmli istiqamətlərdən biri də müdafiə sənayesi sahəsidir. Cari ildə Somali Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı müdafiə və müdafiə sənayesi üzrə əməkdaşlıq haqqında imzalanmış sənəd adıçəkilən sahədə yeni mərhələnin başlanğıcını qoydu. Səfər zamanı Somali liderinin ölkəmizin müdafiə sənayesi məhsulları ilə əyani tanışlığı da bu marağın göstəricisidir.

Əvvəl qeyd etdiyimiz, Afrika dövlətlərinin böyük maraq göstərdiyi “ASAN xidmət” modeli əməkdaşlığın daha bir mühüm xəttini təşkil edir. Mərakeş, Uqanda və Efiopiya ilə bu istiqamətdə imzalanan Anlaşma memorandumları xidmət idarəçiliyinin ixracında mühüm mərhələ kimi qiymətləndirilə bilər. Məsələn, Uqandada artıq “ASAN xidmət” prinsipləri əsasında formalaşdırılmış 6 Dövlət Xidmətləri Mərkəzinin fəaliyyət göstərməsi modelin uğurla tətbiq olunduğunu nümayiş etdirir. Hazırda Esvatini, Konqo, Tanzaniya, Qambiya və Zimbabve ilə “ASAN xidmət” təcrübəsinin ötürülməsi üzrə aparılan danışıqlar da Azərbaycanın idarəetmə modeli üzrə beynəlxalq əməkdaşlığının coğrafiyasını daha da genişləndirir.

Qeyd etdiyimiz bütün faktlar göstərir ki, Azərbaycan–Afrika münasibətləri artıq təsadüfi diplomatik təmaslar mərhələsini çoxdan geridə qoyub. Qarşılıqlı əlaqələr konseptual şəkildə formalaşan, strateji düşüncə ilə idarə olunan və həm Bakının, həm də Afrika ölkələrinin inkişaf ehtiyaclarına cavab verən çoxşaxəli əməkdaşlıq modelinə çevrilib. Enerjidən mədənçiliyə, müdafiə sənayesindən xidmət idarəçiliyinə, humanitar təşəbbüslərdən təhsil və idarəetmə islahatlarına qədər uzanan geniş spektr ölkəmizin qitə ilə tərəfdaşlığının gələcək perspektivdə daha da genişlənəcəyini söyləməyə əsas verir.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Bakıda TDT-nin Media Forumu





**Noyabrın 27-də Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının Media Forumu çərçivəsində “Müasir dövrdə artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar: Türk dövlətlərinin media ekosistemi nümunəsində” mövzusuna həsr olunmuş panel sessiya təşkil edilib.**

Türkdilli dövlətlərin media və kommunikasiya sahəsində əməkdaşlığını möhkəmləndirmək məqsədilə keçirilən forumun panel müzakirəsinə “AnewZ” beynəlxalq televiziya kanalının icraçı direktoru Rüfət Həmzəyev moderatorluq edib.

Paneldə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli bildirib ki, media yarandığı gündən təhdidlər və təqiblərlə birgə formalaşıb. Medianın peşəkarlığı bu təhdidlər şəraitində böyüməsi və sağ qalmasıdır. O qeyd edib ki, süni intellekt əsaslı feyk xəbərlərin çoxalması medianın fəaliyyətində təhdidedici amillərdən biridir.

N.Məmmədli diqqətə çatdırıb ki, son illər ölkəmizin informasiya məkanına olan çoxsaylı təhdidlərin qarşısını almaq üçün hüquqi müstəvidə işlər yekunlaşıb: “Media haqqında” Qanun informasiya məkanının qorunması üçün hüquqi qalxan rolunu oynayır. Biz bunun ilkin təzahürlərini görürük. İnsanların texnoloji bilikləri artdıqca və media savadlılığı yüksəldikcə, onların təbliğatın təsirinə düşməsinin qarşısı alınır”, - deyə o əlavə edib.

Qazaxıstan Respublikasının “Xabar” agentliyinin sədrinin müavini Dauletxan Jiyenkulov bildirib ki, dezinformasiyanın yayılmasının əsas məqsədi cəmiyyətdə formalaşan fikir və rəylərə təsir göstərmək, ictimai qavrayışı manipulyasiya etməkdir. O sonda əlavə edib ki, ümumiyyətlə, dezinformasiya olduqca təhlükəli bir vəziyyətdir və dövlətlərin informasiya təhlükəsizliyinə, ictimai sabitliyinə və qərarvermə proseslərinə ciddi təsir göstərir.

Qırğız Respublikasının Mədəniyyət, İnformasiya və Gənclər Siyasəti Nazirliyinin İnformasiya siyasəti departamentinin baş mütəxəssisi Zarina Kalmuratovanın fikrincə, media savadlılığı düzgün məlumatı yanlışdan ayırmaqla məhdudlaşmır. Buraya, həmçinin biz nəyi yayırıq, tənqid əsasında düşünə bilirikmi, məlumatı bizə təqdim edilən şəkildə uduruq, yoxsa başqa tərəfdən yanaşırıq kimi məsələlər də daxildir. İnformasiyanı həzm etməyi bacarmaq lazımdır. O bildirib ki, bu gün rəqəmsal media savadlılığı, süni intellektin təsiri və informasiya təhlükəsizliyi xüsusi önəm daşıyır. Məhz buna görə də TDT-nin işçi qrupu media savadlılığının artırılmasını öz fəaliyyət planına daxil edib. Bu addım heç də təsadüfi deyil və müasir informasiya mühitinin çağırışlarına cavab verir.

Türkiyənin ölkəmizdəki səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir deyib ki, bəzən saxta xəbərlər və manipulyativ məlumatlar yalnız gündəlik informasiya axınında deyil, hətta müxtəlif “komplo nəzəriyyələrinin” yazılmasında da istifadə olunur. Bu gün informasiya dövrü elə bir mərhələyə gəlib çatıb ki, artıq peyk və kosmik texnologiyalar media ekosisteminin ayrılmaz hissəsinə çevrilib.

Müşavirin sözlərinə görə, media hər bir ölkə üçün son dərəcə strateji sahədir. Dövlətlərin fikirlərini, mövqelərini, dünyaya mesajlarını çatdıran məhz mediadır. Buna görə də həm texnoloji, həm peşəkar, həm də institusional baxımdan güclü media ekosistemi formalaşdırmaq milli təhlükəsizlik məsələsinə çevrilib.

Şimali Kipr Türk Cümhuriyyətinin xarici işlər nazirinin müavini Mustafa Lakadamyalı isə fikirlərini bu cür ifadə edib: “Bizim dövlətimiz 40 ildir mövcuddur və müxtəlif təşkilatlarda təmsil olunmuşuq. Tarixə nəzər salsaq deyə bilərik ki, yanlış informasiya, əslində, hər birimizin üzləşdiyi problemə çevrilib. Təşkilata üzv olduqdan sonra özümüzü daha güclü hiss etdik. Biz bu təşkilat vasitəsilə daha güclü ola bilərik. Türk dünyası üçün çox işlər görə bilərik. Biz hələ istədiyimiz səviyyəyə çatmamışıq”.

Müzakirələr zamanı iştirakçılar qlobal informasiya risklərinin sürətlə artması, dezinformasiya kampaniyalarının sərhədləri aşan şəkildə yayılması fonunda Türk dövlətlərinin media ekosistemində dayanıqlılığın gücləndirilməsinin strateji zərurətə çevrildiyini vurğulayıblar.

Diqqətə çatdırılıb ki, ortaq tarixi-mədəni bağlara malik Türk dövlətləri arasında media sahəsində əməkdaşlığın dərinləşdirilməsi, vahid media standartlarının formalaşdırılması və qarşılıqlı təcrübə mübadiləsinin təşviqi müasir çağırışlara adekvat reaksiya verilməsi baxımından xüsusilə vacibdir.

*

Media Forumu çərçivəsində “Rəqəmsal media mühitində TDT-yə üzv dövlətlərin qarşılıqlı əməkdaşlıq imkanları” mövzusunda ikinci panel sessiya təşkil edilib.

CBC telekanalının baş redaktoru Elmira Musazadənin moderatorluğu ilə keçirilən panel sessiyada Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü, Milli Məclisin deputatı Sevil Mikayılova, “Qazaxıstan” Respublika Teleradio Korporasiyası Səhmdar Cəmiyyətinin “Balapan” telekanalının direktoru Makpal Ukenova, Türkiyənin ölkəmizdəki səfirliyinin mətbuat müşaviri Alptekin Cihangir İşbilir, Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Məzmunun İstehsalı Mərkəzinin departament rəhbəri Tohir Umarov çıxış edərək rəqəmsal media mühitində əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, birgə kontent istehsalının təşviqi, informasiya mübadiləsinin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Paneldə vurğulanıb ki, rəqəmsal informasiya mühitində sürətlə baş verən dəyişikliklər TDT ölkələri arasında daha çevik və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq platformalarının qurulmasını zəruri edir. Qeyd olunub ki, ortaq rəqəmsal layihələrin icrası, informasiya axınının operativ idarə edilməsi və media qurumları arasında əlaqələrin möhkəmləndirilməsi üzv dövlətlərin kommunikasiya imkanlarını genişləndirə, regionda vahid və dinamik media məkanının formalaşmasına şərait yarada bilər.

***XQ***

# Sülh ritorikası arxasında silah ehtirası

## *Regiona sabitlik lazımdır, İrəvana isə “bahalı oyuncaq”*



**Ermənistanın Hindistanla silah sevdası hayların hələ də özünü hansı reallıqda gördüyünü dəqiqləşdirə bilməməsindən qaynaqlanır. İrəvan məsələni özünün müdafiə potensialının gücləndirilməsi kimi əsaslandırsa da, onun bu addımı, əslində, təhlükəsizlik konsepsiyası ilə real siyasi davranış arasındakı ziddiyyəti üzə çıxarır. Belə qənaət formalaşır ki, sülh gündəliyindən danışan Paşinyan hökumətinin paralel şəkildə hücum xarakterli aviasiya və yeni silah platformalarına yönəlməsi, Ermənistanın gələcək kursunu müəyyənləşdirən strateji seçimdir. Proses ölkə daxilində də yeni xətti formalaşdırır. Bir tərəfdə regionda sabitliyə inteqrasiyanı nəzərdə tutan siyasi ritorika, digər tərəfdə isə həmin ritorikanı təkzib edən silahlanma xətti dayanır. Və ən əsası Ermənistan öz siyasi xəttinə xəyanət edir. Nəticədə ortaya həm diplomatik, həm iqtisadi, həm də regional baxımdan cavabı açıq qalan sual çıxır — Ermənistan sülh modelinə keçmək istəyən ölkədir, yoxsa köhnə təhlükəsizlik instinktlərini yenidən canlandıran dövlət?**

Ermənistanın Hindistanla görünməmiş həcmdə – təxminən 3–4 milyard dollar dəyərində iri silah müqaviləsi barədə danışıqları son mərhələyə çatdırıb və bu paketdə əsas yeri Su-30MKI tipli çoxməqsədli qırıcılar tutur. Müxtəlif mənbələrdə 8–12 ədəd Su-30MKI üçün təxminən 3 milyard dollarlıq çərçivə razılaşmasından bəhs edilir, bəzi materiallarda isə sövdələşmənin ümumi həcmi digər sistemlərlə birlikdə 4 milyard dollara çatır. Noyabrın 3-də Ermənistanın müdafiə naziri Suren Papikyan “hələlik Su-30MKI üzrə imzalanmış müqavilə yoxdur” deyərək xəbərləri təkzib etmişdi. Lakin bəllidir ki, İrəvan bu addımı ötən ay Azərbaycanın Pakistan istehsalı olan 40 ədəd JF-17C Block-III qırıcı təyyarəsi almasına cavab tədbiri kimi atır.

Rusiya ilə münasibətlərdə yaranmış gərginlikdən sonra Ermənistan 2022–2023-cü illərdə Hindistanla 1,5 milyard dollardan çox dəyərə malik müdafiə müqavilələri imzalayıb. Siyahıya Pinaka reaktiv yaylım atəş sistemləri, ATAGS haubitsaları, Akaş hava hücumundan müdafiə sistemləri, ZADS tipli anti-PUA kompleksləri, Konkurs tankəleyhinə raketləri və s. daxildir. Yəni Su-30MKI ətrafında müzakirə olunan 3–4 milyardlıq yeni sövdələşmə, əslində, son üç ildə formalaşan Hindistan–Ermənistan hərbi xəttinin kulminasiya nöqtəsi kimi görünür və öz miqyası ilə əvvəlki müqavilələri kölgədə qoyur. Ermənistanın Hindistanla silah alveri keçmiş münaqişə psixologiyasının davamı təsiri bağışlayır.

*

Nikol Paşinyanın 2018-ci ildə hakimiyyətə gəlişinə qədər Ermənistanın ümumi dövlət borcu təxminən 6,5–6,9 milyard dollar intervalında idi. 2018-2024-cü illər arasında isə bu rəqəm 12,8–13 milyard dollara çatıb. Yəni cəmi 6 il ərzində borc demək olar ki, iki dəfə artıb. Faizlə ifadə etsək, təxminən 90–100 faiz artım diapazonundan danışmaq olar. Digər tərəfdən, borcun ÜDM-ə nisbəti 2018-ci ildə təqribən 55–56 faiz civarında idi, pandemiya, müharibə və siyasi sarsıntılar fonunda 2020–2021-ci illərdə 63 faizdən yuxarı səviyyəyə yüksəlib, daha sonra 2023–2024-cü illərdə təxminən 50 faiz zolağına geri enib. Amma nominal həcmdə borcun kəskin artdığı faktdır və bu artımın səbəblərindən biri məhz müdafiə xərclərinin rekord səviyyələrə yüksəlməsi ilə bağlıdır.

Müdafiə xərclərinin dinamikası bu təsviri daha da konkretləşdirir. “Paşinyan təqvimi” ilə hesablasaq, 1-ci, yəni 2018-ci ildə Ermənistanın hərbi büdcəsi təqribən 513 milyon dollar təşkil edirdi, 2023-cü ildə bu rəqəm 1,3 milyard dolları keçib, ötən il isə 1,4 milyard dollara yaxınlaşıb. 2018-ci ildə 245 milyard dram (təxminən 640 milyon dollar) olan müdafiə xərcləri bu il 667 milyard drama (təxminən 1,74 milyard dollar) qədər yüksəlib və bu aralıq dörd-beş il ərzində hərbi xərcin dollar ifadəsində 1,1 milyard artırıldığını göstərir. Beləliklə, İrəvan hər il daha böyük payı müdafiəyə yönəldir, halbuki ərazi ölçüsü, iqtisadi potensial və real təhlükəsizlik tələbləri bu cür sıçrayışlı militarizasiyanı izah etmir.

Burada sual yaranır: bu qədər silah Ermənistanı həqiqətən xarici təhlükələrdən sığorta edə bilirmi? Su-30MKI qırıcılarının gəlməsi üçün hava limanı infrastrukturunun yenilənməsi, texniki xidmət bazasının qurulması, pilotların uzunmüddətli hazırlığı tələb olunur. Bu isə bir neçə milyardlıq müqavilədən əlavə, illərlə davam edən əlavə xərclər deməkdir. Həm də nəzərə almaq lazımdır ki, Ermənistan hava məkanını modern döyüş aviasiyası üçün real, inteqrasiya olunmuş hava müdafiə şəbəkəsinə çevirə bilmir. Ona görə də bu tip silah müqavilələri hərbi balansdan daha çox siyasi nümayiş effekti yaradır. Yəni bu silahlar faktiki olaraq, dövlət borcunun artmasına gətirib çıxarır, amma Ermənistan cəmiyyəti həm fiskal təzyiq, həm də davam edən riskli geopolitik oyunların yükünü daşıyır. Qısaca, məqalənin əvvəlində deyilən fikri bir daha təsdiqləmək yerinə düşər. İrəvan istifadə etməyi bacarmadığı həmin “oyuncaqları” Bakıya cavab görüntüsü yaratmaq üçün alıb.

*

Hindistanın öz motivləri isə ayrıca təhlil tələb edir. Yeni Dehli son illərdə “Make in India” çərçivəsində müdafiə sənayesini ixrac platformasına çevirmək xətti götürüb və 2024-cü maliyyə ilində müdafiə ixracı 2,4 milyard dollar həddini keçib. Hədəf 2029-cu ilədək qədər bu rəqəmi 500 milyard rupi, yəni təxminən 5,8 milyard dollar səviyyəsinə çatdırmaqdır. Filippin, Vyetnam, İndoneziya kimi dövlətlərlə yanaşı, Ermənistan da bu yeni ixrac strategiyasının sınaq poliqonlarından birinə çevrilib. Burada həm Rusiya bazarının zəifləməsi, həm Qərbin Ermənistana “siyasi sığorta” verməsi, həm də Hindistanın Pakistan–Türkiyə–Azərbaycan xəttinə qarşı simvolik “geopolitik cavab” nümayiş etdirmək cəhdi hiss olunur. Lakin bu labirintdə vacib məqam odur ki, bu siyasət nə Cənubi Qafqazda sülhü möhkəmləndirir, nə də Hindistanın Avrasiya nəqliyyat şəbəkəsində dayanıqlı tərəfdaş obrazını gücləndirir. Dehli indiyə qədər tanımadığı regiona, heç əyləşmədiyi masaya göz dikib.

Cənubi Qafqaz hazırda yeni nəqliyyat koridorlarının kəsişdiyi, ABŞ, Türkiyə, Rusiya, İran, Aİ və Çin kimi oyunçuların diqqət mərkəzində olan regiondur. TRIPP, Orta Dəhliz, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi (İNSTC), Qara dəniz limanları, Trans-Xəzər dəmiryolu xətti – hamısı eyni coğrafiyada bir-birini tamamlayan zəncir elementləridir. Belə bir məkanda silah ixracını diplomatik alətə çevirməklə İrəvan və Yeni Dehli mədəni körpülərin üzərindən barıt daşıyır. Halbuki Yeni Dehli üçün rasional model Azərbaycan, İran və Rusiya ilə nəqliyyat-logistika tərəfdaşlığını dərinləşdirmək, Ermənistanda isə sivil infrastruktur və iqtisadi modernizasiya layihələrinə gələcəkdə sərmayə trendləri yaratmaq olardı.

İndiki templə Ermənistan müdafiə xərclərini bir neçə il ardıcıl 1,5–1,7 milyard dollar səviyyəsində saxlayarsa, borcun nominal həcmi, çox güman ki, 15 milyard dollar həddinə yaxınlaşacaq və borc/ÜDM nisbəti yenidən 60 faiz zolağına çıxacaq. Əksinə, həmin vəsaitlərin sülh sazişinin icrasına, sərhəd rayonlarında infrastrukturun yenilənməsinə, regiondaxili ticarətə və nəqliyyat-kommunikasiya xətlərinə yönəldilməsi Ermənistan iqtisadiyyatının ÜDM artım tempinə bilavasitə təsir göstərə bilərdi.

Reallıq ondan xəbər verir ki, Ermənistan bu gün iki model arasında seçim edir: ya borc hesabına alınan silahlarla özünü kağız üzərində “güclü orduya malik ölkə” kimi təqdim etmək, ya da həmin borcu regiondaxili əməkdaşlıq, nəqliyyat dəhlizləri və sülh gündəliyinin maliyyələşdirilməsi üçün istifadə edən dövlətə çevrilmək. Birinci yol siyasi ritorika üçün əlverişlidir, amma uzun illər boyu Ermənistan cəmiyyətini borc ödənişlərinə və hərbi risklərin kölgəsinə məhkum edir. İkinci yol isə həm Bakı–İrəvan sülhünün məzmununu real iqtisadi qazanclarla doldurur, həm də Hindistan kimi üçüncü ölkələrə bu coğrafiyada sivil, iqtisadi əsaslı iştirak imkanı açır.

Hindistanla Ermənistan arasında müzakirə edilən 3,5–4 milyard dollarlıq silah müqaviləsi Cənubi Qafqazın gələcək onilliklərdə hansı model üzrə inkişaf edəcəyini müəyyən edə bilər. Ya region geoiqtisadi dəhlizlərin, sülh və inteqrasiyanın platformasına çevriləcək, ya da silah müqavilələri vasitəsilə qlobal rəqabətin yeni cəbhə xətti kimi yenidən dizayn olunacaq. Və burada qərar verən təkcə Ermənistan və Hindistan deyil – Azərbaycan da öz tranzit imkanları, diplomatik çəkisi və sülh gündəliyi ilə bu oyunun qaydalarını formalaşdıran əsas oyunçulardan biridir. Yeni Dehlinin əlinə elə bir fürsət düşüb ki... Hindistan həm cibini doldurur, həm də Pakistanla olan ədavətinin acığını çıxmağa çalışır. Ermənistan da, öz növbəsində, Bakı ilə silah yarışında önə keçməyə səy göstərir. İrəvanın bəslədiyi mənasız ambisiya Cənubi Qafqazı yenidən köhnə psixologiyanın orbitinə qaytarır. Amma unudulan odur ki, region artıq o deyil. Burada oyunun nəticəsini silahı çox olan yox, gəldiyi yeri və gedəcək istiqaməti dəqiq bilən tərəf müəyyənləşdirir.

***Tacir SADIQOV***
***XQ***

***Ekspert rəyi***

**Tural İSMAYILOV,**
**siyasi şərhçi**



Belə bir müqavilə, əgər reallaşarsa, ölkənin maliyyə öhdəliklərini ağırlaşdıracaq, borcun gələcək xidmət yükünü artıracaq və büdcə xərclərində ciddi disbalansa gətirəcək. Sosial xərclər, infrastruktur layihələri, təhsil və səhiyyənin maliyyələşdirilməsi azalacaq – çünki borcun faiz və əsas məbləğ ödənişləri öncəlik götürüləcək.

Silahlanmaya yönələn xərclər həm də regionda sülh prosesinə mənfi siqnal göndərir. Hazırda sülh danışıqları gedirsə, silahlanma planları həmin dialoqun etimad atmosferinə kölgə sala bilər. Belə bir addım, görünən odur ki, yalnız qısamüddətli “güc mesajı”dır – uzun müddətdə isə Ermənistanın iqtisadi dayanıqlılığını və sosial rifahını sarsıda bilər.

Hazırda regionda sülhə və dialoqa meylli addımlar vacibdir. Hərbi xərclər və silah müqavilələri isə bu prosesə mane olur. Ermənistanın silah alışı planı, xüsusən də belə böyük məbləğə hesablanmışsa, sülhə getmək əvəzinə, eskalasiyaya yönəlik mesajdır. Bu cür addımlar beynəlxalq aləmdə Ermənistanın sülh tərəfdarı deyil, silah tərəfdarı kimi baxılmasına səbəb olur. Diplomatik imic üçün bu, ciddi riskdir. Bundan əlavə, belə bir müqavilə sosial risklərlə yanaşı, siyasi riskləri də artırır. Borc yükü artanda, hökumət üçün sosial problemləri aradan qaldırmaq daha çətin olur. Bu isə uzunmüddətli sabitliyi təhdid edir.

Beləliklə, silahlanma planları ilə sülh gündəliyinin eyni anda aparılması – həm daxildə, həm regionda – etimad və balansın pozulmasına aparan ziddiyyətli strategiyadır. Eyni zamanda silah müqaviləsi bölgədə təlatümü dərinləşdirir. Regionun sülhə və sabitliyə ehtiyacı var – ancaq bu ehtiyac silahlanma ilə yox, dialoq, iqtisadi investisiya və sosial siyasətlə təmin oluna bilər.

Əgər Ermənistan hökuməti prioritetlərini düzgün qiymətləndirərsə – borcu idarə edə, silah xərclərini azaltmaqla, sosial, iqtisadi və infrastruktur inkişafına yönəlsə – bu, həm ölkə üçün, həm region üçün uğurlu strategiya olar. Amma davamlı borclanma, silahlanma və sülh dialoquna zidd siyasət həm Ermənistanın gələcəyini təhlükəyə atır, həm də regionda sabitliyi sarsıda bilər.

# Azərbaycan–İordaniya əməkdaşlığında yeni səhifə

## İqtisadi razılaşmaların önəmli hədəfləri

**Bakıda Azərbaycan ilə İordaniya arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IV iclası başa çatdıqdan sonra iki ölkə münasibətlərində yeni səhifə açan sənədlər imzalandı. Paytaxtın diplomatik enerjisini artıran bu görüş tərəflərin qarşılıqlı etimada əsaslanan əməkdaşlığı genişləndirmək niyyətini bir daha nümayiş etdirdi.**




Elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələrini əhatə edən 2025–2027-ci illər üzrə İcraedici Əməkdaşlıq Proqramı da razılaşdırıldı. Bu sənəd iki ölkə arasında humanitar əlaqələrin genişlənməsinə geniş imkan yaradır. Tərəflər yalnız sosial-humanitar istiqamətlərlə kifayətlənmədi. Dövlətlərarası münasibətlərin institusional bazasını gücləndirən əlavə razılaşmalar da imzalandı. Azərbaycan və İordaniya arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım barədə Saziş bu sahədə prosedurların daha çevik və şəffaf şəkildə həyata keçirilməsinə zəmin yaradır.

Ümumiyyətlə, Azərbaycan ilə İordaniya arasında ikitərəfli görüşlər və işgüzar təmaslar iqtisadi, ticarət, turizm, mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlığı zənginləşdirib. 30 ilə yaxın dostluq və etimada əsaslanan münasibətlər bu dinamik əməkdaşlığın yeni üfüqlərini açır. Azərbaycan–İordaniya ticarət dövriyyəsi son illərdə müsbət dinamika ilə seçilir. 2019-cu ildə ümumi ticarət həcmi 6,4 milyon ABŞ dolları səviyyəsində olub, sonra 2020-2021-ci illərdə 3,4 milyon dollara qədər azalıb, 2022-ci ildə yenidən 4,9 milyon dollara yüksəlib. Maraqlıdır ki, 2023-cü ilin yanvar-oktyabr aylarında ticarət dövriyyəsi artıq 7,4 milyon dollara çataraq əhəmiyyətli artım göstərib. Ticarət göstəricilərinə görə, bu əlaqələrdə Azərbaycanın idxalı kəskin üstünlük təşkil edir. Məsələn, 2022-ci ildə Azərbaycanın İordaniyaya ixracı cəmi 252,99 min dollar olarkən, idxal 4,6 milyon dollar təşkil edib.

İqtisadi profilə görə, Azərbaycanın ixracında əsas pay kənd təsərrüfatı və ərzaq məhsullarının payına düşür, İordaniyadan isə əsasən dərman preparatları və sənaye malları idxal edilir. Ümumilikdə, iqtisadiyyat naziri bildirmişdir ki, Azərbaycan məhsullarının İordaniya bazarındakı rəqabət qabiliyyəti artır, eyni zamanda, İordaniya dərman və sənaye məhsullarının ixracında fəallıq göstərir. Bu da iki ölkənin ticarət əlaqələrinin strukturunda kənd təsərrüfatı – qida və sənaye sektorlarının aktual olduğunu göstərir.

Enerji sahəsi Azərbaycan ilə İordaniya arasında perspektivli əməkdaşlıq istiqamətlərindən biridir. Tarixi baxımdan da tərəflər neft və qaz sahəsində əməkdaşlıq imkanlarını genişləndirir. Belə ki, 2011-ci ildə imzalanan iqtisadi protokol çərçivəsində Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə Azərbaycan neftinin İordaniyaya çatdırılması müzakirə olunub. Həmin razılaşma Azərbaycan xam neftinin Türkiyə Ceyhan limanından tankerlərlə İordaniyaya nəqlini nəzərdə tuturdu. O cümlədən 2009-cu ildə imzalanmış memorandumda İordaniyanın hər il təxminən 1 milyard kubmetr Azərbaycan qazını idxal etmək niyyəti də öz əksini tapıb.

Hazırda regionda qaz kəmərlərinin bərpası da gündəmdədir. Məsələn, Suriyada Türkiyə ilə birləşən qaz kəməri bərpa edilib və bu, Azərbaycan qazının Suriya və İordaniyaya nəqlinə imkan verə bilər. Belə ki, Suriyanın qaz boru infrastrukturu bərpa olunduqdan sonra Azərbaycan qazının İordaniyaya nəql olunması real olacaq və bununla yanaşı, qaz Misir, Livan və digər ölkələrə də yönəldilə bilər. Əlavə olaraq, hər iki ölkə alternativ enerji mənbələri (günəş, külək energetikası və s.) sahəsində birgə layihələri araşdırır. Enerji diplomatiyasının bu yönümü yaxın gələcəkdə İordaniya ilə əməkdaşlığın daha da dərinləşə biləcəyini göstərir.

Kənd təsərrüfatı sahəsində əməkdaşlıq da önəmli vəsaitlərdən biridir. Azərbaycan tərəfi fermerlərə göstərilən dövlət dəstəyi və aqrar sahədəki təcrübəsini İordaniyaya ötürməyə maraqlıdır. Məsələn, kənd təsərrüfatı naziri Məcnun Məmmədovun 2024-cü ilin dekabrında Əmmanda keçirdiyi görüşdə aqrar sektor üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi, birgə işçi qrupun yaradılması və kənd təsərrüfatı – ərzaq məhsullarının ticarət dövriyyəsinin artırılması kimi məsələlər müzakirə olunub. Razılaşmaya əsasən, İordaniya sahibkarlarının Azərbaycanda keçirilən “Caspian Agro” sərgisində iştirakı nəzərdə tutulur, bu da tərəflər arasında aqrar əlaqələri genişləndirməyə xidmət edir.

Ümumilikdə, hökumətlərarası komissiya çərçivəsində kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi məsələləri diqqət mərkəzində saxlanılır. Rəsmi məlumatlara görə, iki ölkə tərəfləri bu sahədə tərəfdaşlığı gücləndirməyə böyük potensial görürlər. Belə ki, Bakıda keçirilən 4-cü komissiya iclasında da kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində əməkdaşlıq perspektivləri vurğulanıb. Hazırda tərəflər aqrar-ticarət əlaqələrini genişləndirmək, texniki biliklər mübadiləsi aparmaq və ərzaq təhlükəsizliyinə birgə yanaşmalar formalaşdırmaq üçün addımlar atır.

Turist axınına gəldikdə, rəsmi məlumatlara görə, İordaniyaya azərbaycanlıların marağı ildən-ilə artır. İordaniyanın Azərbaycandakı səfiri N.Habaşneh bildirir ki, hər il təxminən 2 minə yaxın Azərbaycan vətəndaşı İordaniyaya turizm səfəri edir. Ümumiyyətlə, hər iki tərəf turizm sahəsində əlaqələri genişləndirmək üçün iqlimə uyğun paket turlar, birbaşa səyahət marşrutları və viza rejiminin sadələşdirilməsini müzakirə edir. Məsələn, 2022-ci ildə İordaniyanın paytaxtında keçirilən Beynəlxalq Sağlamlıq Turizmi Forumunda Azərbaycan iştirakçılarla uzunmüddətli əməkdaşlıq memorandumu imzalamış, ölkələr turizm potensialını təqdim etmişlər. Bu kimi təşəbbüslər turizm sahəsində əlaqələri gücləndirməyə xidmət edir.

Hər iki ölkə rəhbərliyi investisiya sahəsində yeni imkanların açılmasını üstünlük sayır. Azərbaycan tərəfi sənaye və kənd təsərrüfatı layihələri üçün təşviqedici tədbirlər nəzərdə tutub, İordaniya isə, öz növbəsində, Azərbaycana kənd təsərrüfatı və sənaye məhsulları ixracını artırmaqla bağlı addımlar atmaqdadır. Yaradılan ümumi platforma iki ölkə arasında investisiya mübadiləsini də sürətləndirir. Komissiya iclasında da Azərbaycana investisiya qoyuluşlarının artırılması və işgüzar əlaqələrin genişləndirilməsi prioritet məsələlər kimi vurğulanıb. Beləliklə, hər iki dövlət biznes icmalarını və investorlardan ibarət qurumları ticarət əlaqələrini dərinləşdirməyə çağırır.

*Nurlı ABDALOV*
*XQ*

### *Ekspert rəyi*

**Azər BADAMOV,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini**



Son zamanlar Azərbaycan ilə İordaniya arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq üzrə görüşlərin daha da intensivləşdiyinin şahidiyik. 15 noyabr 2024-cü ildə energetika naziri Pərviz Şahbazov Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammiti çərçivəsində İordaniyanın energetika və mineral ehtiyatlar naziri Saleh Əl-Xarabşeh ilə görüşmüşdür. 4 dekabr 2024-cü il tarixində İordaniya Haşimilər Krallığının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömər Bərəkət Əl-Nahar kənd təsərrüfatı naziri Məcnun Məmmədov ilə görüş keçirmişdir.

28 iyul 2025-ci ildə şəhərsalma sahəsində iki ölkə arasında tərəfdaşlıq məsələləri müzakirə edilib. İordaniyanın Azərbaycandakı səfiri Ömər Bərəkət Əl-Nahar 3 sentyabr 2025-ci il tarixində Milli Məclisin Sədri Sahibə Qafarova ilə görüşüb və iki ölkə arasında ikitərəfli əməkdaşlıq imkanları müzakirə edilib. Yəni ali səviyyədə olduğu qədər parlament səviyyəsində, qurumlar arasında da münasibətlər uğurla inkişaf edir. Hər iki tərəf bu inkişafda maraqlı olmaqla yanaşı, əməli addımlar atılır.

30 ildən artıqdır ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədə davam edir. İndi isə təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın iqtisadi və siyasi xəritəsi yenidən dəyişdiyindən və Azərbaycan regionda əsas aktor olduğundan, nəqliyyat və kommunikasiyaların mərkəzində yerləşdiyindən İordaniya kimi iqtisadi potensialı son dərəcə zəngin olan bir ölkə Azərbaycanla münasibətləri bir üst səviyyəyə qaldırmaqda maraqlıdır. Şübhəsiz ki, bu işdə Hökumətlərarası Komissiya son dərəcə önəmli platformadır.

23 noyabr 2007-ci il tarixində yaradılan Komissiyanın bu dəfə keçirilən IV iclası əvvəlki təşəbbüsləri irəli aparmaq, eyni zamanda, yeni əməkdaşlıq sahələrini genişləndirmək üçün mühüm mərhələ olaraq dəyərləndirilir. Azərbaycan MDB məkanında da önəmli aktordur. Məhz buna görədir ki, İordaniya Azərbaycana MDB ölkələri bazarlarına çıxış üçün strateji platforma kimi baxır. MDB məkanında heç bir iqtisadi iştirakı olmayan İordaniya Azərbaycana mühüm tərəfdaş kimi yanaşır.

Burada önəmli olan amil etibar və etimad amilidir ki, Azərbaycan həm yürütdüyü xarici siyasətlə, həm də reallaşdırılan layihələrdə göstərdiyi mövqe, nümayiş etdirdiyi yanaşma ilə özünə son dərəcə güvənli bir obraz biçməyi bacarıb. Həm də regional yaxınlıq, tarixi əlaqələr önəmli amildir. Belə ki, MDB məkanının hər mənada dilini bilən tərəf Azərabaycandır. Bu baxımdan obrazlı şəkildə ifadə etsək, Azərbaycan tərəflər arasında yaxşı “tərcüməçi” ola bilər.

Komissiyanın fəaliyyət dairəsi ticarət, iqtisadi və texniki əməkdaşlıq olmaqla olduqca genişdir ki, sayca dördüncü iclasının keçirilməsi mövcud geosiyasi və geoiqtisadi reallıqda mühüm əhəmiyyətə malikdir. Azərbaycanın xarici siyasət sədası, yenidənqurma təcrübəsi, enerji resursları artıq Yaxın Şərqdən eşidilir. Azərbaycan İordaniya üçün regionda əsas aktor olmaqla yanaşı, qarşılıqlı olaraq İordaniya da Azərbaycanın biznes dairələri üçün Yaxın Şərqdə mühüm qapıdır.

Məhz bu məsələlər Komissiyanın budəfəki iclasında bir daha xüsusilə vurğulandı. Zəngəzur Dəhlizi dünyanın diqqətini Azərbaycana, regiona cəlb edir. Buna Azərbaycan nail olub ki, regionun iqtisadi potensialını maksimum üzə çıxarsın. Yaxın Şərq və Şimali Afrika kontekstindən baxdığımız zaman Dəhliz Körfəz ölkələri, İsrail və ərəb tərəfdaşları ilə münasibətlərdə nəzərə alına bilən başqa bir təsir oxu təklif edir ki, bu ox da Mərkəzi Asiyanı, Cənubi Qafqazı və Şərqi Aralıq dənizini birləşdirir. Yəni Dəhliz dünyanı regiona, regionu da dünyanın iqtisadi toruna bağlayır.

İordaniya ilə Azərbaycan arasında bu vaxtadək imzalanmış sənəd sayının 40-dan çox olduğunu nəzərə alsaq, deməli, əməkdaşlığın inkişafı üçün güclü hüquqi zəmin də mövcuddur ki, bu da yeni addımların atılması üçün etibar vəd edir. Zəngəzur dəhlizi Mərkəzi Asiya və Yaxın Şərq üçün də yeni imkanlar deməkdir. Yəni Azərbaycan-İordaniya münasibətləri böyük bir coğrafiyanı əhatə edəcək. Azərbaycan Cənubi Qafqazı yenidən qurur, buraya investorların axınını sürətləndirir ki, İordaniyanın Cənubi Qafqaza investisiya qoyması bütün region xalqlarının rifahının yaxşılaşdırılmasına xidmət edəcək.

# MDB Dəmiryol Nəqliyyatı Şurasının Bakı iclası

**25-26 noyabr tarixlərində Bakıda Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin Dəmiryol Nəqliyyatı Şurasının 83-cü iclası keçirilib. Tədbirdə Azərbaycan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, Gürcüstan, İran, Ermənistan, Latviya və Estoniya dəmiryol administrasiyalarının, eləcə də Dəmir Yolları Əməkdaşlıq Təşkilatı (OSJD), MDB-nin İcraiyyə Komitəsi, Dəmiryolçuların Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının rəhbər heyəti iştirak edib.**



MDB Dəmiryol Nəqliyyatı Şurası 1992-ci ildə yaradılıb. Sovet İttifaqının dağılmasından sonra region ölkələrinin dəmir yolu sahəsində əlaqələrinin pozulmaması, vahid texniki-istismar standartlarının qorunması və ölkələr arasında yüklərin maneəsiz daşınmasının təmin edilməsi məqsədilə təsis edilən qurum bu gün MDB məkanında dəmir yolu nəqliyyatının koordinasiyasında əsas platforma olaraq qalır.

Qeyd edək ki, tədbir ərəfəsində Şimal-Cənub dəhlizinin inkişafı üzrə Memorandum imzalanıb. Əvvəlcə, “AZCON Holding” şirkətlərindən olan “Azərbaycan Dəmir Yolları” QSC (ADY) sədri Rövşən Rüstəmov, “Rusiya Dəmir Yolları” ASC-nin baş direktoru və İdarə Heyətinin sədri Oleq Belozyorov və İran İslam Respublikası Dəmir Yollarının rəhbəri Cabbar Əli Zakeri arasında üçtərəfli görüş baş tutub.

Görüşdə nəqliyyat-logistika sahəsində əməkdaşlığın perspektivləri, xüsusilə hər üç ölkənin ərazisindən keçən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tranzit imkanlarının genişləndirilməsi və bu istiqamətdə atıla biləcək müvafiq addımlar müzakirə edilib. Şimal-Cənub dəhlizinin Azərbaycandan keçən hissəsində görülən işlər barədə məlumat verilib.

Qeyd olunub ki, Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulması işləri ilin sonunadək başa çatdırılacaq. Həmçinin ADY tərəfindən İran ərazisində Astara Terminalının inşası davam etdirilir, terminalın tikintisi 2026-cı ilin 1-ci rübündə tamamlanacaq. Daha sonra tərəflər “Şimal-Cənub dəhlizinin qərb marşrutu üzrə rəqabətqabiliyyətli birbaşa tariflərin formalaşdırılması və logistik xidmətlərin inkişafı barədə Memorandum”u imzalayıblar. Sənəd tarif yanaşmalarının uzlaşdırılmasını, vahid kompleks tarifin formalaşdırılmasını, müntəzəm blok-qatarların təşkilini və daşımalar üzrə prosedurların təkmilləşdirilməsini nəzərdə tutur.

Bu mexanizmlərin həyata keçirilməsi Azərbaycan, Rusiya və İran arasında daha proqnozlaşdırıla bilən, sürətli və iqtisadi cəhətdən səmərəli logistika zəncirinin qurulmasına imkan verəcək. Memorandum Azərbaycan, Rusiya və İranın beynəlxalq nəqliyyat dəhlizlərində etibarlı iştirakçı kimi mövqelərinin gücləndirilməsini və regionda tranzit axınlarının davamlı artması üçün əlverişli şəraiti təmin edəcək.

Digər bir mühüm razılaşma ADY və Rusiya Dəmir Yolları arasında olub. Tərəflər yükdaşımaların rəqəmsallaşdırılması, o cümlədən rəqəmsal həllərin tətbiqi, məlumat mübadiləsinin sürətləndirilməsi və logistika zəncirinin optimallaşdırılması istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparıblar. Görüşün sonunda “Azərbaycan Dəmir Yolları” QSC və “Rusiya Dəmir Yolları” ASC arasında məlumatların ikitərəfli elektron mübadiləsi haqqında saziş imzalanıb. Saziş yük daşımalarının effektivliyinin artırılmasına və rəqəmsal sənəd dövriyyəsinin həyata keçirilməsinə tam imkan verəcək.

Azərbaycanın nəqliyyat infrastrukturunda xüsusi çəkiyə malik olan Azərbaycan Dəmir Yolları QSC (ADY) ölkədaxili və beynəlxalq daşımaların effektiv təşkilində əsas rol oynayır. Son illər həyata keçirilən modernləşmə proqramları, beynəlxalq dəhlizlərin genişlənməsi və yeni layihələrin icrası ADY-ni regionun ən mühüm nəqliyyat operatorlarından birinə çevirib. Azərbaycan uzun illərdir Avropa ilə Asiyanı birləşdirən nəqliyyat qapısı kimi tanınır. Bu mövqeyi daha da gücləndirən layihələrdən ən vacibi Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. 2017-ci ildə istifadəyə verilmiş bu xətt Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirərək Orta Dəhlizin əsas hissəsini təşkil edir.

BTQ dəmir yolunun yükaşırma qabiliyyətinin 5 milyon tonadək artırılması Orta Dəhlizin önəmini daha da artırır. Həmçinin Orta Dəhlizin dayanıqlı və səmərəli fəaliyyətinin əsas dayaqlarından olan Bakı Limanının buraxılış qabiliyyətinin ildə 15 milyondan 25 milyon tona çatdırılması planlaşdırılır.

Bununla yanaşı, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizində də aparıcı mövqeyini qoruyur. Hindistan-İran-Azərbaycan-Rusiya marşrutunu birləşdirən bu dəhliz yükdaşımalarının vaxtını əhəmiyyətli dərəcədə qısaldır. Astara (Azərbaycan) - Astara (İran) xətti artıq fəaliyyət göstərir. Rəşt-Astara dəmir yolunun tikintisi isə davam etdirilir.

Azərbaycanın tranzit potensialının gücləndirilməsi ölkəyə əlavə iqtisadi dividendlər qazandırır. Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlər də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Zəngilan-Ağbənd istiqamətində dəmir yolu xəttinin tikintisi işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası və regionun nəqliyyat xəritəsinin yenidən formalaşması baxımından mühüm layihə hesab olunur.

Son illərdə ölkədaxili sərnişin daşımalarında da ciddi irəliləyişlər qeydə alınıb. Sürətli qatarlar gündə minlərlə sərnişinə xidmət göstərir. “Stadler” tipli yeni qatarların istifadəyə verilməsi isə rahatlıq və təhlükəsizlik səviyyəsini daha da artırıb. ADY-də həyata keçirilən modernləşmə proqramı çərçivəsində dəmir yolu infrastrukturunun yenilənməsi, elektrikləşmə işlərinin genişləndirilməsi və rəqəmsal idarəetmə sistemlərinin tətbiqi davam edir.

SCADA və elektron yük izləmə mexanizmləri nəqliyyat prosesinin daha çevik və şəffaf idarə olunmasına imkan yaradır. Lokomotiv və vaqon parkının yenilənməsi də daşımaların keyfiyyətini artıran mühüm addımlar sırasındadır.

*Musa BAĞIRLI*
*XQ*

## İƏT-in kommersiya və xarici ticarət nazirlərinin İstanbul görüşü

*İclasda iqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə olunub*

**Türkiyənin İstanbul şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) kommersiya və xarici ticarət nazirlərinin 5-ci iclası keçirilib.**



İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev İƏT-in üzv ölkələr arasında ticarət, investisiya, sənaye və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi üçün mühüm platforma olduğunu vurğulayıb. Ölkəmizdə formalaşmış əlverişli investisiya mühiti, rəqəmsal ticarətin təşviqi, nəqliyyat-logistika infrastrukturunun modernləşdirilməsi və yeni ticarət marşrutlarının formalaşdırılması istiqamətində görülən işlər barədə iclas iştirakçılarına məlumat verilib.

İclasda İƏT regionunda iqtisadi inteqrasiyanın möhkəmləndirilməsi və regional ticarət dövriyyəsinin artırılması istiqamətində müzakirələr aparılıb. Üzv ölkələr arasında ticarət və gömrük əməkdaşlığının genişləndirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi və rəqəmsallaşdırılması, həmçinin məlumat mübadiləsinin təşviq olunmasının əhəmiyyəti qeyd olunub. Regiondaxili ticarət həcminin artırılması və ticarət maneələrinin azaldılması məqsədilə yeni əməkdaşlıq mexanizmlərinin formalaşdırılması ilə bağlı fikir mübadiləsi aparılıb.

İclasda İstanbul Bəyannaməsi, İƏT-in Ticarətin Asanlaşdırılması Strategiyası qəbul edilib, İƏT çərçivəsində fəaliyyət istiqamətləri müzakirə olunub.

*XQ*

*Konstitusiya və Suverenlik İli – 2025*

# Suveren dövlətçiliyin hüquqi təməli

**Hər bir dövlətin varlığı və dayanıqlığı onun suverenliyinin, hüquqi əsaslarının və milli iradəsinin bərabər balansda qorunmasından asılıdır. Dövlətin hüquqi çərçivəsi, onun siyasi sabitliyinin və ictimai rifahının təminatçısı kimi çıxış edir. Müasir dövrdə Azərbaycan Respublikası bu prinsipin parlaq nümunəsini nümayiş etdirərək, suveren dövlətçilik ideyasını reallığa çevirib. Bu uğurun təməlində isə Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyev tərəfindən müasir reallıqlara uyğun şəkildə davam etdirilən ardıcıl siyasi xətt dayanır. Azərbaycan xalqının əsrlərlə formalaşmış milli kimliyi və dövlətçilik ənənəsi bu gün müstəqil respublikanın ideoloji dayaqlarını təşkil edir.**




Azərbaycanın inkişaf konsepsiyası hüquqi dövlət və sosial rifah ideyasının qarşılıqlı vəhdətinə əsaslanır. Hüquqi dövlət təkcə qanunların mövcudluğu deyil, həm də onların ədalətli və effektiv tətbiqini nəzərdə tutur. Bu baxımdan Azərbaycan Respublikasında aparılan institusional islahatlar — məhkəmə sisteminin müasirləşdirilməsi, idarəetmədə şəffaflıq və hesabatlılığın artırılması, korrupsiyaya qarşı kompleks tədbirlər hüquqi sistemin sabit inkişafını təmin edən mühüm faktorlardandır. Belə ki, 1998-ci il 1 dekabr tarixində qəbul edilmiş "Məhkəmələr və hakimlər haqqında" Qanun ölkədə üçpilləli məhkəmə sisteminin formalaşmasına hüquqi əsas yaratdı. Bu islahat nəticəsində Azərbaycanın hüquq sistemi sovet dövründən miras qalan köhnə strukturlardan tamamilə uzaqlaşdırılaraq demokratik prinsiplər üzərində yenidən quruldu. Məhkəmə-hüquq sahəsində aparılan dərin dəyişikliklər nəticəsində Konstitusiya Məhkəməsi təsis olundu, 2000-ci ildən etibarən isə müstəqil və şəffaf fəaliyyət prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi tətbiq edilməyə başladı. Bu model əvvəlki məhkəmə mexanizmlərindən kəskin surətdə fərqlənərək, insan hüquq və azadlıqlarının qorunmasına daha güclü təminat gətirdi. Bu da ölkənin beynəlxalq imicini qanunun aliliyinə əsaslanan müasir dövlət kimi möhkəmləndirir.

Ulu öndər 2003-cü il oktyabrın 1-də Prezident seçkiləri ərəfəsində xalqa müraciəti zamanı demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2020-ci ildəki Vətən müharibəsində qazanılmış tarixi Qələbə və 2023-cü ildə həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.

Azərbaycanın müstəqillik tarixi göstərir ki, dövlətin möhkəm dayaqlarını təmin edən üç sütun olan, ordunun formalaşdırılması, hüquqi dövlətin qurulması və milli ideologiyanın bərpası prosesləri məhz Heydər Əliyev dövründə strateji prioritet kimi müəyyən olunub. Ulu öndərin ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatlar həm də milli ruhun yenidən oyanışı idi. Ümummilli liderin təşəbbüsü ilə yaradılan ali hərbi məktəblər, gənc zabitlərin xaricdə təhsil alması üçün geniş imkanların yaradılması, orduya milli ideya və vətənpərvərlik ruhunun aşılanması bu günün qalib Azərbaycan Ordusunun əsasını təşkil edir. Bu baxımdan 2020-ci ilin Vətən müharibəsində əldə olunan tarixi Qələbə Heydər Əliyevin illər əvvəl təməlini qoyduğu güclü, intizamlı və yüksək döyüş qabiliyyətinə malik ordunun nəticəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "dəmir yumruq" əməliyyatı da Ulu öndərin "Azərbaycan müstəqil dövlət kimi əbədi yaşayacaq" ifadəsinin reallaşması idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi dövlətçilik tariximizdə həm simvolik, həm də strateji addımdır. Bu qərar iki fundamental hadisənin – Konstitusiyanın qəbulunun 30 illiyi və Vətən müharibəsində Qələbənin 5 illiyinin vəhdətini təcəssüm etdirir.

Azərbaycanın həqiqi milli Konstitusiyası yalnız müstəqillik əldə olunduqdan sonra mümkün oldu. 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" gələcək dövlət quruculuğunun hüquqi əsasını qoydu. Lakin 1991-1993-cü illərdəki siyasi qeyri-sabitlik, idarəetmədə xaos və hakimiyyət böhranı ölkədə yeni Konstitusiyanın qəbulunu mümkünsüz etmişdi. Bu vəziyyətin dəyişməsi Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə baş verdi. 1995-ci il mayın 2-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq edildi. Komissiyanın tərkibinə tanınmış ictimai-siyasi xadimlər, alimlər, peşəkar hüquqşünaslar qatıldı. Sədr isə Ulu öndər Heydər Əliyev seçildi. İlk növbədə siyasi sabitlik, hüquqi nizam və dövlət institutlarının bərpası istiqamətində addımlar atdı. Ümummilli lider deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun". Yaradılmış komissiya tərəfindən çox qısa bir müddətdə inkişaf etmiş demokratik ölkələrin konstitusion quruculuq təcrübəsi öyrənildi, təhlil olundu, Azərbaycan Respublikasının Konstitusiyasının layihəsi hazırlanıb 1995-ci il oktyabrın 15-də ictimai müzakirəyə təqdim olundu, 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsi ilə Azərbaycanın müstəqillik dövründə ilk milli Konstitusiyası 94,5 faiz səs çoxluğu ilə qəbul edildi.

Konstitusiyada BMT-nin 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı il Beynəlxalq Mülki və Siyasi Hüquqlar Paktı və digər beynəlxalq sənədlərin prinsipləri əks olunmaqla, Azərbaycan hüquqi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması təmin edildi. Bu, həmçinin ölkəmizin demokratiya və insan hüquqları sahəsində qlobal öhdəliklərə sadiqliyinin göstəricisidir.

Azərbaycan Konstitusiyasına sonrakı illərdə üç dəfə 2002, 2009 və 2016-cı illərdə – ümumxalq səsverməsi (referendum) yolu ilə mühüm dəyişikliklər edilib. Bu dəyişikliklər cəmiyyətin sosial-siyasi inkişaf dinamikasına uyğun olaraq dövlət idarəetməsinin çevikliyini artırmağa yönəlmişdi. 2002-ci il referendumunda əsas məqsəd dövlət hakimiyyəti orqanları arasında səlahiyyət bölgüsünün təkmilləşdirilməsi və idarəetmənin effektivliyinin artırılması idi. 2009-cu ildə edilən dəyişikliklər insan və vətəndaş hüquq və azadlıqlarının təminatını genişləndirdi, medianın və ictimai iştirakçılığın hüquqi bazasını möhkəmləndirdi. 2016-cı il referendumunda isə konstitusion idarəetmədə institusional modernizasiya həyata keçirildi: vitse-prezidentlik institutu təsis olundu, icra hakimiyyəti sisteminin struktur çevikliyi təmin edildi, gənclərin və ailə institutunun dövlət siyasətində rolu konstitusion status qazandı.

Azərbaycan Respublikasının Konstitusiyası milli suverenliyin ideoloji rəmzi kimi çıxış edir. Konstitusiyada əksini tapan "Azərbaycan Respublikasının ərazi bütövlüyü, dövlət müstəqilliyi və konstitusiya quruluşu" prinsipləri bu gün də dövlətin daxili və xarici siyasətinin əsas istiqamətini müəyyən edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətin hüquqi və ideoloji inkişafının məntiqi davamı kimi çıxış edir. Bu təşəbbüs Konstitusiyanın 30 illiyinə verilən ən yüksək siyasi qiymət olmaqla yanaşı, hüquqi dövlətçilik prinsipinin daha da möhkəmləndirilməsi məqsədini daşıyır.

2023-cü ilin noyabrında Xankəndidə keçirilən Zəfər paradı Azərbaycan dövlətçiliyinin və hərbi gücünün siyasi manifestinə çevrildi. Bu hadisə Ulu öndərin "Qarabağ Azərbaycandır və nida" prinsipinin əyani təsdiqi olmaqla yanaşı, həm də dövlətin suverenlik atributlarının tam bərpa olunduğunu dünyaya nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində açıqladı: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik".

Bu gün Azərbaycanın siyasi sistemi, ordu quruculuğu və hüquqi islahatları bir-biri ilə sıx şəkildə bağlı olan vahid dövlətçilik mexanizmini təşkil edir. Bu mexanizmin ideoloji nüvəsini Heydər Əliyev irsi, onun "hüquq və ədalət üzərində qurulan dövlət" fəlsəfəsi formalaşdırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu fəlsəfə Azərbaycanı Cənubi Qafqazın ən güclü, müstəqil və hüquqa əsaslanan dövlətinə çevirib.

"Konstitusiya və Suverenlik İli" isə bunun davamı kimi, həm ulu öndərin dövlətçilik irsinə ehtiramın, həm də gələcəyə yönəlik strateji baxışın ifadəsidir. Bu il təkcə tarixə qayıdış deyil, həm də hüquqi və mənəvi qələbənin siyasi təntənəsidir.

***Elnur RÜSTƏMOV,***
***Saatlı rayon prokuroru,***
***ədliyyə müşaviri***

# Qaynar bulaqlı, qızıl taclı Kəlbəcərim!



**Mən Kəlbəcəri görməmişəm. Amma onu hiss etmişəm. Mən kəlbəcərli deyiləm, lakin işğal illərində Kəlbəcər üçün yanıb-qovrulanlardanam. Mən Kəlbəcəri Məmməd Aslanın Kəlbəcər sevgisindən duyğulanaraq sevdim. Düz 27 il Kəlbəcər dedikdə bir qaya üstündə oturaraq dalğın və nisgilli baxışları ilə işğal altında olan Kəlbəcər dağlarını seyr edərək için-için yanan Məmməd Aslan, bir də bir körpəsini kürəyinə sarıyan, ayağıyalın, başıaçıq, canını götürüb qaçan Kəlbəcər qaçqını analar gəlirdi gözlərim önünə.**

Məmməd Aslan 20 Yanvara həsr etdiyi "Ağla, qərənfil, ağla" şeirini yazanda bizi gözləyən faciələrdən hələ xəbərsiz idi. Xəbərsiz idi, lakin şair qəlbi artıq necə bir faciələr yaşayacağımızı hiss edirdi.

Vətəndə vətənsiz qalmaq özgə bir dərddir. Haqlı olduğun halda haqsız duruma düşmək, bütün dünyanın səni bu haqsızlıqla barışmağa məcbur etməsi, başda oturanların milli mənlikdən uzaq olması, hələ saymadığım bu kimi onlarla səbəb üzündən ötən əsrin 90-cı illərində nəinki Qarabağ, Qarabağa daxil olmayan bir çox yaşayış yerlərimiz, o cümlədən Kəlbəcər işğal olundu.



Rusiya mənbələrinə görə, Ermənistanda yerləşdirilən 128-ci alayın (7-ci Rusiya ordusu) dağ qoşunları Kəlbəcəri ildırımsürətli əməliyyat ilə işğal etdi. Dörd istiqamətdə hücum edən erməni qüvvələri Kəlbəcər döyüşündə 1900 kvadratkilometrdən çox ərazini ələ keçirdi. Bununla da Ermənistan Dağlıq Qarabağa yardım göndərmək üçün ikinci "dəhliz" açdı. İşğal zamanı Ermənistan silahlı qüvvələri tərəfindən 511 dinc sakin öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb, 53 mindən artıq insan öz dədə-baba torpaqlarından qovulub.

İşğal nəticəsində Kəlbəcərdə 130 yaşayış məntəqəsi ermənilərin nəzarətinə keçib. Bunları nəinki yazmaq, düşünmək belə ağır idi, müzəffər ordumuz 2020-ci ilin noyabrında Kəlbəcərdə Azərbaycan bayrağını dalğalandırana kimi. Ermənistanın məğlubiyyətinin təsdiqi olan 10 noyabr 2020-ci il Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli Bəyanatda Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Ağdam və Laçın rayonlarının ərazilərini qeyd-şərtsiz tərk etmələri öz əksini tapdı. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 25-də Kəlbəcərin işğaldan azad edilməsi münasibətilə xalqa müraciət etdi.

## Yenə çiçək fəslidir...

O gün Murova azadlıq günəşi doğdu, Azərbaycanın 56 rayon və şəhərinin 707 yaşayış məntəqəsində qaçqın kimi məskunlaşan kəlbəcərlilər bu günəşin istisinə sığınmağa can atdılar, ekran qarşısında doğma Kəlbəcəri tərk edən düşmən eşelonunu təkcə kəlbəcərlilər deyil, bütün Azərbaycan xalqı sevinc göz yaşları ilə izlədilər. Kəlbəcər dağlarının ən hündür zirvələri – Camışdağ (3724 m) və Dəlidağ da (3616 m) bu günəşin zərrin şəfəqlərinə büründü.

Sanki, bir möcüzə baş vermişdi. Kəlbəcəri tərk edən ermənilər rüsvayçı hərəkətləri və barbar davranışları ilə diqqəti cəlb etdilər. Ermənilər evlərə, digər tikililərə od vurur, elektrik yarımstansiyalarını, restoranları, bir sözlə, yararlı nə varsa hamısını talayıb dağıdır, evlərə, bağlara od vurub yandırır, öz vəhşi, dağıdıcı xislətlərini nümayiş etdirirdilər. İşğal olunmuş ərazilərdə ekologiyaya ziyan vurulması və mülki obyektlərin dağıdılması beynəlxalq konvensiyalara görə hərbi cinayət sayılır. Ermənistan tərəfi törətdiyi bütün cinayətlərə görə mütləq cavab verəcəkdir.

Ana torpaq rahat nəfəs aldı, dağların əzəməti, qüruru yerinə qayıtdı, işğalçının izini təmizləmək, torpağa məlhəm olmaq üçün ağappaq-bəmbəyaz qar yağdı, Murov öz sərtliyini gizlətdi, Tərtər çayı çağlayıb-daşdı. Üzü qışa doğru olduğu üçün quşlar göydə qıy vuraraq qanad çalmağı yaza qədər gözləməli oldu. Altı da, üstü də sərvət olan Kəlbəcər, o dağlar gözəlinin çəmənləri, yaylaları gül bitirdi, bənövşə ətrinə büründü. Bu bənövşəni mərhum şair Məmməd Aslan çox axtarmışdı, lakin bənzərini tapmamışdı. Çünki şair tapdığı bənövşələrdə Kəlbəcər dağlarının ətrini duya bilməmişdi.

İnsan torpağı gözəlliyinə görə deyil, məhz Vətən olduğuna görə sevir. Kəlbəcər həm qeyri-adi relyefə, həm də sərvətlərə və gözəlliyə malikdir. Buranın ən qədim insan məskəni olmasını arxeoloqlar çoxdan təsdiq ediblər. 1976-cı ildə Kəlbəcər qaya təsvirlərinin yerləşdiyi ərazinin yaxınlığında Azərbaycanda ilk dəfə olaraq yaşayış yeri aşkar edilib. Bura ilk insan məskəni olub. Kəlbəcərin dağ-çəmən və qonur dağ-meşə torpaqları bura gələnləri heyran edir.

Bu gün əgər Fransa kimi bir ölkə bizə qarşı kin qusursa, işğalçını açıq-aşkar müdafiə edərək torpaqlarımızı azad etməyimizlə barışmırsa, bu gözəlliklərdə, bu sərvətdə ağzının dadı qalmasındadır. Kəlbəcərdə isə şair demişkən, "Yenə çiçək fəslidir, hava gül nəfəslidir".

## Açılmamış xəzinə

Kəlbəcərin təsviri hər zaman belə olub: "Kəlbəcər başdan-başa açılmamış bir xəzinədir". Ötən əsrin 70-ci illərində dağların zirvəsində yerləşən Kəlbəcəri müxtəlif bəhanələrlə düzən yerlərə köçürmək istəyiblər. Ulu öndər Heydər Əliyev bu köçürmə planının həyata keçirilməsinə mane olub. Düşmənin hər zaman bu qədim Oğuz yurdu haqqında məkrli planları olub və bu planları yerinə yetirmək üçün zaman-zaman cəhdlər göstərib. Ermənistan 1993-cü ildə işğal nəticəsində buna nail oldu və təbii sərvətlərimizi Fransa şirkətlərinin iştirakı ilə talamağa başladı. Bu talan düz 27 il davam etdi. Obsidian, travertin, mərmər, bazalt, tuf, qabbro, gümüş, xrom, mis, tellur, selen, bir sözlə, Mendeleyev cədvəlinin ən nadir elementləri olan yataqlar rayon ərazisindəki qiymətli yataqların, sadəcə, bir qismidir.

Göyçə silsiləsinin suayrıcında, Misqaynaq dağının yamaclarında yerləşən Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan "Ağduzdağ" və "Tutxun" kimi qızıl yataqları vəhşicəsinə talandı. Bu gün Kəlbəcər torpağı azad nəfəs alır. İstismar nəticəsində çirklənən təbiət tullantılardan təmizlənir. Bu yataqlardan istifadə olunacaq, lakin təbiətin qorunmasına dair beynəlxalq tələblərə əməl edilərək, gələcək nəsillər nəzərə alınaraq. Bu qiymətli yataqların yerləşdiyi dağ silsilələrinin təbii halı qorunaraq, o gözəlliyə gözəllik qatılaraq, əvəzsiz fauna və floranın qeydinə qalaraq. Çünki bizlər bu yerlərin əzəli və əbədi sahibləriyik.

## Qızıllı qayalar, qaynar çeşmələr

Kəlbəcərin qərb hissəsində silsilə dağ yamaclarından təbiətin Kəlbəcərə bəxş etdiyi min bir nemətdən biri – dirilik suyu – İSTİSU axır. Mərhum akademik Mirəli Qaşqay İstisu haqqında demişdi: "...Kəlbəcər rayonundakı İstisu mineral su bulağı təbiətin gözəl hədiyyəsidir. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, bu sular dünyada məşhur olan Karlovı-Varı bulaqlarının eynidir və bəzi xüsusiyyətlərinə görə dünyada yeganədir".

İstisuyun istiliyi 58,8 $^{0}C$ qədərdir. Cəmi mineralların sayı 6,7 qrama çatan 1 litr su litium, brom, yod, mərgümüş, fosfor, sink, med, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələrlə zəngindir. Bu bulaqlardan biri 8 metrədək hündürlükdə fəvvarə vurur. Verilən məlumatlar göstərir ki, İstisu mənbələrindən hər il 3 milyard 963 mln. litr su çıxır.

İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ zamanı əmələ gəlmişdir. Bu su hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur. İstisu mineral bulaqları fəaliyyətdə olan 12 bulaqdan ibarətdir.

## Mənəvi xəzinə

Saydığım və saymadığım bitib-tükənməyən təbiət gözəllikləri Kəlbəcəri həm də mənəvi bir xəzinəyə çevirmişdi. İnsan bu gözəlliklərin içərisində yaşayaraq necə şair olmaya bilərdi. Aşıq Ələsgər bu dağlarda kamala çatmışdı, Ağdabanlı Aşıq Qurban bu dağlardan ilham almışdı, Aşıq Şəmşir bu dağlarda meydanlar yormuşdu. Məmməd Aslan bu dağların həsrətinə dözə bilmədi. Məmməd Aslan yazırdı: "Qayıtmaz o Kəlbəcər, qayıtsa yüz Kəlbəcər". Heyif səndən şair, heyif ki, bu günləri görmədin. İgid döyüşçülərimiz sənin arzuladığın "O Kəlbəcəri" qaytardılar.

Ölkə başçısının rəhbərliyi ilə işğaldan azad edilən Kəlbəcər rayonunda da böyük quruculuq işləri aparılır. Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunan 11.6 kilometrlik avtomobil yolu layihəsi çərçivəsində ümumilikdə işlərin 87 faizi icra olunub. Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikilən 3,4 kilometr uzunluğunda tunelin inşası başa çatmaq üzrədir. Bəli, bu dağların bağrı yarılır, oradan tunellər çəkilir, fantastik layihələr həyata keçirilir. Bu yollar rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

Fikrimi Prezident İlham Əliyevin dediyi sözlərlə tamamlayıram: "Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq".

***Elmira MEHDİYEVA***

# Əmlak bazarında stimullaşdırıcı addım

## *İcarə gəliri vergisinin azaldılması şəffaflığı və qazancı yüksəldəcək*

**İcarə bazarı hər bir ölkənin sosial-iqtisadi həyatında mühüm yer tutur. Şəhərləşmənin sürətlənməsi, tələbə axını, əmək miqrasiyası, biznes məqsədli daşınmaz əmlak tələbi bu sahədə dinamizmi daha da artırır.**

Azərbaycanda da bu məsələ xüsusi önəm daşıyır. Respublikamızın Bakı və digər böyük şəhərlərində kirayə mənzil bazarı həm sosial rifah, həm də vergi potensialı baxımından gəlirli sektorlardan biridir. Məhz bu baxımdan hökumətin 2026-cı ildən fiziki şəxslərin icarə gəlirinə tətbiq edilən vergi dərəcəsini 14 faizdən 10 faizə endirməsi də stimullaşdırıcı amil kimi qiymətləndirilir.

Bu addım vergi yükünün azaldılması ilə bərabər, həm də bazarın şəffaflaşdırılması, kirayə münasibətlərinin rəsmiləşdirilməsi və vergi daxilolmalarının artırılması kimi çoxşaxəli hədəflərə xidmət edir. Bununla yanaşı, beynəlxalq təcrübə də göstərir ki, icarə vergi dərəcəsinə belə bir yanaşma vətəndaşların rəsmi müqavilələrə marağını artırır, sahibkarlar sanksiyalardan yayınmaq üçün daha çox əməkdaşlığa meyillənir, bazarda institusional sabitlik güclənir.

İcarə gəliri vergisinin azaldılmasından bəhs edən Milli Məclisin deputatı Vüqar Bayramovun fikrincə, 14 faizdən 10 faizə endirilmə ilə bağlı qərar təkcə fiskal yükün azaldılması deyil, həm də vergi itkilərinin qarşısının alınması baxımından mühüm mexanizmdir. Deputat-iqtisadçının sözlərinə görə, hazırda icarə sektorunun əhəmiyyətli hissəsi qeyri-rəsmi şəkildə fəaliyyət göstərir, bu isə büdcə üçün ciddi itkilər yaradır. Verginin azaldılması ilə vergi ödəyicilərinin qanun-qaydalara, standartlara və etik normalara uyğun könüllü fəaliyyət səviyyəsi artır, beləliklə, həm şəffaflıq yüksəlir, həm də bütövlükdə dövlət gəlirləri çoxalır.

Dövlət Vergi Xidməti də eyni yanaşmanı bölüşərək bildirir ki, 2025-ci ildən tətbiq ediləcək agent mexanizmi, yəni fiziki şəxslərin qeydiyyata ehtiyac olmadan seçdikləri agent vasitəsilə vergi öhdəliklərini yerinə yetirmək imkanını – idarəetməni daha da sadələşdirəcək. Bu, xüsusilə çoxsaylı icarə obyekti olmayan kiçik ev sahibləri üçün prosesi xeyli yüngülləşdirəcək.

### Aşkar fəaliyyətin səmərəsi

Hazırkı qanunvericilik icarə gəlirini xərclər çıxılmadan vergiyə cəlb edir ki, bu da bəzi hallarda faktiki vergi yükünü artırır. Gəlir vergisi dərəcəsinin real gəlirlərə uyğunlaşdırılması islahatı daha balanslı yük bölüşdürməsi yaradır. İqtisadçı Xalid Kərimlinin sözlərinə görə, vergi dərəcəsinin azaldılması büdcə gəliri ilə bərabər, sosial münasibətlərə də təsir edir. Onun fikrincə, əvvəla, rəsmi müqavilələrin artması kirayəçilərin hüquqlarını qoruyur. Qeyri-rəsmi kirayə münasibətlərində kirayəçilər hüquqi müdafiədən məhrum olur, ev sahibləri isə risklərlə üzləşir. Rəsmi münasibətlər isə sabit və ədalətli bazar yaradır. İkincisi, rəsmi gəlir sahibkarların maliyyə institutları ilə münasibətlərini yaxşılaşdırır. Bank sistemində icarə gəliri rəsmi təsdiq edilən şəxslər kredit almaqda üstünlük qazanır. Üçüncüsü, dövlət üçün proqnozlaşdırılan vergi bazası yaranır. Qeyri-rəsmi dövriyyə azaldıqca, vergi planlaması daha dəqiq olur.

Ekspert fikrinin davamında tarif endiriminin 2026-cı ildə kirayə qiymətlərinə əhəmiyyətli dərəcədə təsiri olmayacağını da vurğulayaraq, dəyişikliklərin bazara təsirinin yalnız şəffaflıq təmin edildikdən sonra qiymətləndirilə biləcəyini deyib. O, bunun səbəbini kirayə bazarının bir hissəsinin hələ də qeyri-rəsmi fəaliyyət göstərməsi ilə əlaqələndirib.

Beləliklə, vergi dərəcəsinin azaldılması əhalinin Vergi Məcəlləsinə riayət etməsi üçün iqtisadi stimul yaradır, gəlirləri leqallaşdırır və icarə bazarında şəffaflığı artırır. Hökumətin əsas məqsədi də vergidən yayınma hallarını azaltmaq, icarə müqavilələrinin rəsmiləşdirilməsini gerçəkləşdirmək və vergi yığımını artırmaqdır.

Lakin ekspertlərin bir çoxu həm də belə bir fikirdədir ki, vergi dərəcəsinin azaldılması kirayə qiymətlərində qısa müddətdə ciddi dəyişiklik yaratmayacaq. Çünki qiymətlərin formalaşmasında əsas amillər – təklifin məhdudluğu, tələb yüksəkliyi, tələbə axını, mövsümilik və sosial-iqtisadi vəziyyət vergi siyasətinə daha güclü təsir edir.



### Hüquqi tənzimlənmənin üstünlüyü

Ekspert Qoca Əmirov mövzu ilə bağlı açıqlamasında bildirdi ki, kirayə müqaviləsi bağlanarkən vergi orqanlarına məlumat verilməməsi İnzibati Xətalar Məcəlləsinin 460-cı maddəsinə uyğun olaraq vergidən yayınma kimi qiymətləndirilir. Cərimələrin məbləği ödənilməli verginin 30-70 faizi arasında dəyişir. Bununla belə, qanunvericilik ilk dəfə uyğunsuzluğa yol verən və vergini tam ödəyən şəxslər üçün məsuliyyətdən azadolma mexanizmi də nəzərdə tutur. Bu praktikada tətbiq olunan "gözlənilən davranış dəyişikliyi" modelidir. Məqsəd cərimələmək deyil, vergi sisteminə qoşulmağı təşviq etməkdir. Endirilən 10 faiz dərəcəsi isə bu mexanizmi daha səmərəli edir, çünki vergi ödəmək üçün stimul artır, yayınma üçün isə maraq azalır.

Q.Əmirov söhbət zamanı beynəlxalq təcrübədə vergi dərəcəsinin azaldılmasının nəticələri barədə də fikirlərini diqqətə çatdırdı: "Polşada bir neçə il əvvəl tətbiq edilən sadələşdirilmiş icarə vergisi özünü tam doğrultdu. Bu ölkədə vergi dərəcəsinin real bazar şərtlərinə uyğunlaşdırılması nəticəsində qeyri-rəsmi icarə müqavilələrinin payı 30 faizdən çox azaldı. Rəsmi müqavilələr üzrə illik vergi daxilolmaları isə artdı. Eyni zamanda, rəsmi qeydiyyatdan keçən ev sahiblərinin sayı da çoxaldı və bu sahədə bazar tam şəffaflaşdı.

Estoniyada da bu sahədə mühüm bir yeniliyə imza atıldı – vergi sistemi tamamilə rəqəmsallaşdırıldı. Başqa sözlə, icarə gəlirləri barədə məlumatlar elektron platformada formalaşdırıldı. Bunun nəticəsində icarə bazarında rəsmiləşdirilən gəlirin payı 70 faizi keçdi.

### Vergi monitorinqi xərcləri azalıb

Azərbaycanda 2026-cı ildən tətbiq ediləcəyi nəzərdə tutulan icarə gəliri vergisinin azaldılması məhz yuxarıda adları çəkilən ölkələrin müasir idarəetmə modelinə uyğunlaşma kimi qiymətləndirilir. Ekspert Qoca Əmirov və digər mütəxəssislər Azərbaycanda 10 faiz seçimə üstünlük verilməsinin beynəlxalq təcrübəyə tam uyğun gəldiyini bildirirlər. Onlar bu dərəcənin vurğulanan səviyyədə təsdiqlənəcəyi təqdirdə, dövlət gəlirlərinin azalmasına təsir göstərməyəcəyini, eyni zamanda, qeyri-rəsmi əməliyyatların qarşısının alınmasında stimullaşdırıcı rol oynayacağını, ümumiyyətlə, bu cür balanslaşdırılan yanaşmanın bazarın leqallaşdırılması baxımından ən uyğun model olduğunu deyirlər.

Yeri gəlmişkən, ekspertlər tərəfindən icarə gəliri vergisi kimi islahatların makroiqtisadi mühitə 3 əsas istiqamətdə təsir etdiyi xatırladılır:

*– bazar iştirakçıları daha çox rəsmi müqavilə bağladıqları üçün vergi bazası genişlənir. Bu, "gizli" iqtisadiyyatın payının azalması deməkdir;*

*– şəffaf, proqnozlaşdırılan qaydalar həm yerli vətəndaşlarda, həm də xarici investorlar arasında etimadı artırır;*

*– daşınmaz əmlak bazarında sabitlik yaranır. Eyni zamanda, rəsmi müqavilələr kirayə münasibətlərində riskləri azaldır, bu isə qiymət volatilliyini zəiflədir və bazarda uzunmüddətli sabitliyi dəstəkləyir.*

Bir sözlə, 2026-cı ildən etibarən, yeni icarə gəliri vergisinin tətbiqi ilə ev sahibləri üçün daha az vergi yükü, daha az sanksiya riski, daha çox hüquqi müdafiə amillərinin reallaşacağı, kirayəçilər üçün şəffaf müqavilələr, daha sabit qiymət siyasəti, hüquqi təminatın mövcudluğu, dövlət üçün artırılan vergi bazası, səmərəli monitorinq, optimallaşdırılmış idarəetmə xərcləri, bazar üçün leqallaşmanın yüksəlməsi, daha sağlam rəqabət, uzunmüddətli institusional sabitlik gözlənilir.

Beləliklə, ekspertlərin hamısı həmfikirdir: vergi dərəcəsinin azaldılması kirayə qiymətlərinin kəskin dəyişməsinə səbəb olmayacaq. Real təsirlər bazarda şəffaflıq artdıqca özünü göstərəcək.

* * *

Azərbaycanın icarə gəliri üzrə vergi siyasətində atdığı bu addım həm sosial, həm fiskal, həm də institusional baxımdan düşünülmüş və elmi əsaslara söykənən qərardır. Dünya təcrübəsi də göstərir ki, vergi dərəcələrinin optimal səviyyəyə endirilməsi rəsmi dövriyyəni artırır, qeyri-rəsmi sektorun payını azaldır və dövlət gəlirlərini yüksəldir.

10 faiz dərəcəsi ilə ölkəmiz həm kirayə bazarının "ağardılması", həm vətəndaşların hüquqlarının qorunması, həm də iqtisadi idarəetmənin modernləşdirilməsi istiqamətində mühüm addım atır. Bu siyasət 2026-cı ildən bazara yeni dinamika gətirəcək və respublikamızın vergi sisteminin şəffaflığına, sabitliyinə və səmərəliliyinə ciddi töhfə verəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

---

### *Ekspert rəyi*

**Ramil OSMANLI,**
**Əmlak Ekspert Mərkəzinin direktoru, Azərbaycan Qiymətləndiricilər Palatasının üzvü**



Gələn ildən ölkəmizdə fiziki şəxslərin mənzil (yaşayış sahəsi) kirayəsindən əldə etdikləri gəlirə görə, vergi dərəcəsinin (ödəmə mənbəyindən) 14 faizdən 10 faizə endirilməsi nəzərdə tutulub. Yəni 2026-cı il yanvar ayının 1-dən etibarən, fiziki şəxsə məxsus yaşayış sahəsinin başqa fiziki şəxsə kirayə verilməsindən əldə olunacaq gəlirdən ödəniləcək vergi 10 faiz olacaq. Bu dəyişiklik mehmanxana və mehmanxana tipli obyektləri nəzərdə tutmur. Belə bir qərar, təbii ki, ölkədə vergi siyasəti baxımından aparılan geniş islahatların davamı kimi bir tərəfdən fiziki şəxslərin gəlirlərinə müsbət töhfə verməklə yanaşı, bu sahədə şəffaflığı artırmağa və daha çox kirayə münasibətlərindən yaranan öhdəliklərin rəsmiləşdirilməsinə fiziki şəxsləri, vergi ödəyicilərini təşviq etməyə yönəlib. Yəni söhbət mövcud qanunvericiliyin tələblərinə uyğun fiziki şəxslər arasında notarial qaydada imzalanmış kirayə müqalələri üzrə ödənişlərdən gedir.

Aparılan araşdırmalar göstərir ki, ölkə üzrə kirayənin subyekti olan yaşayış sahələrinin sayı təqribən 350-400 mindən yuxarıdır ki, onların da böyük hissəsi məhz Bakı və Abşeronun payına düşür. Amma təəssüflə qeyd etməliyik ki, vurğulanan rəqəmlər daxilində rəsmiləşdirilən kirayə müqavilələrinin xüsusi çəkisi bu rəqəmdə 10 faizdən aşağıdır. Bu baxımdan düşünürəm ki, kirayə müqavilələrinin sayının artırılması, maksimum səviyyəyə çatdırılması üçün bu cür təşviqedici layihələr olduqca əhəmiyyətlidir.

Vergi orqanlarının səlahiyyət dairəsinə vergidən yayınan subyektlərin araşdırılması, onların vergitutma obyektinə çevrilməsi üçün qanuni əsaslarla müxtəlif tədbirlərin görülməsi, o cümlədən cərimələrin, vergi sanksiyalarının tətbiq olunması kimi hallar da daxildir. İndiki halda İqtisadiyyat Nazirliyinin əsas xətt kimi təşviqedici tədbirlərin həyata keçirilməsinin, müəyyən güzəştlərin verilməsinin nəzərdə tutması, əslində, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq vətəndaş məmnunluğunun gerçəkləşdirilməsinə, mikro, kiçik sahibkarlığın inkişafına yönələn müsbət, səmərəli addımdır.

Bu məsələdə subyektiv mövqeyim bundan ibarətdir ki, 1-2 ildən sonra monitorinqlər yolu ilə bu qərarın iqtisadi səmərəliyini araşdırıb müvafiq istiqamət üzrə vergi dərəcəsini müəyyən qədər azaltmaq da mümkündür. Amma bu addımlar sistemli və iqtisadiyyata zərbə vurmadan həyata keçirilməlidir. Son illərdə İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti tərəfindən hökumətə təqdim olunan layihələr, uzunmüddətli vergi güzəştlərinin tətbiqi, planlı vergi yoxlamalarının azaldılması və aradan qaldırılması qeyd etdiklərimə real nümunədir.

Yaşayış sahəsi kirayəsindən əldə olunan gəlirə görə, vergi dərəcəsinin (ödəmə mənbəyində 10 faizə endirilməsinin hansı müsbət nəticələrə gətirib çıxaracağına gəlincə isə deyə bilərəm ki, konkret nəticələr baxımından bu qərar kölgə iqtisadiyyatının azaldılmasına xidmət edəcək, rəsmi müqavilələri əhəmiyyətli dərəcədə artıracaq, vergi ödəyicisinin vergi yükünü azaldacaq, dövlət büdcəsinə bu sahədən daxilolmalara müsbət təsir etməklə yanaşı, qərarın səmərəliliyindən asılı olaraq kirayə qiymətlərinin, nisbi də olsa, azalmasına gətirib çıxaracaq.

---

# 38 ailə də doğma Horovluya qovuşdu




**Dünən növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.**

Qeyd edək ki, bu mərhələdə Horovlu kəndinə 38 ailə olmaqla, 139 nəfər köçürülüb. Bununla da Horovlu kəndində 132 ailə olmaqla, 541 nəfərin məskunlaşması təmin olunub. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Qeyd edək ki, kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi – su, işıq, qaz və yüksəksürətli internetlə təmin olunub. Həmçinin Günəş panelləri quraşdırılıb. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi–uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış kəhrizlər bərpa edilib.

***XQ***

---

# Naxçıvanda fermerlərə səyyar xidmət

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi fermerlərin əkin bəyanı prosesini sürətləndirmək və asanlaşdırmaq məqsədilə bölgələrdə səyyar xidmət həyata keçirir. Nazirliyin səyyar qrupları rayon və kəndlərdə fermerlərlə görüşərək əkin sahələrinin bəyan olunması, subsidiya qaydaları və Elektron Kənd Təsərrüfatı Sistemi barədə məlumat verir, həmçinin əkinlərin bəyan edilməsi ilə bağlı texniki dəstək göstərirlər.**



Naxçıvan Regional Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Fariz Şıxəliyev bildirib ki, səyyar xidmət fermerlərə həm vaxt qazandırır, həm də bəyanetmə zamanı yarana biləcək gecikmələrin qarşısını alır. "Məqsədimiz hər bir fermerin dövlət dəstəyi tədbirlərindən problemsiz və tam şəkildə yararlanmasını təmin etməkdir", – deyə o qeyd edib.

Payızlıq əkinlərlə bağlı bəyanların qəbulu 30 dekabr tarixində başa çatacaq. Gecikmiş və ya düzgün aparılmamış bəyanlar fermerlərin əkin subsidiyası almaq hüququnun itirilməsinə səbəb ola bilər. Vaxtında və düzgün edilən bəyanlar isə monitorinqlərin operativ keçirilməsinə və subsidiyaların 2026-cı ilin əvvəlində ödənilməsinə imkan yaradacaq. Fermerlərə səyyar qrupların xidmətlərindən fəal şəkildə yararlanmaq tövsiyə edilir.

Qeyd edək ki, nazirlik muxtar respublikada aqrar sahənin rəqəmsallaşdırılması üzrə işləri davam etdirir. Artıq Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) inteqrasiya üçün tələb olunan avadanlıqların alınması məqsədilə açıq tender elan olunub. Sistemin 2026-cı ilin birinci rübündə istifadəyə verilməsi və subsidiya proseslərinin tam elektronlaşdırılması planlaşdırılır.

***XQ***

*Bəxtiyar Vahabzadə – 100*

# Azərbaycandan Türk dünyasına yüksələn şair



**Bu il 100 yaşı tamam olan istiqlal nəğməkarı, Türk dünyasının ünlü şairi Bəxtiyar Vahabzadə həm də ədəbiyyatşünas alim və pedaqoq kimi minlərlə filoloq tələbənin sevimli müəllimi, neçə-neçə alimin elmi rəhbəri olmuşdu. Bakı Dövlət Universitetinin professoru kimi Bəxtiyar müəllim mənim də namizədlik dissertasiyama rəhbərlik etmişdir.**

Əlamətdar yubiley ilində Xalq şairi barədə mətbuatda çap edilən xatirə yazılarını zənginləşdirmək, vətəndaş alimin kimliyini çağdaş nəsillərə az da həssaslıqla duydurmaq üçün mən də yaddaşımın unudulmaz epizodlarını yenidən yaşadım. Uzun illər evinə gedib-gəldiyim, ailəsi və qohumları ilə dostluqlar qurduğum, adını böyük iftixarla xatırladığım Azərbaycanımızın poeziya aləminə öz dəst-xətti ilə daxil olan qüdrətli söz ustadı və alim Bəxtiyar Vahabzadə haqqında bir neçə hekayəti oxucularla bölüşmək istəyirəm:

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Pedaqoji Universitet) tarix-filologiya fakültəsində oxuyurdum. O zaman institutda Bəxtiyar Vahabzadənin "Şəbi-hicran" poemasının müzakirəsi keçirilirdi. Əlaçı tələbə olduğum üçün əsərin təhlili mənə tapşırılmışdı. Yəni mən əsər haqqında məruzə edirdim. Müzakirədə Bəxtiyar müəllimin özü də iştirak edirdi. Görüş çox maraqlı keçdi, sonda mən də müəllifdən məruzəmlə bağlı səmimi təşəkkür eşitdim. O vaxtdan sonra mənim Bəxtiyar Vahabzadə yaradıcılığına marağım hədsiz dərəcədə artdı.

Sonrakı illərdə mənim aspirantura təhsilim və elmi fəaliyyətim Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) görkəmli yazıçımız, professor Mir Cəlal Paşayevin rəhbərlik etdiyi Azərbaycan ədəbiyyatı kafedrasında keçdi. Namizədlik işimin mövzusunu mənə Mir Cəlal müəllim tövsiyə etdi. Elmi rəhbər isə Bəxtiyar Vahabzadə təyin edildi. Hər ikisinin mənə dəyərli məsləhətləri, insani dəstəyi elmi işimin yazılmasını və müdafiəsini sürətləndirdi.

Elmi rəhbərim olduğu illərdə yavaş-yavaş Bəxtiyar müəllimin evinə də ayaq açırdım. Bir şeiri məni çox təəccübləndirmişdi:

***Atam iki,***
***Anam iki,***
***Sevgilim iki,***
***Vətənim iki.***

Bir gün evlərində dedim ki, Bəxtiyar müəllim, "Vətənim iki"ni başa düşürük. Yəni Arazın o tayı və bu tayı. "Sevgilim iki"nidə sizin şeirlərinizdən anlayırıq. Bəs ata və ana iki ola bilərmi?

Bəxtiyar müəllim dedi ki, öz atamın məni tərbiyə edib böyüdən anam Gülzar xanımdan övladı olmayıb. Əmimin isə bir neçə övladı olub. Mən əmimin oğluyam. Əmim və atam mənə atalıq, əmimin həyat yoldaşı və anam Gülzar xanım mənə ana olublar.

1965-ci ildə Bəxtiyar Vahabzadə 39 yaşında Bakı Dövlət Universitetinin böyük akt salonunda doktorluq dissertasiyası müdafiə edirdi. Mövzusu "Səməd Vurğunun yaradıcılıq yolu" idi. Şair hələ 20 yaşında belə bir şeir yazmışdı: "Sarılığın xisləti". Şeirdəki "sarılıq" bəlası birbaşa rus ağalığına ünvanlanmışdı. Şeiri o zaman böyük Səməd Vurğuna təqdim edən gənc Bəxtiyar şairə ehtiyatlı olmağı tövsiyə etmişdi. Dissertasiyada bu şeirdən, Səməd Vurğunun ona münasibətindən söhbət açılmasa da, nökər xislətli bədxahlar bu "ehtiyatsızlığ"a siyasi don geydirməklə Bəxtiyar Vahabzadənin müdafiəsinə mane olmaq istəyirdilər.

Bəxtiyar müəllimin dostları, pərəstişkarları kimi, bədxahları da çox idi. "Azərbaycan" şeiri cəmiyyətdə bomba kimi partlamışdı:

***Azərbaycan, mənim eşqim,***
***mənim anam!***
***Biz ikimiz bir torpağıq,***
***mən də sənin bir parçanam.***
***Ey qüdrətim, ey şöhrətim,***
***sənsiz mənim nə qiymətim?***

Onu tənqid edib demişdilər ki, niyə burada "Sovet Azərbaycanı" ifadəsi yoxdur?

Bəxtiyar müəllimin "Muğam" poemasını yazmasını da xatırlayıram. Evdə bütün muğam dəstgahlarını dinlədiyinin şahidiyəm. O dəstgahların bəzilərini dinləyən qulaq müsafirlərindən biri də mən olmuşam.

"Mərziyə" poemasını yazanda isə şair ağır sarsıntılar keçirmişdi.

Bəxtiyar müəllim vətəndaş yanğısını sətirlərə belə köçürmüşdü:

***Sən vuruşdun əlindəki silahla yox,***
***Qəlbindəki inamınla, imanınla,***
***Həkk elədin öz adını,***
***Sən tarixə öz qanınla.***

Bəxtiyar müəllim totalitar rejimdə bir çox cəsarətli çıxışları ilə yadımda qalıb. 1990-cı ilin 20 Yanvar gecəsi əliyalın xalqımıza qəsd edildi. Çoxlu şəhid verdik. Sabahı gün B.Vahabzadənin rus generalının üzünə tüpürərək "Sən mənim xalqımın qatilisən"– deməsi, o, fövqəladə cəsarət idi, gözü görə-görə ölümə getmək idi. Sonralar bu barədə "Tüpürcək" adlı şeir də yazıldı. Şairin özü isə o günlərdə məşhur "Şəhidlər" poemasını yazdı.

1987-1990-cı illərdə mənim çalışdığım Azərbaycan Xalq Təsərrüfatı İnstitutu adlanan Rusiyanın Voznesenski adına Leninqrad Universitetinin filialına çevrilmişdi. İnstitutda çalışdığım Azərbaycan dili kafedrasının isə bağlanmaq təhlükəsi var idi. Mən Bəxtiyar müəllimin yanına gedib vəziyyəti danışdım. Şair o zamankı rektora zəng edib "xalqın dilini öyrədən kafedra bağlana bilməz" dedi. Uzun söhbətlərdən sonra Azərbaycan dili kafedrası Bəxtiyar müəllimin sayəsində bağlanmadı.

Bəxtiyar müəllimin mətbuatda dərc olunan hər bir məqaləsi, hər şeiri, nəşr edilən hər bir kitabı şıdırğı sürətlə yayılıb oxunurdu. Bəxtiyar müəllim təpədən-dırnağa qədər türkçü idi. 37-ci il olsa idi, yəqin ki, pantürkçü adı ilə onu da məhv edərdilər.

2009-cu ildə Bəxtiyar müəllim dünyasını dəyişdi. Xəstə olduğu günlərdə tez-tez evlərinə gedirdim. Həyatının son saatlarında belə yanında türk ziyalıları var idi.

Bəxtiyar müəllim ilk ziyalımız idi ki, dəfnində cənazəsi Azərbaycan və Türkiyə bayraqlarına bürünmüşdü. Özü də belə yazmışdı:

***Birdir bizim hər halımız***
***Diləyimiz, amalımız***
***Bayraqlarda hilalımız***
***Azərbaycan–Türkiyə.***

***Maarifə HACIYEVA,***
***filologiya elmləri doktoru, professor***

*Seyid Əzim Şirvani – 190*

# Maarifçi şairin yubiley gecəsi



**Noyabrın 27-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə böyük mütəfəkkir şair Seyid Əzim Şirvaninin 190 illiyi münasibətilə ədəbi-bədii gecə keçirilib.**

Tədbirdə çıxış edən yazıçı-dramaturq İlqar Fəhmi Seyid Əzim Şirvaninin ədəbi irsi, maarifçi fəaliyyəti və XIX əsr Azərbaycan poeziyasında oynadığı mühüm roldan söz açıb.

Şairin kötücəsi, Milli Məclisin deputatı Şahin Seyidzadə qeyd edib ki, Seyid Əzim Şirvani xüsusi icazə ilə Şamaxıda məktəb açıb, müəyyən məhdudiyyətlərə baxmayaraq, həm Azərbaycan, həm də rus dillərində tədrisin təşkilinə nail olub. Şahin Seyidzadənin sözlərinə görə, Seyid Əzimin şeirlərinin muğamlarda ifa olunması onların daha geniş kütlələr tərəfindən sevilməsinə səbəb olub.

Digər çıxışçılar da Seyid Əzim Şirvaninin zəngin irsindən bəhs ediblər.

Tədbirin bədii hissəsində müxtəlif muğam parçaları səsləndiriblər.

Tədbirin poetik hissəsində isə qiraət ustaları Hüseynağa Aslanov, Elşən Qədri və Gülbala Dadaş Seyid Əzim Şirvaninin şeirlərindən parçalar təqdim edərək gecənin ədəbi ovqatını tamamlayıblar.

***XQ***

*Yeni nəşrlər*

# Qərbi Azərbaycan həqiqətləri ingilis dilində

**Xalqımızın Qarabağ zəfərindən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi gerçəklikdən bəhs edən "Qərbi Azərbaycan və Zəngəzur dəhlizi: Tarix, iqtisadiyyat, hüquq və regional güc mübarizəsi" adlı fundamental kitab bu günlərdə İngiltərənin nüfuzlu "Cambridge Scholars Publishing" nəşriyyatında işıq üzü görüb.**




Türkiyənin Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun kafedra müdiri, professor Vəfa Qurbanın redaktorluğu ilə hazırlanmış, çağdaş Azərbaycan həqiqətlərini beynəlxalq auditoriyaya çıxaran fundamental nəşr həm elmi dairələr, həm də Cənubi Qafqaz məsələləri ilə məşğul olan siyasi araşdırma mərkəzləri üçün mötəbər mənbədir. Kitabın müəllifləri isə Azərbaycanda və Türkiyədə çalışan elm adamları professor Cavid Abdullazadə, dosentlər Hamit Özman, Oğuzhan Ergün, elmi tədqiqatçılar Nur Çümən Aşçı, Berrin Sarı və hüquqşünas Burçin Oğuzdur.

Monoqrafiyada Cənubi Qafqazın geosiyasi baxımdan ən həssas məkanlarından olan Qərbi Azərbaycan bölgəsi çoxşaxəli elmi yanaşma ilə təhlil olunur. Əsərin əsas məqsədlərindən biri Qərbi Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə elmi, faktlara əsaslanan və anlaşılan şəkildə təqdim etməkdir. Bu istiqamətdə xüsusilə Rusiya arxiv mənbələrinə söykənən araşdırmalar bölgənin tarixi-siyasi mənzərəsini daha da aydınlaşdırır. Kitabda son 2 əsrdə Qərbi Azərbaycan torpaqlarında aparılmış demoqrafik dəyişiklik siyasəti, əhalinin məcburi köçürülməsi prosesi, kütləvi soyqırımları və Ermənistan adlı oyuncaq dövlətin bu ərazilərdə necə formalaşdırılması tarixi də geniş faktoloji baza əsasında izah olunur.

Tədqiqatın digər mühüm istiqaməti Zəngəzur dəhlizinin tarixi, siyasi və iqtisadi əhəmiyyəti ilə bağlıdır. Nəşrdə müxtəlif sahələr üzrə ixtisaslaşmış alimlərin araşdırmaları ilə sübut edilmiş Zəngəzurun qədim türk yurdu olması, bölgənin türkdilli xalqlar üçün strateji və regional güc balansındakı rolu ətraflı əksini tapıb. Kitabda dəhlizin gələcək inkişaf perspektivləri, regiondakı geosiyasi riskləri və imkanları da elmi əsaslarla dəyərləndirilib.

2020-ci il Qarabağ Zəfərindən sonra bölgədə yaranmış yeni reallıqlar fonunda kitabın təqdim etdiyi hüquqi, demoqrafik və geostrateji təhlillər həm elmi ictimaiyyət, həm də digər qurumlar üçün dəyərli mənbə rolunu oynayır. Əsər torpaq hüquqları, etnik-siyasi proseslər və beynəlxalq hüququn tətbiqi ilə bağlı müasir yanaşmaları özündə birləşdirir.

***Namiq QƏDİMOĞLU***
***XQ***

*Milli kino tariximiz*

# Ölməz ekran əsərləri

**(əvvəli qəzetin 15 və 25 noyabr tarixli saylarında)**



## "Yenilməz batalyon"

**Bu il məşhur "Yenilməz batalyon" bədii filminin 60 yaşı tamam olur. Yazıçı Qılman İlkinin "Qalada üsyan" romanı əsasında ssenari yazdığı və rejissor Hüseyn Seyidzadənin quruluş verdiyi bu filmdə 1907-ci ildə çar hökuməti tərəfindən o vaxt ucqar hesab olunan Azərbaycanın kiçik şəhəri Zaqatalaya sürgün edilmiş "Potyomkin" zirehli gəmisinin üsyankar matrosları ilə yerli inqilabçıların Rusiya imperiyasına qarşı birgə mübarizəsindən danışılır.**

Tarixi dram–macəra janrında olan yubilyar ekran əsərində baş rolları Tamilla Ağamirova (Xavər), Vladimir Yemelyanov (Dobrovolski), İsmayıl Osmanlı (Dərzi Yusif), Anatoli Yurçenko (Stepan Lemeşko), Müxlis Cənizadə (Nəriman Tağıyev), Ofeliya Məmmədzadə (Roza), Mixail Puqovkin (Kolpakov), Ceyhun Mirzəyev (Teymur), Hüseynağa Sadıqov (Feldfebel) ifa ediblər. Olayları Xan Babayev və Rasim İsmayılov lentə alıblar. Filmdə Cahangir Cahangirovun yazdığı "Teymurun mahnısı"nı İslam Rzayev səsləndirib, bu oynaq nəğmə uzun illər Gülağa Məmmədovun, Anatollu Qəniyevin və başqa müğənnilərin repertuarını bəzəyib:

***Yel əsər, dağıdar dağda dumanı,***
***Anamın gözləri yoldadır -***
***Bircə mənə qalmış gümanı,***
***Gedim, görüm əziz anamı,***
***A qarlı dağlar!..***

Xalq artisti Heydər Anatollu müsahibələrinin birində deyib: "Yenilməz batalyon"da həmin ifanı birinci dəfə atam səsləndirmişdi. O vaxt Moskvaya filmi təhvil verəndə bədii şura bildirib ki, atamın səs tembri ilə böyük sənətkarımız Ceyhun Mirzəyevin yaratdığı obraz uyğun gəlmir. Ona görə mahnını mərhum sənətkarımız, atamın da yaxın dostu olan İslam Rzayev səsləndirdi".

Bu da maraqlıdır ki, Zaqatalada baş vermiş hadisə barədə film həmin rayonda deyil, Şəkidə (türmə-qalaətrafı) və Oğuzda (Qırxbulaq, Bayan kəndi), eləcə də Bakıda köhnə studiyanın povilyonunda lentə alınıb. Hətta Bayan sakini Bəkir kişi öz atı ilə epizodik rola çəkilib. Kinolentdə istifadə olunan furqon isə Böyük Söyüdlü kəndindəki keçmiş Miçurin adına kolxozdan götürülübmüş. Filmin rejissor assistenti olmuş Rafiq Dadaşovun dediyinə görə, Şəkidə uzun müddət güclü yağış yağdığı üçün geri qayıtmalı olublar və çəkilişlər xeyli gecikib. Filmin final səhnəsi isə Xanabadda çəkilmişdir.

Ekran əsərində rol almış rus aktyorlar Bakıda və Şəkidə xalqımızın qonaqpərvərliyini görüb və Moskvaya çox razı qayıdıblar.

Döyüş səhnələrinə kaskadyorlar çəkiliblər. Eyni zamanda, yerli hərbi hissələr də çəkilişlərdə iştirak ediblər. Kostyumlar və digər zəruri avadanlıqlar Moskvada sifariş olunub.

Kino tənqidçisi Sevda Sultanova yazır: "Azərbaycan kinosunun ən yaxşı əsərlərindən sayılan "Yenilməz batalyon"dakı bəzi epizodlarda piano müəllimi Xavərin (Tamilla Ağamirova) ifasındakı musiqi təkcə natura yox, eyni zamanda əhvalatın fon musiqisi kimi səslənir, vəziyyətlərin alt qatını sezdirir. Rəis Kolpakovun (Mixail Puqovkin) evində təşkil olunan ziyafətdə Xavər Bethovenin əsərlərindən birini çalır. İfa zamanı zabit Dobrovolski (Vladimir Yemelyanov) ilə Xavərin növbələşən iri planlarından istifadə olunur. Rusiya imperiyasının təmsilçisi ilə bolşevik ərini sürgündə itirmiş Xavərin mənalı baxışlarının toqquşması əqidə müxtəlifliyindən doğan gərginliyi eyhamlaşdırır".

Beləliklə, təbliğat baxımından sovet sisteminə xidmət edən bu film hazırda öz ideologiyası ilə deyil, məhz sənət baxımından tamaşaçı marağını qoruyub saxlayır.

## "Yeddi oğul istərəm"

**Bu il 55 yaşı olan tammetrajlı "Yeddi oğul istərəm" bədii filmi də sovet ideologiyasına xidmət etməsinə baxmayaraq, Xalq şairi Səməd Vurğunun "Komsomol" poemasının motivlərinə və görkəmli sənətkarların oyununa görə sevilən filmlərdən idi. Elə bircə Gəray bəyin dili ilə deyilən "Çal, aşıq, çal, komsomolun canı it canıdır" fikri zərb-məsələ çevrilib. Ssenarisini Yusif Səmədoğlunun qələmə aldığı filmin quruluşçu rejissoru Tofiq Tağızadədir. Xəyyam Mirzəzadənin musiqiləri kinolentin təsir gücünü daha da çoxaldıb. Cəlal güllələnən vaxt Ədalət Nəsibovun Aşıq rolunda "Yanıq Kərəmi" saz havası ifa etməsi də seyrçilərin olayla bağlı həyəcanını artırır.**

Yeri gəlmişkən, Humayın sevgilisi Cəlalı Gəray bəyin öldürməsinə görə Bəxtiyara "Babamın qanını sənə halal eləyirəm" deməsi, Gəray bəyin isə hansısa bir komsomolçunun əli ilə ölmək istəməyərək özünü güllələməsi kimi səhnələr də kinolentin təsirliliyini artırıb.

"Yeddi oğul istərəm"də əsas yeddiliyi Həsən Məmmədov (Bəxtiyar), Şahmar Ələkbərov (Qəzənfər), Ənvər Həsənov (Cəlal), Elçin Məmmədov (Mirpaşa), Əbdül Qasımov (Qasım), Rafiq Əzimov (Şahsuvar) və Ələsgər İbrahimov (Zalımoğlu) canlandırıblar. Həsənağa Turabovun Gəray bəyi, İsmayıl Osmanlının Kələntəri, Zemfira İsmayılovanın Humayı, Fərhad İsrafilovun Qəqənisi də aktyor ansamblını layiqincə tamamlayıb.

Ekran əsəri sovet inqilabının qələbəsinə inanan və məqsəd naminə canlarından belə keçməyə hazır olan 1920-ci illərin komsomolçuları haqqında romantik hekayətdir. Kinoşünas Ulduzə Qaraqızı özünün "Azərbaycan filmlərinin yaranma tarixindən" adlı kitabında yazır ki, Tofiq Tağızadə lentin ideoloji istiqamətinə rəğmən milli adət-ənənələrdən ("Kosa-kosa" xalq mərasimi, Novruz bayramı buna canlı misaldır) çox bacarıqla istifadə edib.

Qeyd etdiyimiz kimi, bu filmdə monolit aktyor ansamblı yaradılıb. Bəxtiyar dəstənin hər bir üzvünün üstündə nanə yarpağı kimi əsir ki, salamat qalsınlar. Cəlal isə bəy qızını sevməsi ilə mənəviyyatın siyasi məsuliyyətdən ucada durduğunu göstərir. Kobudluğu ilə fərqlənən Mirpaşa əsas qəhrəman olmasa da, uzun müddət tamaşaçının yadından çıxmır. Kələntər dayı mənfi tip kimi diqqət çəkir və s.

**Filmdə çəkilərkən 25 yaşı olan, hazırda 81 yaşlı Xalq artisti Əbdül Mahmudbəyov – Şeyx Əbdülün "Yeddi oğul istərəm" haqqında dediklərindən:**

– Uzun Qasım roluna məndən başqa 6 aktyor da sınaq çəkilişlərində iştirak etmişdi. Rejissorun seçimi, bədii şuranın qərarı ilə mən təsdiq olundum. Sınaq çəkilişlərində komsomolçu rollarını yaradan aktyorların gününün əsas hissəsi Cıdır meydanında atçapma məşqlərində keçib. Bu proses 5-6 ay davam etmişdi. Təsəvvür edin ki, idmançılar gün ərzində 1 dəfə məşq edirlərsə, biz aktyorlar 2 dəfə qan-tər içində atçapma məşqlərinə qatılırdıq.

Filmin çəkilişləri də son dərəcə ağır, çətin, təhlükəli şəraitlərdə aparılıb. Yay fəslinin isti günlərində aktyorların yaraqlı-yasaqlı geyimlərdə kamera qarşısında bəzən saatlarla dayanması, at çapması o qədər də asan məsələ deyildi. Hamımız silahlı, patrondaşlı, atın belində, Qobustanın ilan mələyən çölündə, qayaların, ilan-əqrəblərin içində çəkilirdik. Çox vaxt elə olurdu ki, bir qurtum suyu da bölürdük. Aktyorlar bu filmdə, sözün həqiqi mənasında, böyük fədakarlıqlar göstərdilər.

İndi onların çoxu dünyadan köçüb. Amma "Yeddi oğul istərəm" bədii filmi yaradıcı heyətə qoyulan bir abidə kimi qalır.

***(ardı var)***

***Ə.DOSTƏLİ***
***XQ***

# Çində özəl “hipersəs sıçrayışı”

**Pekinin özəl aerokosmik şirkəti “Beijing Lingkong Tianxing Technology” özünün hipersəs raketi modelinin seriyalı istehsalına başladığını elan edib. Bu addım Çin müdafiə sənayesi üçün mühüm dönüş nöqtəsi sayılır: ölkədə ilk dəfə olaraq özəl sektor operativ-taktiki sinif silah hazırlayır və şirkətin iddiasına görə, yeni sistem dövlət müdafiə müəssisələrinin analoji məhsullarından bir neçə dəfə daha ucuz başa gəlir. Bu təcrübə müdafiə sahəsində özəl texnologiya şirkətlərinin rolunun müzakirə edildiyi ölkələr üçün də dəyərli nümunə ola bilər.**

Şirkətin məlumatına görə, YKJ-1000 indeksli raket 500–1300 kilometr məsafəni qət edə bilir və idarə olunan uçuş zamanı 5–7 Max sürəti bir neçə dəqiqə ərzində qoruyub saxlaya bilən hipersəs planlayıcı döyüş blokuna malikdir. Buraxılış qurğusunun standart nəqliyyat konteynerinə bənzər şəkildə hazırlanması onun gizli daşınmasını və müxtəlif ərazilərdə tez yerləşdirilməsini mümkün edir. Yayımlanan görüntülərdə planlayıcı blokun avtonom hədəflənmə və manevr imkanları nümayiş etdirilir.

Çin ordusunun arsenalında artıq hipersəs və yüksək sürətli zərbə vasitələrinin geniş xətti mövcuddur. Bu sinfin ən tanınmış nümunəsi 2019-cu ildə təqdim olunan DF-17 kompleksi və onun DF-ZF planlayıcı blokudur. Açıq mənbələrə əsasən, DF-17-nin uçuş məsafəsi 1800 kilometrdən çoxdur və blok uzunmüddətli hipersəs manevr uçuşu həyata keçirə bilir. Bundan əlavə, 2025-ci ilin sentyabrında keçirilən hərbi paradda DF-26 ortamənzilli raketin manevr edən və ya hipersəs modifikasiyası kimi təqdim olunan DF-26D versiyası nümayiş olunub. Bu sıraya, həmçinin təxminən 6–10 Max sürətə və 1500 kilometrə qədər uçuş məsafəsinə malik olduğu bildirilən YJ-21 gəmi əleyhinə raket də daxildir. Belə geniş fon şəraitində özəl şirkətin yeni raketi əvvəllər tamamilə dövlət korporasiyalarının nəzarətində olan bir sahəyə qeyri-dövlət sektorunun daxilolma cəhdi kimi qiymətləndirilir.




Şirkət bildirir ki, maya dəyərinin kəskin azalmasına “mülki elektron komponentlərdən və geniş əlçatan materiallardan istifadə” imkan yaradıb. Çin müdafiə-sənaye kompleksi üçün bu, əlamətdar mərhələdir: əvvəllər əsas raket sistemlərini yalnız dövlət müəssisələri hazırlayırdısa, indi özəl şirkətlər də ənənəvi olaraq iri dövlət strukturlarına aid edilən seqmentə daxil olmağa başlayır. Bununla belə, bəzi iddialar əlavə dəqiqləşməyə ehtiyac duyur. Məsələn, şirkətin göstərdiyi “10 dəfə ucuz” qiymət konkret raket modelləri ilə müqayisə edilməyib. Həmçinin dövlətin tammiqyaslı sınaqların başlanmasına dair qərar verib-vermədiyi, yoxsa bunun daha çox hərbi qurumların və investorların diqqətini çəkməyə yönəlmiş nümayiş xarakteri daşıdığı da hələlik məlum deyil.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

*Xuntaçıların məhkəməsi*

# İttihamlara hüquqi aydınlıq gətirilir





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 27-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin müdafiəçilərinin çıxışı başlayıb.

Təqsirləndirilən Qurgen Stepanyanın müdafiəçisi Zümrüd Səmədova çıxışının əvvəlində xatırladıb ki, dövlət ittihamını müdafiə edən prokuror Q.Stepanyanın 16 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilməsini məhkəmədən xahiş edib. Müdafiəçi bildirib ki, təqsirləndirilən şəxs özünü elan edilmiş ittihamlarda təqsirli bilmir. Onun sözlərinə görə, Q.Stepanyan məhkəmə istintaqı zamanı verdiyi ifadəsində göstərdiyi kimi, 2005-2007-ci illərdə Hadrut qəsəbəsində müddətli həqiqi hərbi qulluqçu kimi xidmət edib, 2023-cü ildə isə döyüş postuna aparılıb.

Vəkil deyib ki, 2023-cü il sentyabrın 19-da o, mövqeyini tərk edərək Xankəndi şəhərinə qaçıb və yolda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları ilə rastlaşaraq onlara təslim olub. “Müdafiə tərəfi olaraq hesab edirəm ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 42.1.4-cü maddəsinə əsasən şəxsin təqsirliliyi sübuta yetirilmədiyi əsası ilə ona bəraət verilmədilir. Odur ki, məhkəmədən həmin maddəni əsas götürməklə təqsirləndirilən şəxsə bəraət verilməsini xahiş edirəm”, - deyə vəkil əlavə edib.

Q.Stepanyanın digər vəkili Rafiq Kərimov da hüquqlarını müdafiə etdiyi şəxsə bəraət verilməsini məhkəmədən xahiş edib.

Təqsirləndirilən Vasili Beqlaryanın müdafiəçisi Əzizağa Qafarov çıxışında qeyd edib ki, hüquqlarını qoruduğu şəxs qeyd edilən cinayət hadisələrinin törədilməsində təqsirli deyil. Vəkil söyləyib ki, V.Beqlaryan 2012-2013-cü illərdə Ağdərə ərazisində müddətli həqiqi hərbi qulluqçu - əsgər kimi xidmət keçib. Onun sözlərinə görə, V.Beqlaryan 2022-ci ildə Xankəndi şəhərində yerləşən hərbi birləşmədə müddətdən artıq hərbi qulluqçu, əsgər kimi 3 illik müqavilə imzalayıb və bir neçə dəfə Çərəkdar kəndi istiqamətində yerləşən döyüş mövqeyinə göndərilərək orada silahlı növbətçilik çəkib.

Həmin dövrdə onun xidmət keçməsi könüllü xarakter daşısa da, bu, onun iş tapa bilməməsi, müqavilə əsasında əməkhaqqı alması məqsədilə edilib. Müdafiəçi deyib ki, qeyd edilən dəlil təqsirləndirilən şəxsin ifadəsi ilə də sübuta yetirilir.

O qeyd edib ki, V.Beqlaryan tutulduğu vaxtdan, yəni 2023-cü il sentyabrın 26-dan indiyədək, elan olunmuş ittihamlarla bağlı özünü təqsirli bilməyib.

Müdafiəçi V.Beqlaryan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Arkadi Qukasyanın müdafiəçisi Pərvanə Qasımova çıxışında bildirib ki, hüquqlarını müdafiə etdiyi şəxs cinayətkar birliyin üzvü olmayıb. O, ittiham tərəfinin sübutlarını qəbul etmədiklərini söyləyərək, A.Qukasyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

A.Qukasyanın digər vəkili Nailə Tağıyeva da müdafiə etdiyi şəxs barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs David Manukyanın müdafiəçisi Valeh Qurbanov deyib ki, hüquqlarını qoruduğu şəxs özünü təqsirli bilmir, eləcə də özünü heç bir cinayətkar birliyin üzvü hesab etmir. Vəkil daha sonra söyləyib: “David Manukyan heç bir qanunsuz silahlı dəstənin yaradıcısı və üzvü olmayıb. O, hərbçi olub, hərbi təlimat əsasında fəaliyyət göstərib”.

Müdafiəçi bildirib ki, baş verənlərdə əsas təqsirkar Ermənistanın siyasi-hərbi rəhbərliyidir. O, D.Manukyanın mövqeyini müdafiə etdiyini bildirərək barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən David Babayanın vəkili Çingiz Mansurov hüquqlarını müdafiə etdiyi şəxsin 2023-cü ilin sentyabr ayında Azərbaycan hərbçilərinə könüllü şəkildə təslim olduğunu söyləyib. Müdafiəçi deyib ki, D.Babayan özünü elan olunmuş ittihamlarda təqsirli bilmir. O, təqsirləndirilən şəxsin barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs Madat Babayanın müdafiəçisi Leyla Namazzadə çıxışında deyib ki, 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında Azərbaycan helikopterinin vurulması nəticəsində ölkəmizin dövlət xadimlərinin həyatına sui-qəsd etmə epizodu üzrə M.Babayana bəraət verilməlidir. O bildirib ki, M.Babayan həmin dövrdə Ağdərə və Tərtər istiqamətində postlarda xidmət edib və odlu silahdan canlı hədəflərə qarşı heç bir atəş açmayıb, yalnız açıq havaya atəşlər açıb.

Vəkil daha sonra deyib: “Hüquqlarını müdafiə etdiyim şəxs Xocalı hadisələrində iştirak etsə də, heç kimi öldürməyib, mülki şəxslərə atəş açmayıb, o, sıravi əsgər kimi xidmət edib. Madat Babayan 1991-1994-cü illərdə Azərbaycan xalqına qarşı etnik təmizlənmədə, o cümlədən Xocalı hadisələrində verilən işgəncələrə yalnız şahidlik etdiyindən səmimi peşmandır. Buna görə Azərbaycan xalqından və Azərbaycan Respublikasının Prezidentindən üzr istəyir”.

Müdafiəçi təqsirləndirilən şəxsin ittiham olunduğu epizodlar üzrə bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

M.Babayanın digər müdafiəçisi Elnur Vəliyev də özündən əvvəl çıxış etmiş müdafiəçinin çıxışında göstərdiyi xüsusatlarla razılaşdığını bildirib.

Məhkəmə prosesi dekabrın 4-də davam etdiriləcək.

*XQ*

*Bölgələrdən səslər*

**Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında bu təhsil ocağının Yazıçılar Birliyinin üzvləri olan müəllimlərinin – Nəbi Mülkümovun “Mənim könül dəftərim” və Aytən Balayevanın “Xəyanətin rəngi” adlı kitablarının təqdimatı olub.**

# Zaqatalada kitab təqdimatı





Mərasimdə müəllim və tələbələr, AYB Zaqatala bölməsinin üzvləri, şəhid ailələri və digər qonaqlar da iştirak ediblər. Filialın tədris və elmi işlər üzrə direktor müavini, dosent Həqiqət Qədimova müəlliflərin elmi-ədəbi fəaliyyətlərindən söz açıb, təqdim edilən kitablar barədə məlumat verib, onlara yaradıcılıq uğurları arzulayıb.

AYB Zaqatala bölməsinin sədri, yazıçı-jurnalist Əlmaniz Ələkbərli hər iki şairin yaradıcılığından ətraflı danışıb: “Nəbi Mülkümov bölgə yazarları arasında “İlin şairi” seçilib. Onun 30-dan çox şeirinə mahnılar bəstələnib. Filialın digər müəllimi Aytən Balayeva da AYB üzvü kimi daim öz üzərində çalışan bir yazıçıdır. Onun işıq üzü görmüş 2 kitabından biri Türk dilində yazılıb”.

“Xalq qəzeti”nin bölgə müxbiri İlqar Həsənov belə məclislərin tələbələrin yaddaşında dərin iz buraxdığını, onlarda mənəvi zənginlik yaratdığını vurğulayıb.

Filialın iqtisadiyyat və idarəetmə bölməsinin rəhbəri Pərvanə İsmayılova və digər natiqlər hər iki müəllifə yaradıcılıq uğurları arzulayıblar. Sonra filialın “tələbə rektoru” Cavidan Həzizadə Nəbi Mülkümovun, TEC-in sədri Ayda Arzumanova isə Aytən Balayevanın ədəbi fəaliyyəti barədə məruzə ilə çıxış ediblər.

Şəhid anası, şairə Züleyxa Davudova Nəbi Mülkümova şeir həsr etdiyini, Zaqatala İncəsənət Məktəbinin müəllimi Zeynəb Əliyevanın isə mətnə mahnı bəstələdiyini qeyd edib.

Mərasimdə hər iki yazarın şeir və hekayələrindən parçalar səsləndirilib. Müəlliflər tələbələrin suallarını cavablandırıblar. Təqdim olunan kitablar iştirakçılara hədiyyə edilib.

*İ.MUSAOĞLU*
*XQ*

**Zaqatala**

# Güləş Federasiyasının hesabatı




**Azərbaycan Güləş Federasiyasının (AGF) ümumi yığıncağı keçirilib. Mərasimdə AGF prezidenti Mikayıl Cabbarov dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda idmanın, o cümlədən güləşin inkişafı, gənc istedadların yetişdirilməsi, idmançılarımızın peşəkarlığının və beynəlxalq uğurlarının daha da artırılması ilə bağlı görülən işlərdən danışıb.**

Daha sonra AGF-nin baş katibi Pərvin Piriyev son 4 il ərzində federasiyada görülmüş işlərdən, əldə edilmiş nəticələrdən danışıb. Qeyd olunub ki, güləşçilər 2022–2025-ci illərdə müxtəlif beynəlxalq yarışlarda 1031 medal qazanıblar. Bunların 293-ü qızıl, 292-si gümüş, 446-sı isə bürünc medal olub.

Güləş üzrə maddi-texniki bazanın gücləndirilməsi üçün müxtəlif infrastruktur layihələri həyata keçirilib. Həmçinin kütləviliyin artırılması məqsədilə intensiv təbliğat işləri aparılıb. Güclü irsin formalaşdırılması məqsədilə aşağı yaş qrupları üzrə güləşin inkişafına xüsusi diqqət ayrılıb. Bu da U15 və U17 yaş qruplarında böyük uğurlara nail olunmasına töhfə verib.

Tədbirdə AGF prezidenti vəzifəsinə səsvermə olub. Mikayıl Cabbarov növbəti 4 il üçün yenidən federasiyanın prezidenti seçilib. Dünya Güləş Birliyinin (UWW) Büro üzvü Namiq Əliyev isə növbəti dəfə vitse-prezident vəzifəsinə seçilib.

*Q.ƏLİYEV*
*XQ*


**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti**

*Heydər Əliyev Beynəlxalq Aeroportunda yerləşən nasosxanalarda təmir işlərinin satın alınması məqsədilə*

**AÇIQ TENDER ELAN EDİR**

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Heydər Əliyev Beynəlxalq Aeroportunda yerləşən nasosxanalarda təmir işlərinin satın alınması məqsədilə keçirilən açıq tenderdə iştirakçılar elshad.ismayilzada@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 19 dekabr 2025-ci il saat 15.00-dır.

**Prosedur üzrə əlaqələndirici şəxs:** Elşad İsmayılzadə, aparıcı mütəxəssis elshad.ismayilzada@azal.az

**Əlaqə nömrəsi:** (+99412) 4972600;
daxili 5831.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 252 (30946) 28 noyabr 2025-ci il, cümə

## İDMAN

## İdmançılarımız Avropa yarımfinalında

**Macarıstanın paytaxtı Budapeştdə boks üzrə U-23 Avropa çempionatında 1/4 final mərhələsinə yekun vurulub. Döyüşlərin yekununa əsasən Azərbaycan millisinin daha 2 idmançısı yarımfinala yüksəlib.**



Sübhan Mamedov (50 kq) Salvator Attrattivonu (İtaliya) hər 3 raundda məğlub edib – 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27). O, yarımfinalda Luis Runi (İrlandiya) ilə üz-üzə gələcək.

Səbuhi Əlizadə (+90 kq) də 1/4 final döyüşünü qələbə ilə başa vurub. Gəncə boks məktəbinin yetirməsi İliya Zinkovskiyə (Ukrayna) ikinci raundda tam üstünlüklə qalib gəlib. Boksçumuz finala gedən yolda Marko Perkoviçi (Xorvatiya) sınağa çəkəcək.

Beləliklə, Avropa çempionatında yarımfinala yüksələn idmançılarımızın sayı 3-ə çatıb. Daha öncə Tağı Nəsibov (60 kq) da bu uğura imza atmışdı. Qeyd edək ki, yarımfinala vəsiqə qazanan boksçularımız özləri üçün azı bürünc medalı da təmin ediblər. Bu mərhələnin görüşləri sabah olacaq. Yarışlar noyabrın 29-da başa çatacaq.

## Hakimləri təhqirə görə cəza

**AFFA hakimləri təhqir edən futbolçuları, məşqçiləri və bir klub rəsmisini cəzalandırıb. AFFA-dan verilən məlumata görə, bu barədə qurumun İntizam Komitəsinin iclasında qərar qəbul olunub. AFFA Region Liqasında hakimləri təhqir edən “Real”ın rəsmisi Nahid Səmədov və “Şirvanovka”nın futbolçusu Loğman Camirzəyev 4, “Naxçıvan”ın oyunçusu Əbdül Əbdülov isə 5 oyunluq diskvalifikasiya olunub.**

Qurum U-13 Liqasında iki məşqçini də eyni səbəbdən cəzalandırıb. İCBFA komandasının baş məşqçisi Zahid Məmmədov və “Hacıqabul”un məşqçisi Xudat İsrafilov 4 oyunluq diskvalifikasiya edilib.

## Çempionlar Liqasında V tura yekun vurulub

**UEFA Çempionlar Liqasının əsas mərhələsində V tura yekun vurulub. İkinci oyun günündə keçirilən 9 görüşdən 5-də ev sahibləri, 3-də qonaqlar qalib gəlib, birində isə heç-heçə qeydə alınıb.**



Gərgin mübarizə şəraitində keçən görüşlər – “Pafos” (Kipr) –“Monako” (Fransa) – 2:2, “Kopenhagen” (Danimarka) – “Kayrat” (Qazaxıstan) – 3:2, “Liverpul” (İngiltərə) – PSV (Niderland) – 1:4, PSJ (Fransa) – “Tottenhem” (İngiltərə) – 5:3, “Olimpiakos” (Yunanıstan) – “Real Madrid” (İspaniya) – 3:4, “Ayntraxt” (Almaniya) – “Atalanta” (İtaliya) – 0:3, “Arsenal” (İngiltərə) – “Bavariya” (Almaniya) – 3:1, “Atletiko” (İspaniya) – “İnter” (İtaliya) – 2:1, “Sportinq” (Portuqaliya) – “Brügge” (Belçika) – 3:0 hesabı ilə başa çatıb.

5 turdan sonra turnir cədvəlinə İngiltərənin “Arsenal” klubu başçılıq edir. Fransanın PSJ, Almaniyanın “Bayer Münhen”, İtaliyanın “İnter” və İspaniyanın “Real” komandaları 12 xalla müvafiq olaraq 2-ci – 5-ci yerləri bölüşürlər. Azərbaycan təmsilçisi Ağdamın “Qarabağ” futbolçuları 7 xalla 19-cu pillədə qərarlaşıblar. Sonuncu – 35-ci və 36-cı yerləri isə Qazaxıstanın “Kayrat” və Niderlandın “Ayaks” komandaları tutur.

*Qabil YUSİFOĞLU*
*XQ*

### ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyev Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı

**MƏZAHİR BALAQADAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

XALQ QƏZETİ

Abunə yazılışını davam etdirir!

*Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda, aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:*

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.


5 il əvvəl biz hamımız Vətən dedik!
Xalq qəzeti
Prezident İlham ƏLİYEV:
Ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik!
Üç dövlət, üç qardaş – tək ürək

**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Bəşəriyyət üçün sülh!

**Türkiyə torpaqları mədəniyyətlərin, ənənələrin və müxtəlif fikirlərin yaxınlaşmasının ümumi inkişaf üçün əsas ola biləcəyini xatırladan bir məkandır.**



Bunu Roma Papası XIV Leo Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla aparılmış danışıqların yekununa dair çıxışında söyləyib.

Ankaradakı Milli Kitabxananın binasında toplaşanlara müraciət edən Roma Katolik Kilsəsinin rəhbəri Türkiyə hakimiyyətinin ölkə sakinlərinin müxtəlifliyinə böyük önəm verdiyini qeyd edib.

Roma Papası ailə dəyərlərinin əhəmiyyətinə toxunaraq ailəni “ictimai həyatın hüceyrəsi” adlandırıb və bildirib ki, “Türkiyədə ailə institutunun əhəmiyyəti bir çox ölkələrdən daha çox dərk edilir və dilə gətirilir”.

Roma Katolik Kilsəsinin rəhbəri “sülhün bütün bəşəriyyət üçün vacib” olduğunu xüsusi qeyd edib. Bununla yanaşı, Papa üçüncü dünya müharibəsi ehtimalı ilə bağlı narahatlığını ifadə edərək, “bəşəriyyətin gələcəyinə təhlükə yaranmasına yol verilməməsinə” çağırıb.

*Dünya və maraq dünyamız*

# Urbanizasiyanın yeni mərkəzi – Cakarta



**BMT-nin urbanizasiya üzrə yenilənmiş metodologiyası dünyanın ən böyük şəhərlərinin reytinqində kəskin dəyişiklik yaradıb və bu dəyişiklik qlobal demoqrafik meyillərin istiqamətini daha dəqiq göstərməyə başlayıb. Cakartanın 42 milyon nəfərlik əhalisi ilə Tokionu birinci yerdən sıxışdırması təsadüfi deyil. Bu, həm regional, həm də qlobal səviyyədə dərin struktur trendlərin nəticəsidir.**

Cakartanın liderliyi həm də onun “gizli meqapolis” statusunun rəsmi təsdiqi kimidir. Jabodetabek adlı nəhəng aglomerasiya - Cakarta, Boqor, Depok, Tangeranq və Bekasini birləşdirən vahid urbanist məkandır və əhalinin kəskin artımı əsasən bu zonada müşahidə olunur. Lakin belə böyümə yalnız iqtisadi cazibə deyil, həm də ciddi çağırışlar yaradır. Cakarta dünyanın ən sürətlə çökən böyük şəhərlərindən biridir: bəzi rayonlar ildə 10-15 santimetr aşağı enir. Daşqınlar, nəqliyyat böhranı, qeyri-bərabər yaşayış şəraiti və infrastrukturun həddindən artıq yüklənməsi şəhəri, faktiki olaraq, idarəolunmaz səviyyəyə yaxınlaşdırır. Məhz buna görə İndoneziya hökuməti paytaxtı mərhələli şəkildə Borneoda inşa edilən yeni Nusantara şəhərinə köçürmək qərarı verib.

BMT-nin yenilənmiş urbanizasiya məlumatları qlobal miqyasda daha geniş tendensiyanı nümayiş etdirir. Belə ki, 1950-ci ildə dünya əhalisinin cəmi 20 faizi şəhərlərdə yaşayırdısa, bu gün 8,2 milyard nəfərin təxminən yarısı urbanizasiya olunmuş məkanlarda yaşayır. Bu proses 2050-ci ildə dünyanın 68 faizdən çoxunun şəhər sakinlərinə çevriləcəyi ilə bağlı proqnozlarla birləşir və planetin sosial-iqtisadi strukturlarının köklü şəkildə dəyişdiyini göstərir. Sürətlənən urbanizasiya həm iqtisadi aktivlik, həm də ciddi sosial, ekoloji və idarəetmə problemləri də deməkdir.

Asiyanın meqapolislərinin reytinqdəki dominantlığı regionun qlobal iqtisadi və geosiyasi çəkisini artırır. Qlobal istehlak bazarlarının yönü getdikcə daha çox Asiya şəhərlərinə doğru dəyişir, böyük infrastruktur sərmayələri yenə bu regiona axır və dövlətlər arasında rəqabət urbanist məkan üzərində daha qabarıq şəkildə hiss olunur. Cakartanın birinci yerə çıxması isə yalnız demoqrafik fakt deyil: bu, XXI əsrdə urbanizasiyanın qlobal xəritəsinin yenidən çəkildiyinin ən simvolik nümunələrindən biridir.

*Hazırladı:*
*S.ELAY*
*XQ*

## HAVA

## Dumanlı, çiskinli, yağışlı cümə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 7-10, gündüz 14-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 770 mm civə sütunu, nisbi rütubət gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir.



Lakin gecə və səhər bəzi şərq rayonlarda çiskinli yağış yağacağı, arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 5-9, gündüz 13-16 dərəcə, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək, gündüz 7-11 dərəcə isti olacaq.

*XQ*

## Honkonqda dəhşətli yanğın

**Çinin Honkonq xüsusi inzibati ərazisində yaşayış kompleksindəki yanğında ölənlərin sayı 75-ə yüksəlib.**



Son məlumatlara görə, 76 nəfər, o cümlədən 11 yanğınsöndürən xəsarət alıb, 279 nəfər itkin hesab olunur. Ölənlərdən biri də yanğınsöndürəndir.

Hazırda ərazidə axtarış-xilasetmə işləri davam edir. Hadisə yerinə 300-dən çox yanğınsöndürmə və xilasetmə avtomobili, eləcə də 1200-dən çox yanğınsöndürən cəlb olunub.

*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3519
SİFARİŞ 2324
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00